Coşqun Kərimov

# ONQAKU

音楽

**Onqaku | Coşqun Kərimov**
**Redaktor:** İmanyar Quliyev
**Korrektor:** Fəhmin Mirzə
**Cild dizaynı:**
**Tərtibat:** İlkin Abdulla

Fabula nəşriyyatı • 004
Fərdi inkişaf ədəbiyyatı • 001

**I nəşr:** 2019
**ISBN:** 9789952463101
**Tiraj:** 500
**AZE** Kərimov C. “Onqaku”, “Fabula” MMC, Bakı, 2019, 264 səh.

Bu kitabın müəllif hüquqları “Fabula” MMC-yə məxsusdur. “Fabula” MMC-nin rəsmi razılığı olmadan kitabın və ya onun hər hansı hissəsinin təkrar çapı, yayılması, elektron və ya mexaniki üsulla surətinin çıxarılması və çoxaldılması qadağandır.

www.fabulakitab.az
fabulakitab@fabula.com
fb.com/fabulakitab.az

www.bookzone.az
info@bookzone.az
fb.com/bookzone.az

# Mündəricat


1/100 | Onqaku (*musiqi*) silsiləsinin
yazılma məqsədi nədir? .................................. 11
2/100 | Yerin altında yaşayan insanlar ......................... 14
3/100 | Karoşi – yaponların sevmədiyi söz .................... 16
4/100 | Buldozer, yoxsa göy çəmənlik? ......................... 18
5/100 | Bizim üçün neçə manata danışarsan? ................ 20
6/100 | Bizim Suzukilər haradadır? ............................. 23
7/100 | Qapıları bağlayın, xanım Qodiva gəlir! ............... 26
8/100 | Açar sözlərini göstər, səni tapa bilsinlər ............ 28
9/100 | Yazan kənarda qalıb, oxuyanlar vuruşur ............ 31
10/100 | Qara pişiklərin günü niyə qaralıb? .................. 34
11/100 | Kitabların vaxtı qurtarır. Növbəti dalğa nədir? . 37
12/100 | Plombir hücumuna məruz qaldığım gün ........... 41
13/100 | Taksi sürən qocanın əhvalatı .......................... 43
14/100 | Meymunluqla reytinq arasında
bir əlaqə varmı? ........................................... 45
15/100 | Bahalıdırsa, dadlıdır ..................................... 47
16/100 | Semelveys paradoksu ..................................... 49
17/100 | İki dəmir mil ............................................... 51
18/100 | Məğlubiyyətdən nəticə çıxaran qalib olar ......... 53
19/100 | Dünyanın ən yaraşıqlı kişiləri harada yaşayır? .. 55
20/100 | Məhsul və xidmətlərimizi necə sataq? ............. 57
21/100 | Başın xarab olub? ......................................... 59
22/100 | Loqonun dəyəri necə müəyyən edilir? .............. 61
23/100 | Bernadet və onun balaca barmağı .................... 64
24/100 | Buzları əridən öpüş ........................................ 67
25/100 | Yeraltı dünyadan axirətə axan çay .................. 69
26/100 | Camaatın şeyi ilə oynamayın! .......................... 71
27/100 | Tənha olmaq üçün sevmək lazımdır ................. 73

28/100 | Bu otağa suallar üçün gəlmirlər ...................... 75
29/100 | Haqq uğrunda dərisi soyulanlar ...................... 77
30/100 | Beynimin içində yaman gəzirsən ...................... 79
31/100 | İnsanlar bir kaleydoskopdur ........................... 81
32/100 | Bir-birinə dəyən muncuqların səsi.................... 83
33/100 | Bilənlər deyir ki, biz bilmirik ......................... 85
34/100 | Qurbanlıq qızın hekayəsi................................ 88
35/100 | Həyatı dəyişən fürsət qapını tək döymür.......... 91
36/100 | Musiqi zövqü olan aslanlar
kar aslanlar qədər yırtıcıdır ........................... 94
37/100 | Schadenfreude ............................................. 96
38/100 | Məni yandıran təndir çörəyi ........................... 98
39/100 | Gözümüzdən yayınan qorillalar....................... 101
40/100 | Ulduz xəstəliyinə ancaq ulduzlar tutula bilər ... 104
41/100 | Gözləyən insanların ensiklopediyası................. 108
42/100 | Qanın su yerinə axmasına dözməyən
Adəmin oğulları ........................................... 112
43/100 | Heç bir Tanrı insanı dəyişə bilməz................... 115
44/100 | Bu yazıdan incə bir xətt keçir ......................... 118
45/100 | Arqos adlı itin hekayəsi ................................ 121
46/100 | Evdə tənha olan uşağın axırı .......................... 123
47/100 | Bu gün dünya kitab günüdür ......................... 125
48/100 | İri daş parçası ............................................ 130
49/100 | Bizə vəd olunan 9 bakirə kimdir? .................... 132
50/100 | Standart vəziyyətlərə hazır olmaq lazımdır ...... 135
51/100 | Zehni azlıqda olmaq nə deməkdir? ................... 137
52/100 | Eyfel qülləsini 70.000 dollara satmış
ağdamlı kimdir? ........................................... 139
53/100 | Yeraltında 3 qadın ....................................... 142
54/100 | İkimizə də lazım olan ağ kağız parçası ............. 144
55/100 | Bizə qalan portağal şirəsi olacaq ..................... 147
56/100 | Fələyin sevdiyi skamya.................................. 149
57/100 | Tarixə imza atmış ilklər ................................ 151
58/100 | Qış fantaziyası ............................................ 153

59/100 | Birnəfəsə nitqlərin hikməti ........................ 155
60/100 | Siqaret çəkən qadın ........................ 157
61/100 | Andromedaya göndərilən məktub ........................ 160
62/100 | Saudade – darıxan və sevən insanların sözü ........................ 163
63/100 | Sonuncu cümləmiz nə olacaq? ........................ 166
64/100 | 1200 körpənin canına qıyan ata öz uşağını itirərsə, nə edər? ........................ 169
65/100 | "Braziliya" dediyi üçün peşman olan adamın göz yaşları ........................ 171
66/100 | Bu hədiyyələri hansı ağılla almışdıq? ........................ 174
67/100 | Uşaqlarınızı müdafiə etmək istəyirsiniz? ........................ 176
68/100 | Keçmişə məktub ........................ 179
69/100 | Gözümə görünməyə başlamısan ........................ 181
70/100 | Vitrinlər nə üçündür? ........................ 184
71/100 | Tənhalığın iyi gəlir ........................ 188
72/100 | Musiqi notlarında gizlətdiyim məktub ........................ 190
73/100 | Əlyazma, yazıçı və körpə ........................ 193
74/100 | Gözləyənlər və darıxanlar üçün yazı ........................ 195
75/100 | Olar ki, beynimdən çıxasan bu gün? ........................ 198
76/100 | O, günəşə bənzəyirdi ........................ 200
77/100 | İstedad hədiyyədir. Götür və naz eləmə! ........................ 203
78/100 | Bu dünyada ədalət varmı? ........................ 205
79/100 | Nəhəng şəhərlərə nəhəng ürəklər lazımdır ........................ 206
80/100 | Dəli şeytan deyir ki, ondan daha dəlisi var ........................ 208
81/100 | Qaranlıqda görmək asanlaşır ........................ 210
82/100 | Nəhəng insanların işlərindən həzz almamaq olmur ........................ 213
83/100 | Mat edən Şəhriyarın məəttəl qaldığı anlar ........................ 215
84/100 | Belə şeylər ancaq kinolarda olur ........................ 217
85/100 | Səncə, mən gözəl qadınam? ........................ 220
86/100 | Cənubi Karolinadan Goranboya qədər yol gedən musiqi ........................ 223
87/100 | Sahil metrosunun çıxışında Üzeyir Hacıbəyov dayanmışdı ........................ 226

88/100 | Azərbaycan köhnə zirzəmisi olan
yeni binaya bənzəyir ...................................... 229
89/100 | Beynimdə var-gəl edən fikirlər ........................ 233
90/100 | Zirvə. Xəyal, yoxsa həyat tərzi? ..................... 236
91/100 | Əlimizdə olan kartlar ...................................... 238
92/100 | Gəmi ilə uzaqlaşan xəyalım ............................ 241
93/100 | 1 kilo mandarin ............................................. 243
94/100 | İçimdə yaxşılıq qalmayıb ................................ 246
95/100 | Uduzmaqdan həzz aldığım gün ........................ 248
96/100 | Nəyi gözləyirsiniz? ........................................ 251
97/100 | İnsanlar şüşə qablara bənzəyir ........................ 254
98/100 | Forrest nə üçün qaçırdı?
Kərimov, nə üçün yazırsan? ........................... 256
99/100 | Çox gəzən çox bilər, yoxsa çox oxuyan? .......... 260
100/100 | Musiqinin sonuncu notları ............................ 262

## "ONQAKU" NƏ DEMƏKDİR?

Yapon dilində *musiqi* sözünü ifadə etmək üçün *on+gaku* birləşməsindən istifadə edilir. *On* "səs", *gaku* isə "xoşuna gəlmək" deməkdir. Xoşumuza gələn səsləri bir yerə yığanda musiqi yaranır. Yazı yazarkən adətən musiqiyə qulaq asıram. Bu kitabda "Yeraltı musiqi silsiləsi" adı ilə sosial şəbəkədə 2 il ərzində yazdığım 100 yazı toplanıb. Əksər yazılar fərqli bir musiqi parçasının, video və ya müsahibənin təsiri ilə yazılıb. Bəzən elə olub ki, bir musiqinin müşayiətində iki-üç yazı gəlib barmaqlarımın ucuna...

ONQAKU ilham pərisini rəqsə dəvət edən gənc yazarın 100 yazısıdır. Eyni zamanda onun yazılarının ruhuna hopan 100 musiqi parçasıdır.

## GİRİŞ

Özümü yeraltı keçidlərdə musiqi ifa edən insanlar kimi hiss edirəm.

Keçiddə dayanıb dayanmadan ifa etmək və sakitləşmək istəyirəm. Onların musiqisi qəribə olur. Gün boyu fikirli insanları müvəqqəti belə olsa, fikirdən yayındırır və ya onlara müxtəlif hislər yaşadır. Onların yanından keçəndə özümü görməməzliyə vururam. Ancaq musiqiləri mənimlə addımlamaqda davam edir. Qulağım onların ifasında olur. Bəziləri təzəcə qızışır. Bəziləri bitirmək üzrə olur. Bəziləri pozitiv, bəziləri isə lirik notları səpələyir. Qarşılarına futlyar (musiqi aləti çantası) qoyurlar. Futlyarın içində bir neçə qəpik, bəzən bir neçə manatlıq görürsən. Sən keçib gedirsən. "Yəqin, kimsə mənim əvəzimə onları sevindirəcək", – deyirsən öz-özünə. Dəfələrlə yanlarından səssiz-səmirsiz keçib getmişəm.

Ancaq bir dəfə Elmlər Akademiyası tərəfdəki yeraltı keçiddə dayanmış gənc elə içdən oxuyurdu ki, elə bil ürəyimə su səpirdi. O gün çılğına dönən hislərim onun ifasında aram tapdı. Cibimdən qeyri-ixtiyarı olaraq 1 manat çıxarıb onun futlyarına qoydum. Bu gün sosial media da bir növ yeraltı keçiddir. Dostluğumda olan 5000 insan harasa gedib-gəlir. Bu yazılar da mənim ifam olsun.

Daxilən qaynayanlar ilə daxili dünyasını tanımaq üçün yazan "mən"in yollarının kəsişməsi ümidi ilə...

## KİTABDAN İSTİFADƏ QAYDALARI:

Bu kitab əsasən "klassik tənbəllər" üçün yazılıb. Kitabın istənilən yerindən açıb oxuya bilərsiniz.

Oxuyarkən "Nuages" tipli musiqilərdən dinləmək sizin səyahəti daha da maraqlı edə bilər. Məndən soruşsanız, hər gün 2 və ya 3 yazı oxuyun. Hövsələsizlər bütün yazıları birdən oxumağa çalışacaq, bilirəm. Unutmayın, düşünməkdən başınız, hiss etməkdən ürəyiniz ağrıya bilər. Yazılar birnəfəsə və bir dəfəyə yazılıb. Redaktə edilsə belə, ilkin şəklini saxlamağa çalışmışıq.

Oxuyarkən sizin dünyagörüşünüzə, dəyərlərinizə, fikirlərinizə zidd cümlələrlə qarşılaşa bilərsiniz. Tam əksinə, "Bunlar elə mənim demək istədiklərim idi", – deyə də bilərsiniz. Hər iki halda sona kimi oxuyun və səbirli olun. Bu yazılarda xaos və sistem var. Sətirlər arasında xüsusi gizli kodlar (bəlkə, kod sözlər) da qoyulub. Onları tapıb bir yerə yığsanız, "cümlə" alınacaq. Həmin cümləni tapıb mənə emaillə göndərsəniz, sizi maraqlı bir hədiyyə gözləyir.

*Xoş qiraətlər!*

# 1/100

## Onqaku (musiqi) silsiləsinin yazılma məqsədi nədir?

Musiqi:
Tony Anderson "Immanuel"

Musiqiçilər nə üçün yeraltı keçidlərdə dayanıb musiqi ifa edirlər?

Hər birinin öz səbəbi var (Pul, canlı ifa təklifi, məşq, həvəs və ya iddia).

Bu məqsədlər nə olur-olsun, onların hamısı sırf musiqi vasitəsi ilə reallığa çevrilir. Yerin altından keçən minlərlə insan ixtiyari və ya qeyri-ixtiyari laqeyd qalsa da, biganə olduğunu göstərməyə çalışsa da, müəyyən qrup insan həmin ifaçını öz məqsədinə çatdırır.

İfaçı da bu insanlara qəribə bir rahatlıq və həyəcan bəxş edir.

"Yaşadığımı hiss edirəm" həyəcanıdır bu. Hər zaman gedib-gəlmək əvəzinə, yeraltında fasilə edib, musiqiyə qulaq asıram və ifaçıyla aramızda bir yaxınlıq yaranır.

Silsiləni yazmaqda Coşqunun məqsədi nədir?

1. Yazılarıma və kitablarıma olan marağı bu metodla artırmaq. (Bütün postlar birnəfəsə, bir dəfəyə feysbukda yazılıb. Hər biri içimdən gələn həvəslə

və həmin gün üçün nəzərdə tutduğum siyahıya əsasən yazılıb).

2. Feysbuk vasitəsilə də olsa, insanlara irihəcmli mətnləri oxuma vərdişini aşılayıram. Kadrları tez-tez irəli-geri çəkmək əvəzinə “fasilə verib oxumaq” o qədər önəmlidir ki, bir həyatı dəyişə bilər.
3. Özümü müxtəlif istiqamətlərdə və yazı stillərində sınayıram. Daxilimdə gizlənən imza çalarlarını axtarıram. “Fusion” edirəm. Bəzən iki açar sözünü bir araya gətirirəm. Silsilənin “Şəhriyar və mat” postu buna nümunədir.
4. İnsanları düşündürməyi çox sevirəm. Ancaq bir çoxları bunu o qədər də xoşlamır. Bu gün hər şey o qədər çətin və qəlizdir ki, düşünmək ediləsi ən son axmaqlıq sayılır. Ancaq yenə də bu axmaqlığı hərdənbir etmək lazımdır.
5. Yazmaq daxilimə rahatlıq gətirir. İçimdə qopan fırtınaları sakitləşdirir. Ürəyimə narahatlıq çökəndə  aptekə və ya xəstəxanaya getmirəm. Klaviaturanın səsi dərdimə dərman olur.
6. Xəyallarımdan qopa bilmirəm. Bir gün “Bütün bunlara məhz yazaraq nail oldum” – deyəcək Coşquna çevrilmək üçün yazıram.
7. Səbəbsiz, məqsədsiz, niyyətsiz yazılarım da olur. Çünki həyat elə məhz həmin yazıları yazdığım zaman yaşanır. Sonunu düşünmədən, insanlardan heç nəyi gözləmədən, baş verənlərə məhəl

qoymadan, gözlərimi qapayaraq ruhumu sözün gücünə təslim edirəm. Pula və şöhrətə sitayiş dövründə özüm ola bilmək, keçmişimi unutmamaq və qurmaq istədiyim gələcəyi daha dəqiq görə bilmək üçün yazıram.

Yeraltı musiqi silsiləsini izləyənlərin və yolun sonunadək mənimlə birgə gedənlərin hər birinə hörmətlə...

# 2/100

## Yerin altında yaşayan insanlar

Musiqi:
Hazy "Cosmos"

Metroya düşüb evə getmək üçün məni aparacaq 22.136-cı qatarı gözlədim. Skamyada oturub fikrə getmişdim. Bir qədər aralıda kiminsə halı 1257-ci dəfə pisləşdi. Həmin dəqiqə başına onlarla adam toplaşdı. Düşündüm ki, bu insanlar bir araya gəlib xüsusi bir sinxron rəqs edəcəklər ki, adam möcüzəvi şəkildə düzəlsin. Ancaq yenə də məyus oldum. Halı pisləşən adama sadəcə tamaşa etmək üçün dayanmışdılar. 2-3 nəfər birtəhər kömək etməyə çalışdı. Dili qatlanan adam üçün su və qaşıq istədilər.

Bir qədər sonra polis nəfəri əlində bir stəkan su qaçaraq ürəyi xarab olanın yanına gəldi. Polisin arxasınca gələn yaşlı xadimə deyinirdi. Qaçan polis onun 30.345-ci dəfə təmizlədiyi ayaqaltını su dağıdaraq yaş etmişdi. "Bir stəkan su gətirəcək, hər yeri batıracaq" deyə söylənən xadimə nənənin halı pisləşən adama baxmağa həvəsi yox idi. Belə adamları, demək olar ki, hər gün görürdü.

Elə mən də illərlə görürəm. Qatarın içində, çölündə, eskalatorda, çıxışda dayanır bu ürəklər. Öz-özümə soruşuram: "Görəsən, mənim növbəm nə zamandır?"

Tamaşa edən kütlə aralaşdı.

Maraqlı heç nə qalmamışdı. Adam özünə gəldi. Qatara minib Memara tərəf yola düşdüm.

Qatarın içində fərqli bir həyat qaynayırdı. İçəriyə daxil olan 23.699-cu gözəlçədən sonra bütün kişilərin səyahəti daha maraqlı keçməyə başladı. Digər qadınlar qeyri-zərif baxışlarıyla bu gözəlçəni daşladı. O isə bu tanış baxışlara qarşı əmələ gələn "immuniteti"ni işə salıb telefonunu barmaqlamağa davam etdi.

Qatarın qapıları açılandan sonra doğma xarabama sarı yollandım. Blokun 3-cü mərtəbəsində durub işıq sayğacına dəfələrlə baxdım. Yüklədiyim puldan əsər-əlamət qalmamışdı. Əvvəl bir az pis olsam da, sonra sevindim. Enerji nazirimizin bu qədər çətin dövrü belə tez başa vurması və başını daha da uca edən işlər görməsi məni valeh etmişdi.

"Ən azı onların uşaqları instaqramda bizim manatların aqibətini paylaşır", – deyib özümə təsəlli verdim.

İstirahətlər, maşınlar, malikanələr və digər "xeyirxah" şəkillər onların uşaqlarının nə qədər "işıqlı" bir həyat yaşadığını göstərirdi.

Biz isə yeraltında yaşayan insanlarıq. Bizim işığımız bu günün sonundan o biri günün əvvəlinə kimi görməyə çatır.

Ən yaxşı halda məsafə "ay"a qədər uzanır.

Eskalatorlar və pilləkənlər bizi vizual olaraq aldadır.

Bizə elə gəlir ki, yerin üstünə çıxmışıq.

Ancaq bu belə deyil…

# 3/100

## Karoşi – yaponların sevmədiyi söz

Musiqi:
Samurai Music Trap Beat "Tokyo"

Uşaq olanda tez-tez "İş insanın cövhəridir" cümləsini eşidirdim. İllər sonra bu atalar sözünün antonimini yaponlardan öyrəndim: "İş insanın qatilidir."

Yapon imperatorunun şərəfini qorumaq uğrunda əlinə katana götürən Samurayların nəvələri İkinci Dünya müharibəsindən sonra yerlə-yeksan olmuş Yaponiyanı ayağa qaldırmaq üçün bu dəfə əllərinə iş çantası alıb ölümünə işləməyə başladı. Bunu o qədər böyük həvəs və məsuliyyətlə etdilər ki, nəticədə *karoşi* sözü yarandı.

Karoşi həddən artıq işləmək nəticəsində baş verən ölüm hallarına verilən addır. Hər il Yaponiyada 10.000+ nəfər karoşi səbəbi ilə vəfat edir. İş xəstələrinin psixoloji vəziyyətinə kömək üçün qaynar xətt belə fəaliyyət göstərir. Bu xətdən əsasən çox işləyənlərin ailələri istifadə edir.

Eyni hal Cənubi Koreya və Çində də yaşanır.

Karoşi sözü estafeti Cənubi Koreyada *qvarosa* və Çində *quolaosi* sözünə ötürüb.

Kimin üçün bu qədər can yandırırıq? Bəlkə, ailəmiz üçün? Artıq elm sübut edib ki, iş saatlarının çox olması insanda ailəsinə qarşı aqressivliyi və soyuqluğu artırır.

Nə üçün bu qədər işləyirik? Gözəl gələcək üçün? Bu nəhəng piramidalara hansımızın adı yazılacaq? Fironlardan başqa hansımızı yad edəcəklər?

Özümüzü həlak etdiyimiz üçün bizə kim "Çox sağ ol!" deyəcək?

Bunları düşünərək uzaq Hindistana keçid edirəm. Ofis və ya iş yerində həlak olmaqdan, yəni karoşidən başqa, Hindistanda qürbətdə işləyib dərddən keçinmək kimi bir "ənənə" də olub.

# 4/100

# Buldozer, yoxsa göy çəmənlik?

Video:
George RR Martin asks Stephen King
"How do you write so fast?!"

Yaradıcı insanlarda iki iş stili müşahidə edilir.

"Buldozer kimi iş görənlər" və "Göy çəməndə gəzib qayıdacağam" stili ilə işləyənlər bir-biri ilə maraqlı bir rəqabətə girişir. Əgər rəssamlıq və heykəltəraşlıqda məşhur bulldozerlər Da Vinçi və Mikelancelodursa, yazı dünyasında bu titul İsaak Azimovla yanaşı, Stiven Kinqə məxsusdur. "Göy çəmənlərdə.." stili ilə yazan Corc Martin ondan müsahibə götürür (Bilməyənlər üçün deyim ki, Corc Martin "Game of Thrones" kitabının müəllifidir).

Müsahibədə Corc özünü saxlaya bilməyib və çoxdan soruşmaq istədiyi sualı verir: Necə olur ki, bu qədər qısa müddətdə bu qədər çox kitab yaza bilmisiniz?

Kinqin verdiyi formul "gündə minimum 6 səhifə" olur. 2-3 aya bir kitab yazmaq olur.

Onun düşüncə tərzini və iş etikasını çox sevirəm.

İlk addımlarım budur:

- **"KVAN"** – ilk hissə 7 il, ikinci hissə 2 həftə. ("Göy çəmən"dən "buldozer"ə keçid)

- **"Ubuntu"** – 216 səhifə – 34 gün (Buldozer)
- **"Alamo13"** – 216 səhifə – 43 gün (Buldozer)

4-cünü də "Buldozer" kimi yazmaq istəyirəm. Bilirəm ki, başlasam, dayana bilməyəcəyəm.
Bəs sizdə hansı stildir?

# 5/100

## Bizim üçün neçə manata danışarsan?

Musiqi:
Talking Heads – This Must Be the Place
(Naive Melody) – WALL STREET

Bu yaxınlarda yaxından tanıdığım tədbir təşkilatçılarından biri dedi ki, Bakıda 30 dəqiqəlik çıxış üçün bir neçə türkiyəli natiqə sorğu göndərib. Qiymət öyrənməyə çalışanda məlum olub ki, hələ Ahmet Şerif, Mumin Sekman səviyyəsinə çatmamış orta səviyyənin spikerləri 30 dəqiqə üçün 4000 – 5000 dollar istəyir.

Brayan Treysi bura ilk dəfə gələndə 80.000 manat (4 ay öncədən ödənilmək şərtilə) istəmişdi. Ferrarisini satan rahibi – Robin Şarmanı bura şəxsən dəvət etmək istəyəndə asistenti mənə bir gün üçün 35.000 manat demişdi.

Yadıma bizim yerli natiqlərin vəziyyəti düşdü. Baxaq görək bizdə vəziyyət necədir:

– Bir dənə qardaşımsan, dostumsan, canlara dəyən oğlansan, müqəddəs badımcansan, bu tədbirə gəl danış. Çayını iç, pirojnanı ye, çıx get. Sənin üçün qəşəng reklam olar, müştəri tutarsan, bütün ağrıyan yerlərin sağalar və s.

– Büdcə nəzərdə tutmamışıq. Bəs cəmiyyət üçün lazımdır, bunu insanlıq naminə edin, bir dənə qaşıq da mama üçün, biri də papa üçün…

– Xarici mütəxəssis təmiz başqa şeydir. Onlar bu işin peşəkarıdır. Onları keçi südü ilə bəsləyiblər. Onların beyninə qan əvəzinə sirop gedir.

Bu günə kimi mənim nitq rekordum 16 saat (2 gün) fasiləsiz çıxış üçün (müştəri yönümlü xidmət mövzusunda) 2400 AZN olub. Bu məbləği mənə 5 il əvvəl veriblər (Manatın manat olan vaxtında).

Sonrakı rekordum isə 4 ay, hər ay 4 həftə, hər həftə 5 gün, hər gün 6 saat dayanmadan Cem Yılmazın stəndap həcmiylə çıxış etdiyim üçün vergi çıxılandan sonra 2000 AZN olub. Halbuki eyni həcmli çıxış üçün aylıq minimum 4000 AZN almalı idim. Ancaq "Bura Azərbaycandır" deyib, "Ailən var" deyib, dinə-imana gətirdilər.

Keçirəm mətləbə… Bu gün bizim şou biznes adamları toy qiymətlərini, bəzi qadınlarımız isə bir gecəlik qiymətlərini çox rahat açıqlayır (kütləvi informasiya vasitələri ilə). Bu xalqı maarifləndirən adamlar isə utanır, çəkinir və susur.

Əziz tədbir təşkilatçıları və şirkət nümayəndələri, görüşə, tədbirə danışmaq üçün dəvət edirsiniz çox gözəl! Nitqimizdən faydalanmaq istəyirsiniz, çox gözəl…

Son 1 ildə 30-dan çox tədbirə getməkdən imtina etmişəm. Çünki mən bunu etsəm, bu peşəyə hörmətim qalmayacaq. Təmənnasız işlədiyim 2-3 təşkilat var və bu işi görməyə davam edəcəyəm. Ancaq kimsə bizim bütün

təlimçilər, natiqlər və danışa bilənlər adından qiymət siyahısı təklif etməlidirsə, qoyun bunu mən edim:

| | | |
|---|---|---|
| 1 | **Aşağı səviyyə natiqləri üçün** | **1 saat (150/350 AZN)** |
| 2 | **Orta səviyyə natiqləri üçün** | **1 saat (500/750 AZN)** |
| 3 | **Yuxarı səviyyə natiqləri üçün** | **1 saat (1500 və yuxarı)** |

Pirojna və çayı da üstündən içərik!
Heç narahat olmayın!

# 6/100

## Bizim Suzukilər haradadır?

Musiqi:
The Big Short Piano Suite – Nicholas Britell

1945-ci ilin avqust ayında Yapon imperiyası təslim olur. Bütün ordularını geri çağırır və qərara əsasən, müharibənin Yaponiya üçün qurtardığını elan edir.

Həmin il Filippin adalarının birində meşələrdə gizlənib partizanlıq edən yapon ordusunun 1 leytenant və 3 əsgəri bu qərardan xəbərsiz şəkildə "döyüşməkdə" davam edir. Yerli sakinlərə, onların mal-qarasına və tarlalarına dəfələrlə hücum edirlər. Bu işdən bezən Filippin hökuməti əsgərlərin gizləndiyi əraziyə "müharibə qurtarıb" sözləri yazılmış kağızlar atmağa başlayır.

1 il keçir, heç nə dəyişmir. Hiroo Onoda adlı leytenant və onun əsgəri mikro-partizanlıq etməkdən əl çəkmir. İş o yerə çatır ki, Hiroo və onun komandasını inandırmaq üçün Yapon rəsmiləri də həmin əraziyə kağızlar atmağa başlayır (Onların qohumlarının şəkilləri ilə). Hiroo düşünür ki, bu, tələdir. Komanda yenə də təslim olmur. Beləliklə, 3 əsgərini itirənə kimi (biri özü təslim olur, ikisi ölür) Hiroo düz 30 il meşələrdə yaşayır, ölkə-

si naminə vuruşur. Heç kim onu tapa bilmir. Suzuki adlı macərapərəst yapon isə onu 4 günə tapa bilir.

Bu Hiroo Onoda adlı yaponu birtəhər inandırırlar ki, müharibə bitib. Nəhayət, leytenant müharibədən düz 19 il sonra –1974-cü ildə öz qılıncını qarşı tərəfə təhvil verərək təslim olur. Onu Yaponiyaya qaytarırlar. Orada qısa müddətdə qəhrəmana çevrilir. Lakin "yeni Yaponiya və yeni Yaponiyanın vəziyyəti" Hiroonun ölkəni tərk etməsinə səbəb olur. 1976-cı ildə Braziliyaya köçür.

1996-cı ildə Hiroo Filippinə qayıdıb köhnə günləri yad edir (Xeyriyyə fonduna maliyyə dəstəyi də verir).

Ömrünün son illərini Yaponiyada keçirən Hiroo bir məktəb təsis edir (Onoda Təbiət Məktəbi).

Nəhayət, Tokioda gözlərini əbədi olaraq yumur.

Ölkəsi uğrunda yorulmadan mübarizə aparan əsgər kimi onun barəsində filmlər çəkilir, kitablar yazılır.

Bu kitablardan birini (Mark Manson yazıb) oxuyanda bu maraqlı hekayə ilə tanış oldum və sizinlə paylaşmaq istədim.

Bəs bu yazdığım hekayənin məğzi nədir?

Bu gün biz də çoxdan bitmiş müharibələri sadəcə məlumat azlığına, yaxud başqalarına etibar etmədiyimizə görə hələ də davam etdiririk. Bütün dünya bizə sanki "Müasir dövrə təslim olun!", "Dünyanın nailiyyətlərindən bəhrələnin" sözləri yazılmış kağızlar atır. Kağızları yerdən qaldırır, gözücu baxır, sonra da öz "meşələrimizə" çəkilib "partizanlığa" davam edirik.

Finlandiya bizə *təhsillə* bağlı kağızlar atır.

Norveç bizə *iqtisadi inkişaf* haqda kağızlar atır.

Almaniya bizə *sənaye və sistemlə* bağlı kağızlar atır.

Yaponiya bizə *təbii olmasa da, səmərəli istifadə edilən resurslarla* bağlı kağız atır.

Sinqapur bizə *müasir ölkə və şəhər modeli* haqda kağızlar atır...

Saymaqla qurtarmaz.

Biz də Hiroo və onun əsgərləri kimi bu kağızları "tələ" sanıb müqəddəs bildiyimiz davamıza davam edirik.

Bu yerdə iki sual meydana çıxır:

Bizim Suzukilər, görəsən, haradadır?

Onlar gəlib bizi bu meşələrdən nə zaman çıxaracaqlar?

# 7/100

## Qapıları bağlayın, xanım Qodiva gəlir!

Musiqi:
Linkin Park – In The End
(Mellen Gi & Tommee Profitt Remix)

Qapıları bağlayın, Koventridən at keçir,
At üstə əsrarəngiz xanım Qodiva keçir.
Qapıları bağlayın, gözlərinizi yumun,
Qodiva çılpaq çapır, bu səhnəni unudun.

Bütün şəhər yumsa da, gözün açan Tom olur,
Baxan kimi kor olur, ömürlük dilxor olur.
Uzun saçlar gizlədir, nəcib olan üzünü,
Qodiva fəda edir, lüt çaparaq özünü.

Ayaq barmaqlarından saçının telinədək,
Ata dəyən dizindən "Çap!" deyən əlinədək,
Küləyə məruz qalan, məxməri belinədək,
Keçir kəndlilər üçün!

Vergidən, rüsumlardan, bezən kəndlilər üçün,
Aclıqdan, yoxsulluqdan ölən kəndlilər üçün,
Çapır incə nazənin.
Gözəl olan, şən olan, şirin körpələr üçün,

Köməksiz, tənha qalan, baba-nənələr üçün,
Çapır ümid pərisi.
Vücudunun ətrini hiss edənlər dirçəlir,
Qapıları bağlayın, xanım Qodiva gəlir!

# 8/100

## Açar sözlərini göstər, səni tapa bilsinlər

Musiqi:
Linkin Park – In The End
(Mellen Gi & Tommee Profitt Remix)

Bəzən çox qəribə suallarla qarşılaşıram: "Evimizə oboy almaq istəyirik, sizcə, hansı rəng olsun?" kimi, yaxud "Ona ürəyimdən keçənləri açmaq istəyirəm, sizcə, deyim?" tipində.

Dəfələrlə çaya qonaq edilirəm. "Səbəbini çay içəndə deyərik", – deyib intriqanı əvvəl-əvvəl gizləyənlər də olur.

Hiss edirəm ki, insanlar da dəyərli məsləhət verəcəyimə çox inanırlar.

Coşqun kimdir? Ondan necə faydalanmaq olar?

Bu adamın məzmunundan xəbər verən açar sözlər hansıdır?

Açar sözlərin siyahısı:

1. **Yazı.** Yazmağı çox sevirəm. Hələ ki 3 kitabım nəşr edilib. Hələlik göstəricilər azdır. Kitablarım ümumilikdə 5000 nüsxə çap edilib. (Kreativ yazı ilə bağlı fərdi seanslar verirəm.) Kitabları-

mın pulsuz hissələrinin PDF-si ən az 15.000 dəfə yüklənilib. Planlarım Azərbaycanın ciddi bir nəşriyyat evi ilə növbəti illər üçün növbəti kitablarımın aqibətini müəyyən etməkdir (Türkiyə və ABŞ bazarı ilə bağlı planlarım da var).

2. **Ünsiyyət dərsləri** – Şəxsi ideyamın məhsulu olan ünsiyyət dərslərini keçirəm. Dərslər 60 və ya 90 dəqiqəlik görüşlər formatında keçir (Əsasən, ingilis dilində və fərdi şəkildə). (Öz məkanı, öz işi, həftə içi 2 dəfə vaxtı, vaxtımı almaq üçün pulu, konkret dərdi olan və tapşırıq eləməyə hövsələsi çatmayan, keyfiyyətli ünsiyyət istəyən adamlarla görüşürəm).
3. **Natiqlik və təqdimat bacarıqları** – Tez-tez müxtəlif şirkətlərlə, təşkilatlarla və fərdlərlə 4 saatlıq və ya 4 görüşlük "Effektiv nitq" və "Təqdimat bacarıqları" mövzusunda görüşlər keçirirəm. Bu görüşlərdə iştirakçılara nitq üçün lazım olan özünəgüvən aşılanır və məşq bazası yaradılır. Təqdim ediləcək ideyanın, məhsulun və ya xidmətin konseptini bu adamlarla birgə sıfırdan belə tərtib edə bilirik.
4. **Məzmun** – Məzmun yaratmağı çox sevirəm. İnsanları maarifləndirən, düşündürən, onlara yeni nəsə öyrədən postlarım və videolarım olur. El arasında artıq "İnfluencer" də deməyə başlayıblar. Müxtəlif şirkət və qurumların, onların məhsullarının postlarıma və videolarıma yerləş-

dirilməsi işini də görürəm. (Dünyagörüşümə və dəyərlərimə zidd deyilsə). Açıq desək, reklam sifarişlərim də olur.

5. **Müştəri xidmətləri** – Bu sahə ilə bağlı qrup və fərdi şəkildə təlim və görüşlərim olur. “Call Center” (Çağrı mərkəzi) komandaları və ya hotellərin müştəri xidmətləri müraciət edə bilər. Şirkətlərin menecment komandaları arasında daxili ünsiyyəti effektivləşdirməyə kömək edirəm.
6. **Oxumaq həvəsi** (mahnı deyil, kitab oxumaq nəzərdə tutulur) – Ölkəmizdə mütaliəyə marağı artırmaq üçün müəyyən işlər görürəm.
7. **İdeya** – İdeyaları olanlara həmin ideyanı hazır şəklə salmaq, yəni qablaşdırmaq və satmaqla bağlı fərdi konsultasiyalar da verirəm.

Bu 7 bəndin başlığı məni ifadə edən açar sözlərdir.

Suallarınız və ya təklifləriniz olarsa, məhz bu 7 bəndi nəzərə alın (Gələcəkdə azala və ya arta bilər).

# 9/100

## Yazan kənarda qalıb, oxuyanlar vuruşur

Musiqi:
Üzeyir Hacıbəyov – "Arazbarı"

"Arşın mal alan" filmində gənc tacir mahnı oxuya-oxuya məhəllədən keçir. Onun səsini eşidən Bakı qoçularından biri "Səsini kəs, oxuma!" – deyir. Sonra başqa bir qoçu peyda olur. "Davam elə, oxu!" – deyə əmr edir. Bu cavan qalır iki qoçunun arasında. Hər ikisində tapança var. Yəni oxusa da, oxumasa da ölmək ehtimalı böyükdür. Onun bəxtindən bu iki qoçu bir-birinin yaxasından yapışır. Ara qarışır...

"Oxu, Oxuma!" çəkişməsi silahlı qarşıdurmaya çevrilir. Mahnı səsi güllə səsiylə əvəz olunur.

Yeraltı musiqini yazanda sanki həmin məhəllədən keçirsən. Yazını bəyənən və bəyənməyən insanların bir-birinə zidd rəyləri və fikirlərinə "məruz qalırsan".

Biri: "Mükəmməl yazıdır", – deyib tərifləyir, o biri: "Əə, bu nədir yazmısan?" – deyə üz-gözünü turşudur.

Biri: "Belə yazmağa davam et", o biri isə: "Bundan sonra belə yazma", – deyir. Biri: "Bu yazını oxumağa ehtiyacım var idi", – deyir. Biri: "Bu, nə mənasız yazı

idi", – deyir. Biri: "Əvvəldən axıra kimi bir nəfəsə oxudum", digəri isə: "Filan cümlədən sonra dayandım və oxumadım", – deyir. Birinin ürəyincə olur, digəri heç razı qalmır. Bunlar oxucuların aktiv hissəsidir. Passiv şəkildə oxuyanlar nə hiss edir, nə düşünür, orasını heç bilmirsən.

Bəs necə olur ki, 4000+ nəfər sakini olan fb məhəlləmdən Yeraltı Musiqi silsiləsini yazaraq keçməyə risk edirəm? Axı istənilən halda qoçuların qarşıdurması baş verəcək.

Nə gizlədim?! Mənim üçün yazını kiminsə bəyənməsi və ya bəyənməməsi yazının özündən daha vacib olmur. Çünki hər yazı məni "arzusunda olduğum yerə" aparmaq üçün növbəti cəhddir.

Eyni zamanda anlayıram ki, heç bir yazı insanın şəxsi fikrindən daha vacib ola bilməz. Təsir edə bilər, əyləndirə bilər, fikrə sala bilər, ancaq konkret inanclar və dəyərlər sistemini dəyişə bilməz. Tək yazı buna kifayət etmir. Silsilə yazılar bunu edə bilərmi? Onu birlikdə görəcəyik. Musiqi oxunduqca, yazı yazıldıqca bunu daha aydın hiss edəcəyik.

Əlbəttə ki, xoş sözlər insanı daxilən sevindirir, naxoş kəlmələr adamı üzür. Ancaq hər dəfə hər iki vəziyyətin məndə buraxdığı təsirin izi və müddəti azalır. Çünki bu yazı ilə bağlı hədəflərim yazının içində deyildir. Hansısa konkret kütlə üçün yazmıram. Silsiləni sırf hər hansı bir sosial qrupun "eqosu"nu sığallamaq xatirinə də yazmıram.

Selektiv oxumanı bir mədəniyyətə çevirməyə çalışıram. Selektiv oxuyan insanın “emosional zəkası” güclənir. Selektiv oxuyan insan kitabda yazılan $x$ ilə razılaşır, $y$ ilə razılaşmır. $x$-i çox sevir, $y$-ə nifrət edir. $x$ hissəsini bir nəfəsə, $y$ hissəsini isə birtəhər oxuyub qurtarır. Ancaq hövsələsini basıb kitabı bütövlükdə: $x$-i də, $y$-i də oxuyub bitirməyi bacarır. O anlayır ki, gələcəkdə $x$-ə və $y$-ə olan münasibəti dəyişə bilər. O anlayır ki, hər iki elementi tam qavrayıb ona əsasən fikir yürütmək vacibdir.

Yeraltı Musiqi silsiləsi keçiddə dayanıb öz ifası ilə məşğul olan musiqiçi psixologiyasıyla yazılır.

Musiqiçi bilir ki, həmin keçiddən fərqli dinlərin, dünyagörüşlərin, dəyərlərin daşıyıcıları keçir. O bilir ki, əksər insan musiqiyə reaksiya vermədən keçib gedəcək. O bilir ki, kimsə onu dinləmək üçün növbəti günün gəlməsini gözləyəcək. Kimsə də onu eşitməmək üçün keçidin üstündəki yoldan adlayacaq.

O bilir ki, bəzi insanlar onun qarşısında bir anlıq ayaq saxlayacaq. O bilir ki, dayanan insanların bir neçəsi onun qutusuna “1 manat” tullayacaq. O bilir ki, mahnıları kimin üçünsə gözəl olacaq, kimin üçünsə bir qəpiyə dəyməyəcək.

Bütün bunları düşünə-düşünə, bilə-bilə ifasına davam edəcək...

Keçiddən bir daha onun ifasının səsi gələcək...

Bütün selektiv oxuculara hörmətlə yazıram.

# 10/100

## Qara pişiklərin günü niyə qaralıb?

Musiqi:
1 Hour of Ancient Civilizations Music and World Music

Hər gün işinə, evinə gedən insanların bir qismi qəfلətən dayanmalı olur. Bu vaxt onların yolunun üstündə duran qara pişik bu insanları bir qədər düşündürür. “Görəsən, niyə bu pişik məhz mənim qarşıma çıxdı?”, “Gərək elə bu gün qabağımda peyda olaydın?” deyib pişiyin növbəti addımlarını gözləyirik. Ümid edirik ki, pişik axıra kimi getməz, dayanar. Ümid edirik ki, o, bizim qarşımızdan keçməmiş biz onu ötüb keçərik, sağ-salamat yolumuza davam edərik. İstər-istəməz insanda belə bir sual yaranır.

“Qara pişiklərin gününü kimlər qara edib?”

Tarixə baxanda Misirdə “Bastet” adlı pişik başlı ilahəni xatırlamaq olar. Yerli sakinlər ölkənin himayəçisi sayılan “Bastet”in sevgisini qazanmaq üçün evlərində qara pişik bəsləyiblər.

Şimal ölkələrinin dəniz səyyahları səyahət uğurlu alınsın deyə gəmilərində mütləq qara pişik saxlayıb. İn-

giltərədə balıqçı və səyyahların həyat yoldaşları evlərində qara pişik saxlamaqla inanıblar ki, ərləri sağ-salamat qayıdacaq. Dumanlı Albionun xanım sakinləri daha çox elçiləri olsun deyə, evdə qara pişik saxlayıb. Şotlandiyada bağçasına qara pişik gələn insanlara "varlanacağını" muştuluqlayıblar.

XVII əsrdə İngiltərə, Şotlandiya və İrlandiyanı idarə edən Çarlzın qara pişiyi öləndən bir gün sonra onu taxtından devirirlər. Kralı satqınlıqda ittiham edirlər.

Tarixə baxanda, əsasən, Avropanın inkvizisiya illərində barəsində edam hökmü verilmiş gözəl qadınlarla birgə cadugər hesab edilən qara pişiklər də yandırılıb. Rahiblər düşünüblər ki, qadınlar pişiklərin cildinə girib gizlənmək istəyir.

Dəniz quldurları da pişiyə qara damğa vurub. "Sizə tərəf gəlsə, bəla gətirir, sizdən uzaq dursa, bəxtiniz gətirəcək", – deyiblər. Ola bilsin ki, bu inanc dəniz quldurlarına yaxşı dərs verən dəniz səyyahları ilə bağlıdır.

Üzü bəri, Sənaye dövrünə tərəf gələndə isə işçi sinfinin mübarizəsinin simvolu kimi qara pişik təsvirini görürük. Haqlarını yeyən manufakturaçıların, burjuaziyanın işini sabotaj etmək üçün məhz pişiyin simvol kimi seçilməsi maraqlıdır. Başqa sözlə, "ali təbəqə"nin yolunu məhz qara pişiklər kəsib.

Bir sözlə, necə olubsa, bu qara pişiklərin günü günü-gündən qaralmağa başlayıb.

Bir iş yoldaşım öz xatirəsini bölüşür:

"Dövlət qulluğuna imtahan verməliydim. Belə vacib

gündə həyəcanla evdən çıxdım. Elə blokdan çıxırdım ki, qarşımda qara bir pişiyin dayandığını gördüm. Nə illah etsəm də, pişik dayanmadı, qabağımdan keçib getdi. Deyinə-deyinə imtahan binasına yollandım. Həmin gün imtahanı verdim. Hər şey qaydasında keçdi. Nəticələrini hesablayıb gördüm ki, keçmişəm.

Evə qayıdanda həmin qara pişiyin öldüyünü gördüm”.

Bəzən qara pişikləri məhz biz insanlardan qorumaq daha faydalıdır.

Bizdə olan enerjiyə “9 canı olanlar” belə tab gətirə bilmir.

# 11/100

## Kitabların vaxtı qurtarır. Növbəti dalğa nədir?

Musiqi:
The Best of Bach

Bu cümləni yazarkən İohann Qutenberq yadıma düşür. Onun çap maşını bəşər tarixinə möhtəşəm bir nəfəs verir. İlk ildə cəmi 100 kitab çap olunsa da, növbəti illər bu say getdikcə artır. Sadəcə İncil deyil, fərqli mövzularda kitablar yazılmağa və çap edilməyə başlanır. Zaman gəlir, gündə 1 milyon fərqli adda kitab işıq üzü görür.

Bütün bunları bir də yazmağı sevən insan kimi demək çox çətindir, ancaq kitabların vaxtı qurtarır. Onlar öz növbəsini növbəti dalğanı başladacaq nəslə verir. Biz sadəcə bu dalğanın yaranmasının və güclənməsinin astanasındayıq. Biz növbəti Qutenberqin öz emalatxanasında nə hoqqalar çıxardığından xəbərsiz kütləyik.

Kitab ilk növbədə içinə məlumat yerləşdirilən qabdır. Ancaq bu qab çox gözəl tərtib olunub. Onun xüsusi qoxusu var və onunla bağlı gözəl xatirələrimiz olur. Bu qab həyatımızın müəyyən illərini xatırladır və xatırladacaq.

Qutenberqdən əvvəl insanlar məlumatı bir-birinə şifahi şəkildə ötürürdü. Sonra qayalar və mağaralara yazdılar. Sonra papiruslar və xüsusi ağaclardan düzəldilmiş əlyazmalar çıxdı. Sonra parçalar peyda oldu. Sonra bu məlumat o qədər çoxaldı ki, insanlar təkcə parça və papirusun kifayət etməyəcəyini başa düşdü. Bu gün əldə etdiyimiz məlumatın həcmini və onun yaranma sürətini təsəvvür edin. Bizə lazım olma şkalasını düşünün. Biz artıq məlumatı daha tez əldə etmək və onu tez qavrayıb işimizdə istifadə etmək istəyirik. Texnologiyanın özü kimi səbirsiz və mərhəmətsiz olmuşuq.

Hərdən mənə elə gəlir ki, şifahi xalq ədəbiyyatı ilə başlanan dövr tam dövrəni vurub öz əvvəlki vaxtına, daha yenilikçi formada qayıdacaq. Analarımızın, nənələrimizin bizə dediyi nağılları bir gün "Alexa" və "Siri"lərdən eşidəcəyik. Ata-baba nəsihətlərini və gələcək üçün istiqaməti quqldan eşidəcəyik.

"Oxumaq" istəyəndə "dinləyəcəyik". Əlimizdə 10-15 ayrı işi görə-görə dinləyəcəyik. Çap edilən kitab öz estafetini audio və mobil tətbiqli kitablara ötürəcək. Ötürüb də. Artıq Amerikada yeniyetmələr klassik ədəbiyyatı "sms" formatına salınmış kitablar şəklində oxuyur. İnsanlarda elektron kitabları saatlarla oxumağa maraq yarada biliblər. Yəni müasir qablaşdırma cəhdləri edilir. Homerin "Odissey" əsərini vatsap audio mesajları şəklində təsəvvür etmək elə də çətin deyil. Hətta belə olsa, "Nə oxuyardım!" deyənlər də var. Kitabın indiki forma-tı, səhifələrinin çox olması bizi qorxutmağa və çəkindir-

məyə başlayıb. Ancaq "səs"in sürəti daha ürəkaçandır.

Bəs yaxşı, bu çap olunmuş və olunan kitablar necə olacaq? Disketlərin (floppy disk) istehsalının sonuncu ilini düşünün. Növbəti ildə CD-lərə keçid edilsə belə, istehsal dayanmayıb. Çünki sahibkarlar son damlasına qədər qazanmağı, insanlar isə ənənəvi olanı son saniyəsinə kimi qorumağı çox sevir. Ancaq bu mənasız müdafiədir. Çünki artıq CD-lər belə öz yerini fləşkartlara, daha sonra isə "bulud"lara həvalə edib.

Bütün bunları feysbukda yazıram. Feysbuk postları cildi, kağız vərəqi olmayan, ancaq minlərlə insanın ürəyinə və beyninə gedən məlumatın istehsal /paylaşım mexanizmidir. Dostoyevski və ya Tolstoyun feysbuk hesabını təsəvvür edin. Karl Yunqun və ya Freydin "live" etməsini təsəvvürünüzə gətirin. Məlumatın effektiv şəkildə qablaşdırılması vacibdir. Oxucu ilə yazıçının əsərin yazılma prosesində ünsiyyətdə olması çox qəribə bir təcrübədir. Belə təcrübələr nəticəsində "yeni nəsil" əsərlər meydana gələcək.

Yeraltı musiqi silsiləmi kitab şəklinə gətirəcəyəm.

"Kitabların gələcəyi barədə bu qədər yazandan sonra ənənəvi kitab çap etdirəcəksən?" deyə soruşa bilərsiniz.

Bildiyim bir şey var. İnsanların bir qismi mənim kimi sentimentaldır. Hər 15-20 ildən bir "köhnə vaxtlar" və "köhnə qablar"" dəbə düşür. Vintaj dalğası yaşanır. Müasirlik bizi mənəvi cəhətdən yorur. Bir qədər fasilə etmək və əvvəlimizə qayıtmaq istəyirik.

Bu kitab ilk növbədə feysbuk yazılarımdan ibarət topludur.

İki nəslin görüşməsidir. Bu görüş bir Qutenberqin digər Qutenberqlə yerini dəyişməsindən əvvəl baş verəcək.

Kitab bir qabdır.

Təkcə qab deyil. Marketoloqlardan soruşsanız, deyərlər ki, dövrünü əks etdirən ən gözəl qablardan biridir.

Bu qabın yanına mütləq bir stəkan çay və ya kofe qoyub onun içinə səliqə ilə düzülmüş cümlələrlə səyahətə çıxmaq və ya gözəl günlərə qayıtmaq olar. Bu qab yanında klassik musiqi də tələb edir. Məsələn, bu cümlələr Sebastyan Baxın musiqisi ilə yazılıb.

Onları Baxı dinləyə-dinləyə oxumaq yazanın ruhuna toxunmaq kimidir.

Musiqi davam edir. Oxumağa davam edənlərə hörmətlə!

# 12/100

## Plombir hücumuna məruz qaldığım gün

Musiqi:
Childhood Memories – Classical Music

Bizim uşaqlıq illərinin ən böyük lütflərindən biri arabir plombir yemək idi. Böyüklər evdə baş verənləri unutdurmaq üçün başımızı şirin və buzlu plasebo ilə qatırdı. Bu şirinliyə və sərinliyə aldanmağı çox sevirdim. "Plombirli" günlərimi səbirsizliklə gözləyirdim. Gün gəldi ki, plombirin belə, çox yeyiləndən sonra gözdən düşdüyünü gördüm.

Bir gün səhər babam mənim əlimdən tutub məşhur "qazirovka" stendinə apardı. Sirop içdim, sonra üstündən də iki plombir yedim. Günün ortasında babamın "qonaqlığından" xəbərsiz nənəm məni mağazaya apardı. Mağazadan mənə nə alsa, yaxşıdır? İki ədəd plombir. Plombirin rekordunu qırırdım. Heç vaxt bir gündə 4 plombir yeməmişdim. Mədəm və boğazım "özlərini pis hiss eləməyə" başladı. Ancaq beynimi buz kimi etdiyinə görə hələ də özümü o yerə qoymurdum.

Birtəhər evə gəlib uzandım. Fikrə getdim. Çox çəkmədi. Babamdan və nənəmdən xəbərsiz atam da evə

gələndə bizi sevindirmək üşün plombir alıb gətirdi və mən o günün rekordunu bir daha təzələdim.

Beşinci plombir həyatımda, bəlkə də, ən uzun müddətə yediyim dondurma idi. O vaxtların dondurmalarını bilirsiniz də, yəqin ki... Yağı yağ, südü süd, vedrəsi vedrə.

Heç nə… hələ də yaşayıram… hələ də yay gələndə sərinləmək üçün dondurma yeyirəm. Ancaq uşaqlarım da mənə oxşayıb. Ən sevimli dondurmaları məhz bu məşhur buzlu süd vedrəsidir.

Hələ də məhəllədə kiminsə əlində dondurma görən uşaqların üzündəki o şirin həsrət hissini sezə bilirəm.

Bəs sizin "şirin və ya acı plasebonuz" nə olub?

# 13/100

## Taksi sürən qocanın əhvalatı

Musiqi:
Spanish arabic fusion music-oud vs guitar

Mürgüləmək istəyən qocanın arzusunu ürəyində qoydum. Maşının qapısını bir az səsli açdım ki, oyansın. "Əli dayı, salam, filan yerə gedə bilərik?" – deyə soruşdum.

Qoca sürücü yarıyuxulu, eyni zamanda, yarısevincli halda: "Əlbəttə" – deyib mühərriki işə saldı.

Əli dayı sırf taksi işləmək üçün maşın sürmürdü.

Onun əsas məqsədi günün bir hissəsini insanların içində keçirmək və şəhərin səsini eşitmək idi. O, illər öncə aldığı bağ evində yaşayırdı. 45 il bir yastığa baş qoyduğu xanımını itirəli 7 il olmuşdu. Uşaqları və nəvələri olsa da, həyatı yoldaşsız yaşamaq çətin idi. Tənhalığını unutmaq üçün bağ-bağçanı abad etmək və taksi sürməklə özünü məşğul edirdi.

Böyük bağ evinin dözülməz səssizliyindən qaçmaq üçün hər gün şəhərə gəlirdi. Günortaya kimi sərnişinləri ünvanlarına çatdırıb yenə bağına qayıdırdı.

Günün məhz bu 4-5 saatı onun getməli və qayıtmalı olduğu işə çevrilmişdi.

“Sovet vaxtı uzaq gəmi səyahətində olmuşam” – deyə başlayan cümləsindən sonrasını əzbərə bilirdim. Hansı ölkələrdə olduğunu, hansı limanlarda dayandığını, hansı mənzərələri gördüyünü danışacaqdı. İtaliyada yol gedərkən məşhur opera müğənnimizin başına düşən çantadan və bu hadisəyə görə təxirə salınan tamaşadan söz açacaqdı.

...Onun yuxusu qaçmışdı. Gözlərinə böyük bir parıltı gəlmişdi.

Elə mən də getməli olduğum yerə gəlib çatdım. Cibimdən bir onluq çıxarıb ona uzatdım. Qalıq qaytarmaq istəyəndə “Qalsın” dedim. Əli dayı razılaşmadı: “Bu çoxdur, bu məsafə üçün bu qədər ödəməməlisən”.

Pulun qalan hissəsini geri qaytararaq vicdan rahatlığı ilə sağollaşdı.

Onun sürdüyü maşın şəhərin içində şütüyən digər avtomobillərə qarışdı.

Kim bilir, hekayəsini daha kimlərlə paylaşacaqdı?

Kim bilir, bunu daha neçə dəfə danışa biləcəkdi?

Belə bir ehtimalı hesablamağa qadir deyiləm. Əlimdən bircə şey gəlir: O da öz payıma düşən və başqalarıyla paylaşmalı olduğum hekayənin ardını yaşamaqdır.

# 14/100

## Meymunluqla reytinq arasında bir əlaqə varmı?

Musiqi:
Kiasmos "Looped"

Bu sualın bir çox cavabı ola bilər.

İstəyirəm, sizinlə birgə 1953-cü ilə gedək.

ABŞ-ın NBC kanalı ilk ilində uğursuzluğa düçar olur. Heç bir veriliş və ya layihə reytinq qazanmır. Son ümid bir meymuna qalır. Studiyada işləyən adamlardan biri 600 dollara Fred adlı bir meymun alır. Fred elə onun adını daşıyan "Fred Muggs" şousunun qəhrəmanı və aparıcılarından biri olur. Çox uzatmayım. NBC kanalı yayımladığı bütün verilişlər boyunca Fredin hesabına təqribən 100 milyon ABŞ dolları qazanır.

Bu Fred bizim yerli şou biznes nümayəndələri kimi qlamur həyat yaşayır. Qonaqlıq, ziyafət, səyahət, məşhurluq və s. Hətta neçə dövlət xadimi və ikona ilə görüşü belə olur. Bu meymunun qarderobundakı paltarların sayı nə az, nə çox 450 ədəd olub. Yəni bizimkilər kimi geyiminə-keçiminə diqqət yetirib.

Ancaq bu Fred bizimkilərdən fərqli olaraq çox maraqlı bir bacarığı ilə seçilib. Meymun "ağlı" ilə 500 sözü

qavraya bilib. Bu sözlərin hansı məna kəsb etdiyini anlayıb. Bir sözlə Fred ziyalı primat olub.

Sağ əli bizimkilərin başına...

# 15/100

## Bahalıdırsa, dadlıdır

Stanford və Kaliforniya Texnologiya universitetlərinin alimləri dinc oturmayıb bir araşdırma aparıblar.

Araşdırma zamanı test edilən insanların qarşısına 6 şərab qədəhi qoyulub. Bu şərabları dadmaq xahiş edilib (İçmək yox, dadmaq). Öncə hər bir qədəhə süzülmüş şərabın qiymətini həmin adamlara deyiblər.

- 1-ci qədəh – 5 dollar
- 2-ci qədəh – 10 dollar
- 3-cü qədəh – 35 dollar
- 4-cü qədəh – 45 dollar
- 5-ci qədəh – 90 dollar

6-cı qədəhin qiyməti deyilməyib (neytral olsun deyə).

Sual: Sizcə, əksəriyyət hansı qədəhin şərabını ən dadlı şərab sayıb?

Bilmirəm, sizin cavab nədir, ancaq respondentlərin əksəriyyəti 90 dollarlıq şəraba "Daha dadlıdır" deyib.

Hə, indi deyəcəksiniz ki, burda nə var ki? Məsələ burasındadır ki, bütün qədəhlərdə 5 dollarlıq şərab olub. "Bu universitet alimlərinin də işi gücü yoxdur ee" deməyə tələsməyək.

Onlar hər dəfə qiyməti eşidən insanların beynini, loru dildə desək, rentgen ediblər. Görüblər ki, qiymət qalxdıqca beynin VTS nahiyəsinə (VTS – orta beynin sa-

ğında yerləşən Ventral Tegmental Sahə. Dopamin maddəsini ifraz edən hüceyrələrin olduğu yer.) daha çox qan və oksigen getməyə başlayıb.

Alimlər də qiymətlə həzz arasında əlaqəni araşdırırmış.

Restoran və bar biznesinə ömrünü vermiş Con Tafferin sözləri ilə desək, "işimiz insanlara yemək-içmək satmaq deyil, onlara həyəcan yaşatmaqdır". "Biz reaksiya biznesindəyik".

Fikir versəniz, son vaxtlar feysbuk belə "Yazdıqlarınıza reaksiya verdilər" bildirişi göndərir.

Yediklərimizin və içdiklərimizin dadı ümumi həzzin 45%-ni belə yaşatmır. Ancaq bahalı restoranın içinə keçmək üçün 1 saat növbədə gözləmək, sonra içəri keçib orada da bir saat gözləmək. Sonra gətirilən iri qablar və içindəki qoz boyda yeməklər. Qəribə menyu adları. İşıqlandırma. Qoxu. Musiqi. Gülərüz personal. Ayaqyolundakı iri güzgü. Bunlar beyinin həmin yerinə o qədər oksigen və qan vurur ki, biz yeməmiş doyuruq. Bu anı yaşamaqdan həzz alırıq.

Status, şans, əhatə dairəsi, rəqabət kimi nə qədər amil bizim beynimizə hava vurur.

Biz də havalı-havalı "Çox dadlı idi" deyirik.

# 16/100

## Semelveys paradoksu

Musiqi:
We are all astronauts – Violent Delights

1846-cı il Avstriya, Vyana şəhəri.

Qadınlar uşaq dünyaya gətirəndən sonra cəmi 48 saat yaşaya bilir. Doğum evlərinə və xəstəxanalara doğuş üçün gətirilən bütün qadınlar tələf olur. Həkimlər neçə ildir, bu məsələnin səbəbini tapa bilmirlər. Baxmayaraq ki, anatomiyaya daha yaxşı bələddirlər. Ancaq minlərlə qadının ölümünün qarşısını heç biri ala bilmir.

Nəhayət, İqnaz Semelveys adlı macar həkim bu məsələnin kökünə gedib çıxır.

Semelveys iki ayrı klinikanı araşdırmağa başlayır. Bir klinikada kişi həkimlər və tibb tələbələri çoxluq təşkil edir. Digərində isə "qadın mama-ginekoloqlar" olur. Bu adam görür ki, 1-ci klinikada olan ölümlərin sayı 2-ci klinikadakından 5 dəfə çoxdur. Sonra görür ki, kişi həkimlər və tələbələr meyit yarandan sonra əllərini yumadan doğuşa girirlər. Əllərində qalan mikroblardan da qadınların bədəninə, qanına infeksiya keçir. Həkim bu xəstəxanaların həkim heyətinə əməliyyatdan əvvəl və sonra əlləri "xlorla yumağı" tövsiyə edir. Ölümlərin sayı kəskin şəkildə azalmağa başlayır.

Ancaq bir müddət sonra Semelveysi fikirləri ilə "həkimlərin etibarını və hörmətini şübhə altına qoyduğuna görə" işlədiyi klinikadan qovurlar. Qadınların ölümünə səbəb olanlar bu ölümlərin qarşısını uğurla alan həkimi işdən uzaqlaşdırır.

Semelveys "xlorla yumaq və əlləri təmiz saxlamaq" ideyasını bütün Avropaya danışır. Onun sözlərini qulaqardına vururlar. Həkim "out"da qaldığı üçün fikrini ciddiyə almırlar.

Axırda həkim dəlixanaya düşür. Orada isə "sepsis"-dən keçinir. Həkim məhz illərlə mübarizə apardığı infeksiyadan ölür.

# 17/100

## İki dəmir mil

Musiqi:
Vaqif Mustafazadə "Tənhalıq"

Amerikaya ilk dəfə gedəndə özümlə hədiyyələr aparmağı özümə borc bildim. O vaxt gedən tələbələr üçün armudu stəkan dəsti, Azərbaycanın milli yeməkləri haqda kitab götürdüm. Bu klassik seçimlərdən əlavə, özümlə bəzi musiqi disklərimizi də aparmağı unutmadım. Disklərdən biri Vaqif Mustafazadənin caz toplusu idi. Amerikada keçən ilk ayın sonunda orada olan ailənin böyük bir yığıncağı var idi. Paulanın qardaşı cazmen idi. Onun konsert planlarının və caz musiqisinin müzakirəsi gedirdi. Cefin atası isə, ümumiyyətlə, 40 il idi ki, müxtəlif caz parçaları kolleksiyası yığırdı. Fort Kollinsdə olan iri kolleksiyası ilə fəxr edirdi. Özümü saxlaya bilməyib: "Sizə fərqli bir musiqi dinlətmək istəyirəm" – dedim.

"Play" düyməsindən sonra hamımız susduq, Vaqif danışdı. Həmin anda Cefin atasının üzünə baxdım. Kişinin üz ifadəsi dəyişmişdi. Hislərinə bir ad verə bilmirdi, ancaq bu bəstələrin təsiri altına düşmüşdü. Həmin gün diski məndən istədi. Gedib özünə bir kaset kopyaladı. Məndən bu bəstələrin adını soruşdu. Bir sözlə, adam

öz iri kolleksiyasına, dünya nəhəngləri siyahısına bizim Vaqifi də əlavə etdi. Hərdən düşünürəm ki, mənim rolum o ölkəyə gedib həmin diski bu musiqi fanatına çatdırmaq və onun kolleksiyasını tamamlamaq olub.

Yadımdadır, 4-5-ci aylarda ev üçün darıxanda yenə onun piano ifasını dinləyirdim. Barmaqları ilə məni Bakının küçələrinə qaytarırdı. Onunla birgə dar, yöndəmsiz, ancaq çox əziz dalanları keçib gedirdik.

İllər ötsə də, onun musiqisi mənim üçün həmin qürbətdəki Coşqunun düşüncələr toplusu deməkdir. Ondan möhtəşəm musiqisi və qızı Əzizə yadigar qaldı. Ya da əcnəbilər demiş, ondan sonra Jaziza qaldı.

İstedad qəribə bir şeydir.

İstedadlı insan üçün muğam və caz fərqli istiqamətlər deyildir. Hislərdən ibarət “jaketi” toxumaqdır, insanı isitmək üçün nəzərdə tutulmuş iki dəmir mildir.

# 18/100

## Məğlubiyyətdən nəticə çıxaran qalib olar

Musiqi:
Ask the mountains – Vangelis

2004-cü ildə “qəribə” taktika seçərək bütün rəqiblərinə “maraqsız oyun”la qalib gələn Yunanıstan sonda ev sahibi Portuqaliyanın göz yaşlarına səbəb olur (1-0).

2016-cı ildə Yunanıstanla oyundan nəticə çıxaran Portuqaliya eyni “qəribə oyunlar” silsiləsi ilə bütün rəqiblərini çaş-baş salır və axırda Fransanı öz evində ağladır (1-0).

2018-ci ildə Portuqaliya ilə oyundan nəticə çıxaran Fransa bir o qədər maraqsız, ancaq taktiki cəhətdən çox vacib “Atlanıb-düşməyin! Fürsət düşdü, vurun” fəndi ilə finala qədər gəlir. Onların rəqibi Xorvatiya isə əsl və gözəl oyununu hər qarşılaşmada nümayiş etdirə-etdirə finala çıxır. Ancaq onların əsas müdafiə qalası olan Subaşiç Rusiya ilə oyunda baldırını zədələyir. Bununla qapının sol tərəfini faktiki olaraq boş qoyur. Qadasını aldığım Manjukic və digər 3 fransalı da məhz həmin yerə zərbə vurur. Qapıçı da baldırının ağrısından həmin tərəfi düz-əməlli qoruya bilmir. Bir sözlə, sol tərəfə 4 zərbə və 4 qol. Fransa qalibdir.

Xorvatların belə əzmkar və gözəl oyunlar silsiləsindən sonra çempion olmamasına təbiət ana belə dözə bilmir. Kubok qaldırılanda "yağış yağır".

Bütün dünya Putinin çətirinə fokuslanır. Daha sonra digər çətirlər gətirilsə də, ancaq onun çətirli şəkilləri müzakirə obyektinə çevrilir.

Bir neçə gün sonra üstündə futbol ulduzlarının imzası olan FİFA 2018 topunu Trampa uzadan Putin "Top səndədir", – deyir.

Mənə görə bu çempionata imza atan məqamlar:

1. Portuqaliya-İspaniya oyununda Ronaldonun bərabərlik gətirən cərimə zərbəsi.
2. Roxasın Argentinaya ümid gətirən qolu.
3. Yaponların sonacan dözə bilməyib qələbəni Belçikaya bağışlaması.
4. Neymarın lavaş dönəri.
5. VAR texnologiyalarının insandan daha dəqiq qərarlar verməsi.
6. Ata Şmeyxelin oğlu Şmeyxelin "save"lərinə uşaq kimi sevinməsi.

Siyahını siz davam etdirin!

# 19/100

## Dünyanın ən yaraşıqlı kişiləri harada yaşayır?

Musiqi:
No man no cry – Jimmy Sax (live)

Kosmetikadan, bəzənib-düzənməkdən söz düşəndə ağlımıza xanımlarımız gəlir. “Onlar bu işin peşəkarıdır”, – deyə düşünürük. Ancaq uzaq Afrika səhralarında yaşayan Vudabe qəbiləsinin kişiləri bəzənməkdə bütün dünya qadınlarına, sanki, meydan oxuyur. Bu kişilər hər ilin sentyabr ayının sonuna doğru xüsusi Gerevol Festivalına hazırlaşır (Kişi gözəllik yarışı).

Gəlirəm əsas məsələyə:

Festivalın münsiflər heyəti 3 qadından ibarət olur. Bu 3 qadın ən yaraşıqlı kişiləri özləri üçün seçir, digərlərini qəbilə qadınları arasında bölüşdürürlər. Vudabe qadınları (poliqam şəkildə) çoxərli şəkildə yaşaya bilər.

Onların xüsusi seçim meyarları var:

Kişilərin qulağı minimum səkkiz sırğalı, üzləri də tatulu olmalıdır.

Yarış zamanı qadınlar baş verənləri kənardan müşahidə edir və yalnız bir dəfə “iştirakçı”ya baxaraq “səndən xoşum gəlir” siqnalını verir. Qarşılıqlı münasibət

“blokçeyn” texnologiyası ilə tənzimlənərək növbəti mərhələyə keçir.

Vudabe kişiləri özlərinin dünyanın ən yaraşıqlı kişiləri olduğuna inanırlar.

# 20/100

## Məhsul və xidmətlərimizi necə sataq?

Musiqi:
Azaleh – Moonlight

"Necə"lərdən biri qışqırmaq əvəzinə aktiv susmaqdır.

Bu yaxınlarda televizora baxırdım. (Hərdən köhnə vaxtların nostaljisinə qapılmaq və pre-telefonik eramı xatırlamaq üçün belə edirəm) Filmin maraqlı yerində araya reklamlar girdi.

Bu reklamlar "Başqa işlə məşğul ola bilərsən. Filmin davam etməyinə hələ var" demək idi. Elə də etdim. Bir müddət sonra televizordakı reklam səs-küyünün kəsildiyini eşitdim. Düşündüm ki, yayımda problem var. Ekrana tərəf yaxınlaşdım. Mavi ekranda bir cümlə yazılmışdı. "Bu YOTA-nın reklamıdır".

Necə də sadə, səmimi, fərqli və ən əsası digər reklamların "qeyri-effektiv şəkildə yayımlandığını" göstərən bir reklam idi.

Bu reklam böyük bir eranın sonu deməkdir.

Qışqıran, "Biz də burdayıq" deyən şirkətlər üçün bir dərslikdir. Vaxt keçdikcə reklam edilən məhsul və xidmətlər filmlərin, şouların, bloqların, video+yazılı məz-

munun içinə daha səliqəli yerləşdiriləcək. İnsanlar reklam izləməkdən qaçmağa çalışmayacaq. Reklam izlənmə səbəbi ilə aramıza girməyəcək. Əksinə, vasitəçi olacaq.

# 21/100

## Başın xarab olub?

Musiqi:
Azaleh "Moonlight"

2002-ci ildə karaoke bardan çıxan Ceyson Padjet adlı oğlanı təkləyib döyürlər (Gənci huşunu itirənəcən çırpırlar).

Xəstəxanadan evə qayıdan Ceyson növbəti günlərdə qəribə bir depressiyaya düşür. O anlayır ki, başı xarab olub (Başı əvvəlki qaydada işləmir).

Ceyson həyatı fərqli şəkildə (həndəsi, cəbr və s. modelləri şəklində) gördüyünü anlayır. Əlinə qələm, dəftər götürüb çəkməyə başlayır (Əşyaları və hadisələri beyninin ona göstərdiyi şəkildə çəkir). Ceyson dəyişiklikdən şübhələndiyi üçün peşəkar həkimlərlə məsləhətləşməyə başlayır. Nəhayət, bu dünyada tək olmadığını və onun kimi 70+ adamın olduğunu öyrənir (Qeydiyyatda olan).

Ceyson təhsilini davam etdirir və riyaziyyat dərslərinə daha çox maraq göstərməyə başlayır. O, riyazi formulların, işığın, səsin və sürətin şəkillərini çəkməyə başlayır.

35 yaşında əməliyyat edilən və əməliyyatdan sonra "başı xarab olan" Con Sarkin də eyni "silsilədəndir".

Con anidən rəssama çevrilir. Peşəkar rəssamlar kimi şəkil çəkməyə başlayır. Onun bu gün məşhur və sevilən rəsm qalereyaları var.

10 yaşında olanda başına beyzbol bitası (dəyənəyi) dəyən Orlan Serrel də həmin zərbədən sonra "ilahi yaddaşı" əldə edir. Çox keçmədən o hansı gündə hansı temperaturun olduğunu və hansı hadisələrin baş verdiyini dəqiqəsinə kimi xatırlamağa başlayır.

Başları birdən-birə "xarab olan" belə insanlara ingilislər "acquired savant" deyir ("Süni yolla yetişdirilmiş alim" deyək).

Bu savantlar Nyu-York kimi şəhərin maketini bir dəfə görüb onu olduğu kimi çəkə bilir (kompyuter dəqiqliyi ilə). Onlar həyatlarında eşitmədikləri musiqini hər bir notuna kimi ifa edə bilirlər. Bu ifa və bu şəkilləri 3D ölçüsündə belə ortaya qoymağı bacarırlar.

# 22/100

## Loqonun dəyəri necə müəyyən edilir?

Musiqi:
Chasing Dreams "Departures"

Loqoların hekayəsi bizə nə öyrədə bilər?

1885-ci ildə içki istehsal edən firmanın mühasibi və partnyoru Frenk Robinson deyir ki, "Loqo işi mənlikdir". Bu mühasib çox uzağa getmir. Dövrün məşhur mühasibatlıq şrifti hesab edilən "spenser" şrifti ilə "Coca-Cola" yazır. Loqo hazırdır (Qiyməti 0 dollar).

1971-ci ildə Portland Dövlət Universitetində qrafik dizayn üzrə təhsil alan tələbə Karolin Devidson "çakçuk" etmək üçün əlavə şifarişlər götürməyə başlayır. Bu sifarişlərdən biri idman geyimləri istehsal edən firmaya məxsus olur. Karolin bu firma üçün 35 dollara bir loqo hazırlayır. Rəhbərlik əvvəl-əvvəl loqonu həzm edə bilməsə də, 3 il sonra Karolini şirkətə dəvət edib ona üstünə həmin loqo vurulmuş bir üzük və şirkətin 500 ədəd qiymətli kağızını bağışlayır (150-200 dollar əlavə bonus deyək). Vaxt gəlir, hamı Karolinə "lady behind logo" deyir. Onun hissə sənədləri 600.000 ABŞ dollarına çevrilir (Söhbət Nike adlı şirkətdən gedir).

2009-cu ildə bir şirkətin təsisçiləri “istockphoto” adlı sayta girib şirkətləri üçün loqo versiyaları axtarmağa başlayır. Simon Oksli adlı qrafik dizaynerin loqosu onların çox xoşuna gəlir. Həmin loqonu 15 dollara alırlar (Simona 6 dollar xeyir qalır). Sonra isə müəllif haqlarına görə dizaynerə çox pul ödəməmək üçün loqoya bir az əl gəzdirib onu Tvitter şirkəti üçün istifadə etməyə başlayırlar.

2008-ci ildə BP şirkəti üçün yenidən brendinq işini görən Landor şirkəti 211 milyon dollarlıq faktura təqdim edir. “Günəşə bənzəyən loqonun da elə günəş boyda qiyməti olmalıdır” deyib şirkətlər tarixinin ən bahalı loqo + brendinq konseptini hazırlayırlar.

Landor şirkəti BBC, Pepsi, Accenture, Posten Norge kimi adlar üçün də minimum 1 milyon, maksimum 100 milyon ABŞ dolları arasında qiymətə loqo + brendinq layihələr işləyir.

2012-ci ildə eyni şirkət London Olimpiya Oyunları üçün yeni loqo hazırlayır. İngiltərənin “Guardian” qəzetinin yayımladığı xəbərdə loqonun hədəf kütləsi olan gənclərin 70 %-nin bu loqonu bəyənmədiyi üzə çıxır. Gənc respondentlərin “Bu loqo elə bil demək istəyir ki, biz ingilislərin heç bir zövqü yoxdur”, “5 yaşında uşağım daha yaxşı loqo düzəldərdi” kimi reaksiyalar verdiyi loqo və brendinq nə az, nə çox düz 600.000 ABŞ dollarına başa gəlmişdi.

2018-ci ildə Azərbaycan Turizm Agentliyi cəsarətli addım atıb Landorla işləmək qərarına gəlir.

“Azərbaycana yenidən baxın!” şüarı peyda olur.

Yeni loqo və yeni şüar bir çox kəskin reaksiyalara səbəb olur. Yumor şəlaləsinin suyunda yuyunur. İllər sonra yurdumuza yenidən baxan insanların gördüklərini görmək istəyirəm.

# 23/100

## Bernadet və onun balaca barmağı

Musiqi:
Pride and Prejudice – Soundtrack

Bernadetin sol ayağının sonuncu barmağı yox idi. Uşaq vaxtı onu qəza nəticəsində itirmişdi. Hündürboy və cazibədar Bernadet bir barmağının yoxluğunu özünə dərd etmirdi. Ancaq rəfiqələriylə birgə ayaq dırnaqlarını boyamağa başlayanda hər şey dəyişdi. Onlar kimi 10-cu, yəni sonuncu ştrixi vura bilməmək gənc qızı sıxmağa başlamışdı.

İllər keçdikcə Bernadet bu barmağının yoxluğuna görə “boyama” rituallarından imtina etdi. Heç kəsi dindirməyən, özünə qapanan və oxuduğu kitablarla yaşayan qaradinməz bir qıza çevrildi. Əsərlərin baş qəhrəmanlarına fokuslandıqca barmağını, daha doğrusu, barmaqsızlığını unudurdu.

Bir gün yenə sahildə uzanıb növbəti əsəri vərəqləyirdi ki, kimsə günəşin qabağını kəsdi. Kitabın ən maraqlı yerində fasilə verməyə məcbur qalan Bernadet süni kölgənin səbəbini öyrənmək üçün başını qaldırdı. Qarşısında onun kimi boy-buxunlu, gözləri dəniz mavisi yaraşıqlı bir oğlan dayanmışdı. Qeyri-ixtiyari də olsa, Ber-

nadet oğlanın qarın nahiyyəsində düzülmüş "kubik"ləri saymağa macal tapdı. Hər biri yerində idi.

– Sizə nəsə lazımdır? – deyən Bernadetin çaşqın baxışları oğlanın üzündə qəribə bir təbəssüm yaratdı. Belə bir təbəssüm ancaq doğmalıq hissini yaşatmaq üçün edilə bilərdi. Oğlan əvvəlcə qızın sol ayağına və həmin ayaqda olmayan barmağına tərəf baxdı. Yerində qıvranan Bernadetin yeganə çıxış yolu kitabla həmin hissəni örtmək idi. Bəlkə də, qumun içinə salsaydı, daha təbii görünərdi. Ancaq gec idi. Oğlanın səsi onun içindəki səs-küyə son qoydu:

– Deyəsən, tanımadın?

Qız gözlərini qıyıb bir daha diqqətlə baxdı:

– Təəssüf ki, sizi daha öncə gördüyümü xatırlamıram. Hətta sanmıram ki, biz nə vaxtsa görüşmüşük.

Bernadet oğlanın bədənini və üz cizgilərini həvəslə süzə-süzə "Onu görsəm, mütləq xatırlayardım" deyə düşünürdü.

– 1998-ci il, Brumfild, Ford Transporter, yadındadır?

Bernadet qulaqlarına inana bilmədi. Bu onun barmağını tələf edən uşaqlıq dostu Ceremi idi. Həmin hadisədən sonra bir-birini bir daha görməmişdilər.

Bernadet ayağa qalxıb özündən asılı olmadan Cereminin üzünə bir şillə ilişdirdi:

Ceremi biraz gözləyib gülümsəyərək: "İllərdir, bu şapalağı mənə vuracağın anı təsəvvür edirdim, ancaq əlin düşündüyümdən ağır imiş", – dedi.

Növbəti cümləsini demək istəyirdi ki, macal tapmadı. Çünki Bernadet onun boynuna sarılmışdı.

Bir qədər gözləyən Ceremi: “Bilirəm ki, gülməli səslənir, ancaq barmağına görə sənə bir kofe borclu olduğumu düşünürəm”, – dedi.

Özünü sahilə vuran dalğaların səsi bu iki cavanın ürəkdən qopan qəhqəsini eşitməyə imkan vermədi.

# 24/100

## Buzları əridən öpüş

Musiqi:
Pride and Prejudice – Soundtrack

Çox qərarlı idi. Ona sarı addımladı. Sonuncu addımı atıb divara söykəndi, gözlərini üzünə zillədi. Nəfəsi üzünü sığallamağa başlamışdı. Əlləriylə müqavimət göstərməyə çalışsa belə, bunun faydası yox idi. Onun güclü və qətiyyətli əlləri "əl-qolunu bağladı".

Sağ əlini qulağının üstünü tökülən saçına apardı. Qulağına dəyən barmaqlar boyun nahiyəsinə toxundu. Bütün bədənin alışıb yanması üçün bir qığılcım kifayət etmişdi. Ancaq ehtiras tonqalını alovlandırmaq üçün daha güclü məşəl lazım idi. Bütün səmimiyyətiylə gözlərinin içinə baxıb onun "gömrük komitəsi"ndən dodaqları üçün icazə almağa çalışdı. Üzünü üzünə yaxınlaşdırdı.

"Komitə işçi"ləri (iki göz) bu icazəni çoxdan vermişdi, deyəsən. Heç biri etiraz etmirdi. Dodaqlar rahatca boyun nahiyəsində onlar üçün ayrılmış yerə eniş etdi. Oradan çiyin zolağıyla hərəkət edərək marşrutu geriyə təkrarladı.

Hər ikisi də bu anı gözləyirdi. Bədənləri bir-birinə kilidləndi. Artıq alın və yanaq hissəsində gəzişən dodaq-

ların istisinə müqavimət göstərə bilməyən qız gözlərini yumdu.

Son toxunuşun və həmin buzları əridən öpüşün gələcəyi anı gözlədi. Ancaq bu an gəlmədi.

Bu cütlük həzzi tam yaşaya bilmədi.

Onlar tək deyildi.

Rəsədxana otağı bu yazını oxuyanlarla dolmuşdu.

# 25/100

## Yeraltı dünyadan axirətə axan çay

Musiqi:
Clubbed to death – Matrix Soundtrack

Yeraltı dünyadan danışanda “Axirət" sözünü yad etməmək olmur.

Bu sözü bir çoxumuz bilir. Ancaq bu sözün nə qədər uzaqlara getdiyini neçə nəfər araşdırıb?

Təsadüflər varmı?

Gəlin sizə bir təsadüfdən danışım.

Qədim yunan mifologiyasında bir çaydan bəhs edilir. Bu çayın bir bələdçisi var. Adı Xarondur. Xaron bu dünyanı tərk edib, Cənnətə və ya Cəhənnəmə gedəcək insanlara pul əvəzində bələdçilik edir.

Bütün monoteist dinlərdə maraqlı bir məqam var ki, mütləq (nəticə etibarilə) ya cənnətlik, ya da cəhənnəmliksən. Variantın yoxdur. Hətta iddia edilir ki, gec-tez hər kəs Cənnətlikdir. Bu məqam məni hər zaman düşündürüb. Bizim aqibətimiz necə olacaq?

Yunanların maraqlı bir alternativi var. Bu canıyanmış Xaron pulu olmayanları çayboyu aparmaqdan imtina edir. Bir sözlə, pulun yoxdursa, yeraltında qalırsan.

Nə oralıqsan, nə də buralıq. İkinci məsələ isə davranış məsələsidir. Elə insanlar var ki, nə tam olaraq yaxşı, nə də tam olaraq pisdir. Ola bilməz ki, onlara uyğun variant olmasın. Maraqlıdır ki, yunan mifologiyası iddia edir ki, nə oyan, nə buyanlıq insanlar da Cəhənnəmə kimi uzanan çay boyunca getsə də, əvvəl-axır çayın sahillərində qalır. Bu çayın qurtardığı yerdə Cəhənnəm başlayır. İndi isə gəlirəm təsadüf hissəsinə.

Bu çayın adı Axerondur. (Acheron)

İndinin özündə belə Yunanıstana gedənlər həmin çaya baş çəkə bilər. Əslində, bu çayın sahilində qalan insanlar vaxtında seçim etmədikləri üçün, sözün əsl mənasında, "cəhənnəm" yaşayır.

Stiven Kinq əsərlərindən birində yeraltı dünyanı təsvir edərkən belə yazır:

– Təkrarlanan və heç bitməyən hadisələr silsiləsi!

Neçəmiz bu gün belə yaşayırıq?!

Günümüzün günümüzdən fərqi yoxdur.

Sanki hər şey planlanıb və həftələrimiz bizə yaxınlaşmamış onları uzaqdan tanıyırıq. Ancaq özümüz tanınmaz hala düşmüşük.

Çünki çoxumuz bu Xaronu görməsək də, sanki onunla ünsiyyətdə olmuşuq... Axeron çayının sularının səsi qulağınızda daim cingildəsin!

# 26/100

## Camaatın şeyi ilə oynamayın!

Musiqi:
Tom Day "Who We Want To Be"

1857-ci ildə Hindistanda bir ingilis şirkəti və ordusu onlara xidmət edən muzdlu hind əsgərlərini (sipahiləri) özündən çıxaran bir axmaqlıq edir. Yarısı hindli, yarısı müsəlman olan əsgərlərə yeni tüfənglərin doldurulması zamanı xüsusi yağdan istifadə etmək haqda göstəriş verirlər. Bu xüsusi yağın tərkibində həm mal piyi, həm də donuz piyi olduğu şayəsi bütün əsgərləri dəliyə döndərir. Şirkət rəsmilərindən biri "Bəlkə, bu əsgərlərin şeyi ilə oynamayaq?" – deyib bu yeni qərarı bir daha gözdən keçirməyi təklif edir. Ona məhəl qoymurlar. Ürəyi manqal kimi közərən Manqal Pandey bu silahı yağlamaqdan imtina edir. Digər sipahilər də ona qoşulur. Üsyan başlanır. Sonra qan su yerinə axır. Düzdür, Manqalı "söndürürlər". Ancaq müasir Hindistanın qəhrəmanı kimi tanınan bu sipahi bir çox müstəmləkə dövləti üçün keys-stadiyə çevrilir.

Burdan çıxan nəticə sadədir. Tabeliyində olan insanların müqəddəslərinə sataşdınsa, hər cür reaksiyaya hazır olmalısan. Çünki kütlə öküz sürüsü kimi səssiz

və qorxaq görünsə də, bir-iki öküz mütləq Manqallıq edəcək. Sonda əziləcəksiniz.

Salamatı insanların şeyi ilə oynamadan iş görməkdir.

"Şey"in nə qədər həssas olduğunu unudan ingilislər, əslində, son 3-4 əsrdir ki, aristokrat və ya kral ailəsinə mənsub olan oğlan uşaqlarını sünnət etdirir.

Rəhmətlik şahzadə Diana da özünəməxsus şəkildə üsyan edərək bu ənənəni dayandırmağa cəhd etdi. Ancaq o da başa düşmədi ki, kral ailəsinin "şeyi ilə" oynamaq təhlükəlidir. Sonda bunu canı bahasına öyrəndi.

# 27/100

# Tənha olmaq üçün sevmək lazımdır

Musiqi:
Tom Day "Who We Want To Be"

Uşaq vaxtı kimsəsiz adada yaşamaq haqqında xəyallar qururdum. İnsanların bir-birinə qarşı nə qədər qəddar və vicdansız olduğunu görə-görə böyüyürdüm. Özümü sığortalamaq üçün mümkün qədər az insanla ünsiyyətdə olmağı planlaşdırırdım. Mənə görə tənhalıq ən gözəl çıxış yolu idi. Bir ada və bir də mən! Ancaq illər keçdi və həqiqi tənhalığın nə olduğunu öyrəndim. Milyardlarla insandan bir neçəsi həyatıma necə girdisə, onları necə sevdimsə, istilərinə necə öyrəşdimsə, tənhalıq anlayışım büsbütün dəyişdi.

Onlardan aralı qalanda, ünsiyyət olmayanda içimdə tənhalığın bütün kəsərini hiss edirəm.

Çox qəribədir, bu qədər qəddar və əclaf olan dünyada nə üçün çox az, ancaq güclü dozada sevgidən məhrum edilirik?

Nə üçün qeyri-ixtiyari gülürük, sevinirik, rəqs edirik?

Nə üçün içimizdə hislər qaynayır?

Həqiqətən, tənha olmaq üçün mütləq sevmiş olmalısan!

Ruhuna başqa ruhun qığılcımı toxunmasa, qoru düşməsə, həqiqi kimliyini tapa bilməzsən! Qaranlığa bürünmüş ürəyinin, əslində, nə qədər böyük olduğunu və yaxşı olmağa nə qədər qadir olduğunu bilə bilməzsən!

# 28/100

## Bu otağa suallar üçün gəlmirlər

Musiqi:
Malena – Ennio Morricone

Otaqdan nəm salfet iyi gəlirdi.

Divarların heç birində pəncərə yox idi. Qırmızıyla sarının qarışığından əmələ gələn işıq otağı aydın görməyə mane olurdu. Buna baxmayaraq, qarşımdakı iri çarpayını, çarpayının sol kənarında oturan adamı görə bilirdim. Peşəsini nümayiş etdirmək məqsədi ilə ipəkdən qırmızı xalat geyinmişdi. Baldırının birini digərinin üstünə atıb yanındakı kiçik masadan siqareti götürdü. Damağına kimi yol gedən siqaret ora çatar-çatmaz "peşə"sinə xas gülüşüylə dedi:

– Əcəb işdir?! İlk dəfədir ki, kiminsə otağıma qələm-dəftərlə girdiyini görürəm.

Bədənin bütün cizgilərini gözə soxan qadına baxıb dedim:

– Elə mən də ilk dəfədir ki, həyatla bağlı bir neçə sualıma cavab tapmaq üçün məhz həyat qadının otağına daxil oluram.

Ayağa qalxıb mənə tərəf gəlməyə başladı. Yaşıl göz-

lərində təəccüb, eyni zamanda əminlik var idi. "Bu otağa suallar üçün gəlmirlər. Suallar insanı yorur. Bura gələnlər rahatlamaq istəyir", – deyib uzun taxma dırnaqlarından ibarət "zirehli" əllərini qayışıma tərəf apardı. "Qələm-dəftəri masanın üstünə qoy. Suallarını sonra verərsən".

Mənə "növbəti müştəri" kimi baxdığını açıq-aydın görürdüm.

Əlindən tutub dayandırdım:

– Mənə ən böyük yaxşılığınız suallarıma cavab vermək olardı.

– Sənlə danışan insanı eşitmək necə qəribə şeymiş. Mənim də elə vaxtlarım olub.

Bu sözləri dedikdən sonra dərhal çarpayı tərəfə qayıtdı və siqareti yandırmaq üçün qutunun içindən növbəti "keyidici çubuğu" götürdü.

– Buranı necə tapmısan? Nə üçün düşünürsən ki, suallarına məhz mən cavab verə bilərəm?

– Sizə neçə həftədir ki, göz qoyurdum. Əslində, eyni binada yaşayırıq.

Bu sözləri eşidən kimi duruxdu. Böyümüş göz bəbəkləri ilə bir qədər götür-qoy etdi. Nəhayət, tərəddüd etsə də, dilləndi: "Bu otağa müftə girmirlər, pulumu verməli olacaqsan".

# 29/100

## Haqq uğrunda dərisi soyulanlar

Musiqi:
Tom Day "Who We Want To Be"

Tarix təkcə haqq uğrunda Nəsimitək haqlıların deyil, Sezamnes kimi haqsızların da dərisinin soyulmasına şahid olub.

Sezamnes hakim işləyib. Oturduğu hakimlik taxtı onun yançağına darlıq edib. Bir sözlə, Sezamnes haqsız qərarlar verməyə, camaatı bədbəxt etməyə başlayıb. Çox keçmədən hakimin "qəhrəmanlıqlarını" fars hökmdarı Kambizin ovcuna qoyublar. Kambiz bütün hakimlərə ibrət olsun deyə, Sezamnesi şəhər mərkəzində edam etdirib.

Onun dərisini soydurmaqla dinc dayanmayıb, onun dərisi ilə bir taxtı "oblisovka" etdirib, yəni taxtı üzlətdirib. Hələ bu harasıdır, məhz Sezamnesin oğlunu həmin hakimlik taxtına otuzdurub. Hər kəs baxsın və hər kəs görsün deyə! Başqa hakimlər də gözü çıxmış qardaşlarına baxıb "tormoza basıblar."

XV əsr rəssamları bu hadisəni öz əsərlərində əks etdiriblər. İndi onlar Avropa məhkəmələrinin binalarını bəzəyir. Hakimlər unutmasın deyə divarlardan asıblar. Amma insanlar tez unudur.

Hakim kreslosunun hündür olmasının səbəbini unuduruq. Sən demə, soyulan insan dərisi o qədər dartılıb uzanıb ki, məcbur qalıb kreslonu dəriyə uyğun hündür ediblər.

# 30/100

## Beynimin içində yaman gəzirsən

Musiqi:
Nuages - Closer

Beynimin içində yaman gəzirsən,
Ayaq səslərini eşidir ruhum,
Gəmitək sıfırdan düzəldilirsən,
Çarəsi olmaqçün tək qalmış Nuhun.

Saçların yelkəndir, əllərin avar,
Dünyanın suları daşsa, əbəsdir,
Havasız zindanda nəfəs aldıran,
Səninlə görüşə olan həvəsdir.

Beynimin içində yaman gəzirsən,
Sonsuz maneələr heç tutmur səni,
Müqəddəs bütləri qırıb əzirsən,
Tanrının qəzəbi qorxutmur səni.

Ürək doludursa, baş doludursa,
Misralar bitəcək başlayan kimi,
Əlində sevgitək daş doludursa,
Şeytan da öləcək daşlayan kimi.

Beynimin içində yaman gəzirsən,
Elə gəz, qonşular görməsin səni,
Elə gəz, dostlarım bilməsin səni,
Elə gəz, gəzintin bitməsin sənin…

# 31/100

## İnsanlar bir kaleydoskopdur

Musiqi:
Nuages – Closer

Səndən məsləhət və ya irad eşitmək istəmirəm.

Sadəcə dinlə. Dinlə ki, ürəyimdən keçənləri səninlə düz-əməlli bölüşə bilim. Başqalarından fərqli olaraq, yanımda dayanmaq əvəzinə yanımda ol. Ol ki, əsas mənzərəni görə biləsən.

Hər bir insan kaleydoskop kimidir. Kənardan baxanda onunla bağlı hər şey bizə adi gələ bilər. Ancaq gözümüzü o insanın daxilinə zilləsək, qulaqlarımızı onun gizlədiyi hekayələrə şəkləsək, xoş bir sürprizlə qarşılaşa bilərik.

Sən dinlədikcə həmin kaleydoskopu görmüş olacaqsan.

Onun içində minlərlə şüşə parçası var. Bu parçalar keçmişin verdiyi acıların və təcrübələrin nəticəsidir. Onları illərlə toplayıb ürəyimdə daşımışam. İndi isə bu parçalardan bir şəkil yaranıb. İstəyirəm ki, həmin şəkli məhz sən görəsən. Çünki bu şəklin səbəbkarı, rəssamı sənsən. Xəbərin olmasa da, fırçanla mənim parçalanmış qəlbimin bütün yaralarına məlhəm olmusan. Onları başqa rənglərlə tanış etmisən. İndi nə onlar, nə də mən özümü tanıya bilmirəm.

Yanında ağlamaq, yanında gülmək, yanında fikrə getmək, yanında susmaq istəyirəm. Ürəyim sənin əllərindədir. Onunla istədiyin kimi rəftar etmək əvəzinə düzgün yönə çevirməyə və rəngli parçalarımı kəşf etməyə tələs. Əminəm ki, gördüklərin xoşuna gələcək. Saf və tez inanan uşaq kimi əminəm. Bəlkə də, əmin olmaq istəyirəm.

Bircə onu bilirəm ki, səninlə olmaq istəyirəm.

Sənin olmaq istəyirəm.

("Bernadetin barmağı" kitabından bir parça)

# 32/100

## Bir-birinə dəyən muncuqların səsi

Musiqi:
Ludovico Einaudi "Oltremare"

Bəzən olur ki, şəhərdə kiminsə şaqqıltı ilə təsbeh çevirdiyini görürəm. Çevirmə texnikasıyla Brüs Linin ruhunu Kubinka məhəlləsinə gətirməyə çalışan gənclərin üzündə Polat Alemdarın zəhmi var.

Adam onları görəndə qeyri-ixtiyari soruşmağa başlayır:

– Görəsən, uzaq Afrika sahillərindəki insanlar təsbehin hara qədər gəlib çıxdığını bilirmi? Görəsən, Cənubi Afrikada yaşayan insan 72 min il əvvəl bir neçə muncuğu bir ipə hansı ağılla düzüb?

Təsbehdən əvvəl muncuq gəlir.

Bəzək əşyası olana qədər əsrlər boyu pul vahidini əvəz edib. Adamlar, bəlkə də, o vaxtın ilk pul qabını bu şəkildə dizayn edib. Pulları dağılmasın deyə onları bu şəkildə ipə düzüb (Bunu fantaziya məhsulu sayın).

Qədim ingilis dilində bu söz "beads" yox, "bede" imiş.

"Bede" dua deməkdir.

Planetin harasına gedirsən get, insanlar dua edir.

Dua sənin yaradanla ticarət etməyinə bənzəyən bir ritualdır.

Ondan nə isə istəyirik və əvəzində nədənsə imtina etməli oluruq. Ancaq adətən istəyirik. Maraqlıdır ki, az qala bütün monoteist dinlərdə təsbehin bugünkü versiyasına bənzər nümunə var.

Yapon buddistlərində maraqlı ikili var:

“Ojuzu” – saymaq üçün təsbeh

“Onenju” – düşünmək üçün təsbeh

Tibetdə yaşayanlar bu dua alətinə “mala” deyirlər. Ruslara bu söz “mala”lıq edir və ona “listovka” deyirlər.

Əlimizdə tutub fırlatdığımız bu muncuq toplusu əsrlərdir, bizə nə deməyə çalışır? Maraqlıdır ki, “spinner” kimi oyuncaqlar da gəldi-getdi, ancaq bu muncuqlar və gözəl şəkildə yonulmuş daşlar hələ də “aktuallığını itirməyib”.

Forması dəyişsə də, istifadə səbəbi dəyişsə də, dünyanın hər yerində təsbehlər bizi kökümüzə qaytarır.

Ticarət edən, dua edən, hərəkəti sevən kökümüzə qaytarır.

Cənubi Afrikada, Beyrutda, Santorinidə, Nepalda, Tokioda, Vatikanda, Dehlidə, Məkkədə, Bakıda ortaq bir səs eşidilir.

Bir-birinə dəyən və bir ipə düzülən muncuqların səsi...

# 33/100

## Bilənlər deyir ki, biz bilmirik

Musiqi:
Ludovico Einaudi “Oltremare”

“Amerika tarixi” dərsi gedir. Müəllimimiz Skot Eykorn sadəcə ona məxsus Nyu York aksentiylə ABŞ-ın 25-ci prezidentindən danışır. Onun adını çəkmir. “Havay adalarını o alıb bizə miras qoyub”, – deyir. Üzünü sinfə tutub həmin prezidentin adını soruşur. 40 nəfərlik auditoriyadan səs çıxmır. Müəllim bir az da gözləyir.

“Ən hündür zirvəmizə belə onun adını vermişik”, – deyib baxışlarıyla iri sinifdə dövrə vurur.

Prezidentin adını bilirəm. İçimdə zərrə qədər şübhə yoxdur ki, bu məhz həmin adamdır. Əlimi qaldırıram. Skot Eykorn qalxmış əlimi görüb gülümsəyərək deyir:

– Buyur, Coş, de gəlsin!

– Uilyam Mak-Kinli, – deyirəm. Bütün şagirdlər səsimə reaksiya verərək mən tərəfə çevrilir. Həmin baxışlarda “gərginlik” hiss edirəm.

Skot Eykorn: “Düzdür”, – deyib kinayə ilə bütün sinfə baxır. Məndən hansı ölkədən gəldiyimi bir daha xatırlatmağımı istəyir.

O vaxtın gənc və ideallarla dolu patriotu ürəkdən: “Azərbaycandan gəlmişəm”, – deyir.

Yerimə fəxrlə otururam!

Tarix dərsi bitir. Hər kəs dəhlizə tərəf tələsir. “Coş, sən qal”, – sözlərini eşidirəm. Həmin gün Skot müəllimdən həyatımın ən qəribə dərsini alıram. Müəllim mənə: “Bəzən bildiyini deməmək sənə daha çox xeyir verir”, – deyir.

“Ətrafın bilməyənlərlə doludursa, danışmağa və bildiyini göstərməyə tələsmə. Dost əvəzinə özünə çox sayda düşmən qazanarsan”, – deyir. O gündən etibarən dərslərdə bir çox hallarda susub bəzən də qəsdən səhv cavablar verməyə başlayıram. Baxışlardakı həmin gərginlik azalır. Hamı kimi oluram. Bilməyənlərin özünü rahat hiss etməsinə şərait yaradıram.

Fikirlərim məni Platon, Aristotel, Mövlana, Budda, Qaliley, Cordano Bruno, Da Vinçi, Tesla, Lorenz kimi adamların vaxtlarına aparır. Freydin və ya Karl Yunqun yaşadığı məhəllədən keçirəm. Bixəbər, bivec, biliksiz, nadan insanların ətrafında yaşayan tək-tük dahilərin nə üçün çox vaxt susduğunu və sadəcə “Bircə onu bilirəm ki, bilmirəm” dediyini təsəvvür edirəm.

Axı bildiyini deyəndə izah etməli olursan, sən izah etdikcə bu insanlar daha da pis vəziyyətə düşür və ya səni bu vəziyyətə düşürməyə çalışır. Onlara sənin həqiqətlərin kömək etmir. Onların öz həqiqətləri var. Bu həqiqətlərlə həyatlarının sonuna kimi yaşamağa razıdırlar.

Mənim ölkəmdə vəziyyət necədir?

Ağıllı, bilikli insanlara qarşı allergiya var. İdarəçilik səviyyəsində ağıllı-başlı danışmaq ən böyük terror aktı

hesab edilir. Belələrini hamının başa düşdüyü dildə danışmağa məcbur edirlər. Ona görə də illərlə heç kimin başına heç nə düşmür.

Ziyalının biri bildiyini deyib zindana düşür.

İllər sonra azadlığa çıxıb evə gəlir, sevinmək istəyəndə gülə bilmir. “Dişlərimə görə gülə bilmirəm”, – deyir.

Digər tərəfdən isə, başında Bakı küləyindən savayı heç nə əsməyən nadan yığını muncuq kimi düzülmüş dişləriylə elə hey gülür. Onların rəqqasələri gülür. Onların nökərləri gülür. Ekranda olan musiqiçilər gülür. Səhv əməliyyat edib xəstəni şikəst edən həkimlər gülür. Gündəlik alverindən 5-10 manat qoparmaq üçün tərəvəz satıcısını şərləyib bölməyə aparanlar gülür.

Bəlkə də, onların bir bildiyi var.

Bəlkə də, ən böyük xoşbəxtlik heç nə bilməməkdir. “Bilmirəm” deyib özünü axmaq yerinə qoymaqdır. Dərsdə əlini qaldırmamaqdır. Ovcunun içi kimi bildiyini deməməkdir.

Səhv, düz olsa belə, deməməkdir.

Ən gözəl strategiya susmaqdır.

“Görüm nə olacaq”, – deyə susub gözləməkdir.

“Bildiyim bir şey var ki, heç nə bilmirəm”, – deməkdir.

Tək yaradanın olduğunu, yaradanın elçisi olduğunu inamla iddia edən və onun gətirdiyi həqiqətin yeganə həqiqət olduğunu deyən adamın sitatına istinad etməkdir.

Bəlkə də, bu sitat ona aid deyil.

Bilmək olmaz.

# 34/100

## Qurbanlıq qızın hekayəsi

Musiqi:
Nicholas Brittel "The Big Short Piano Suite"

Troyanı fəth etmək üçün yola çıxmağa hazırlaşan Aqamennon bilmədən Artemisin torpaqlarında ona aid olan maralı öldürür. Artemisin başqa adı Dianadır. Diana ölmüş maralına görə qəzəblənir və Aqamennonun gəmilərinin dayandığı sahillərə küləklər göndərir. Ordu çaşbaş qalır. Bu vaxt Aqamennonun köməkçisi Kalças məsələnin nə yerdə olduğunu anlayıb ona bəd xəbəri verməli olur. Sən demə, Diananın qəzəbi soyusun və orduya rəhmi gəlsin deyə Aqamennon 3 qızından birini qurban verməli imiş.

Əvvəlcə sərkərdə Aqamennon buna etiraz edir. Ancaq ordusu ona izah edir ki, oyan-buyan söhbətlər etməsin, qızlardan birini Dianaya qurban versin. Bu kədərli tale İfigeniya adlı qızının bəxtinə düşür. Atası bu acı xəbəri qızına verməkdən çəkinir, ona yalan danışır. Deyir ki, onu qarşıda Axilleslə nikah gözləyir.

İfigeniya sevinərək səfərə hazırlaşır. Səfər isə qurban ediləcəyi məbədədir. Qız qurban edilənədək Axillesə bəslədiyi məhəbbətdən gözləri tutulur. Həmin məbəd onun üçün səadət sarayına çevrilir.

Son məqamda Axilles ona evlilik məsələsinin yalan olduğunu deyir. İfigeniya atasının düşdüyü çətin vəziyyəti öyrənir. Atasını çox sevən İfigeniya ürəyi parçalansa da, qurban edilməyə razılıq verir.

Hekayənin bu hissəsi bir neçə ehtimalla bitir. Bəzi mənbələrə görə, İfigeniya öldürülür. Digər mənbədə, Qay Yuli Higin iddia edir ki, Diana İfigeniyanı özüylə Krımda yerləşən Tauris ərazisinə aparır. Qurban məbədində isə itkin düşmüş İfigeniya əvəzinə maral tapılır. Beləliklə, insanlar Diananın qıza rəhm etmiş olduğunu anlayır.

Hesiod adlı yunan şairi isə öz şerində İfigeniyanın Hekates adlı ilahəyə çevrildiyini deyir. Təxminlərdən ən pozitivi isə Antoninos Liberalisdən gəlir. Bu ehtimala əsasən, gənc qız Qara dənizdə yerləşən adalardan birinə gətirilir və nəhayət, ölümsüz olan Axillesə qovuşaraq sonsuza kimi səadət içində yaşayır.

Ehtimallar çoxdur, ancaq bu gün dünyamızda qurbanlıq heyvan kimi barter edilən qız uşaqlarının sayı qat-qat çoxdur.

* * *

*"Biblioteka Psevdo-Apollodorus" adlı 3 kitablıq topluda maraqlı bir epiqraf var:*

*"Keçmiş haqda fikirləri məhz məni oxuyaraq topla. Homeri vərəqləmə. Elegiyalara, tragediyalara və şerlərə fikir vermə. Dünyanı yaxından öyrənmək istəyirsənsə, məni oxu" (Tərcüməsi təxminən belədir).*

*Nə vaxtsa şəxsi kitabxanamda məhz bu 3 kitabı görmək istərdim. Yunan mifləri və hekayələri hələ də "ak-*

*tuallığını qoruyur". Qurban edilmə səbəbləri və şərtləri dəyişsə də, qurbanlıq qızların acısı bitmək bilmir. Nə vaxtsa, onların da hər hansı bir maraldan və ya müharibə istəyindən daha dəyərli olduğu günü görmək istərdim. Onların həyatında da Axilles kimi sevgiyə layiq kişilərin olmasını görmək ümidiylə bu yazını bitirirəm.*

# 35/100

## Həyatı dəyişən fürsət qapını tək döymür

Musiqi:
Nicholas Brittel – The Big Short Piano Suite

Bu il yaxın bir dostum 4 ay ərzində bir neçə düzgün addım atmaqla 1 milyon dollara yaxın pul qazana bilərdi. Ancaq bu fürsəti əldən qaçırdı. Geriyə həmin milyona bir-iki addım yaxınlığın xoş xatirəsi qaldı.

Biz həyatımızı dəyişəcək fürsəti gözləyirik. Düşünürük ki, həmin o şans bizə verilsə, mütləq dəyərləndirəcəyik. Maraqlıdır ki, fürsət qapını təkbaşına döymür. Qapını açıb görürsən ki, yanında fürsətin özü boyda təzyiq də dayanıb.

Gəlin sizi Mayk Hoban adlı biriylə tanış edim.

Onun hekayəsində fürsət və təzyiqin musiqisi var.

1995-ci il fevralın 11-də Arizona əyalətində keçirilən NBA oyunlarından birində o vaxtın bərkgedən şirkətlərindən olan FootLocker bir basketbol azarkeşinə həyatını dəyişəcək fürsəti təqdim edir. Mayk Hoban adlı bu gənc azarkeşdən sadəcə bir şey tələb olunur. Meydançanın istənilən yerindən 3 xallıq atış etmək. Həmin bir atışın mükafat məbləği 1 milyon ABŞ dolları olur.

FootLocker həmin gündən bir həftə əvvəl Maykın NBA oyunçularıyla məşq etməsinə şərait də yaradır.

Və budur... gün gəlir...

Maykı 1 miyon dollardan sadəcə 15-20 saniyə ayırır. Milyonlarla insanın gözü və kameralar Mayka tuşlanır. Havaya bir-iki sınaq atışı edən Mayk, nəhayət, 3 xallıq atış zonasına ayaq basır. Dərin nəfəs alır. Ona baxan kameraları, gözləri, bu pulu haraya xərcləyəcəyi barədə fikirlərini bir kənara qoymağa çalışır. Mayk bir milyon dolların "təzyiqi" ilə gündə acqarına 100 dəfə atdığı 3 xallıq atışı növbəti dəfə yerinə yetirməyə cəhd edir.

Təəssüf ki, Maykın beynindən keçən bütün fikirlər, arzular göyə qalxan topla birlikdə səbətə çatmadan yerə düşür.

Maykın atışı alınmır.

Milyon dollar FootLockerin büdcəsində qalır.

İllər sonra Maykı küçədə görən və tanıyan insanların verdiyi ilk sual "Sən həmin oğlansan?" olur.

Mənə eyni fürsət verilsəydi, nə edərdim?

Təzyiqə güc gələ bilərdim, yoxsa, yox?

Mayk kimi vaxtı uzadardım, yoxsa, əlimə topu götürən kimi havaya atardım?

Başqasının qapısını döyən fürsət və təzyiq bizim üçün doğma müəllim olmalıdır. Öz qapımızın arxasında hazır olmağı bacarmalıyıq.

Bu gün mənə Nyu-Yorkdan və ya İstanbuldan zəng edib desələr ki, sizin yazılarla tanış olmaq istəyirik, onlara hansı yazımı göndərərdim? 3 xallıq yazım hansı olardı?

Sabah Tom Kruz və ya Toni Robbins mənə qəflətən zəng etsə, onlara necə cavab verərdim?

Sabah yerli brendlərdən biri Azərbaycan müasir tarixində ən bahalı feysbuk postunu yazmağı təklif etsə, hansı mövzuda yazardım?

Bir sözlə, fürsət qapını tək döymür. Özü boyda təzyiqlə gəlir.

# 36/100

## Musiqi zövqü olan aslanlar kar aslanlar qədər yırtıcıdır

Musiqi:
Nicholas Brittel – The Big Short Piano Suite

Bir gün içi musiqiçi sərmişinlərlə dolu bir təyyarə qəza hadisəsi nəticəsində səhraya eniş etməli olur. Elə alınır ki, bu qəzadan sadəcə bir skripkaçı sağ çıxır. Futlyarını götürüb bir xeyli irəliləsə də, nə bir məskənə, nə də suya rast gəlir.

Qızmar qum ayağını yandıra-yandıra başını səmaya qaldırıb qışqırmağa başlayır:

– Bu düşdüyüm vəziyyətdən də betəri var?!

Cavab özünü gecikdirmir. Musiqiçi qarşısında bir aslan görür. Aslanın gözləri və dişləri "Bu da betəri!" – deməyə hazırlaşır. Yırtıcının bulanan quyruğu görəndə skripkaçının yadına skripkasını salır. "Heç olmasa, sonuncu dəfə ifa edim, sonra ölüm" – deyir öz-özünə.

Gözlərini yumub sözü verir skripkasına. Bir müddət sonra anlayır ki, hələ də sağdır, aslan ona toxunmayıb. Əvəzində isə, yanında iki başqa aslan dayanıb. Aslanlar musiqini sevib onu dinləmək üçün başlarını bulamağa başlayır. Məsələni başa düşən musiqiçi bir daha ifa edir.

Bu dəfə gözlərini açanda beş aslan görür. Bir daha ifa edir və aslan sürüsü onu dövrəyə alır.

Skripkaçı musiqi ifa edə-edə aslanların qarşısında dövrə vurmağa başlayır. Onda qəribə bir arxayınlıq yaranır. Yırtıcıların yırtıcı olduğunu unudan skripkaçı dəstəyə qoşulan yeni aslanın yanına gəlir. Skripkanı onun düz qulağının ucuna yaxınlaşdırır, ancaq ifa etməyə macal tapmır. Aslan onun qolunu qoparır.

Skripkaçı qan içində yerə yıxılaraq qışqırır. Aslan onun qalan hissəsini də parçalayır.

Dairəvi şəkildə oturub musiqidən bihuş olan digər yırtıcılar "qatil"ə baxıb bir ağızdan şikayətlənir:

– Nahaq öldürdün, gül kimi musiqiyə qulaq asırdıq!

Musiqiçini parçalayan aslan həmcinslərinə baxır: "Nə deyirsiniz, heç nə eşitmirəm!" Bir sözlə, musiqiçi kar aslanın badına gedir.

Əvvəllər bu kar aslanları pisləyirdim. Sonra gördüm ki, elə musiqi zövqü olan aslanlar da yırtıcıdır. Onlar uzaqbaşı qurdunu öldürənə kimi dinləyəcək. Musiqiçi onsuz da, yorulub, taqətdən düşəndə və ya hansısa musiqi parçasında səhv edəndə onlara yem olacaq.

# 37/100

## Schadenfreude

Musiqi:
New York Jazzy HipHop

"Schadenfreude (Şadenfröyde) – tələffüzü çətin, özü doğma hiss".

İngilis dilində insanın hislərini izah etmək üçün işlənən kəlmələr siyahısında bu qəribə söz də var.

Kökü alman dilinə gedib çıxan bu kəlmə iki sözdən ibarətdir:

Schaden "zərər, ziyan deməkdir", freude "sevinc" deməkdir.

Bəs bu söz insanın hansı hissini ifadə edir?

Schadenfreude başqa bir insanın uğursuzluğuna, kədərli olmasına, ziyan görməsinə sevinməkdir. Bir sözlə, başqa bir insan çətinə düşəndə bizim daxilən keçirdiyimiz sevinc hissi bu alman əsilli sözü meydana gətirib.

Schadenfreude hissini keçirənlərin siyahısına kimləri daxil edə bilərik:

1. Almaniyada baş verən mənfi hadisələrə sevinən AzTV komandasını
2. Futbolda derbi oyunları zamanı hər iki tərəfin azarkeşlərini

3. Məhəllədə oturub bir-birinin qeybətini edən “iri kalibrli” qonşu xalaları (Gələcəyin xala olmağa namizədləri də)
4. Bir-biri ilə yarışan avtobus sürücüləri
5. Eyni işlə məşğul olan, ancaq özünü dağın başına qaldırıb qoyan mütəxəssisləri (mute-xəsisləri də demək olar)
6. “Bir-birinin ayağından tutub quyudan çıxmağa qoymayacaqlar” lətifəsinə səbəb olan hər birimiz
7. …………… Siz davam edə bilərsiniz…

Bir-birimizin yaman gününə şad olmağı bacarırıq.

Qaldı bir-birimizin şad gününə ürəkdən şad olmağı bacarmağı öyrənmək.

Çünki… qonşuna gülürsənsə, başına mütləq gələcək.

# 38/100

## Məni yandıran təndir çörəyi

Music:
Mind Lost – Beautiful Chill Mix

Anam yaşında qadın mənə yanmış təndir çörəyini uzatdı. Hələ bir də “Nuş olsun, bala!” – dedi. Çörəklərin içindən ən yanmışını, qır kimi qarasını vermişdi. Həyatın istisini-soyuğunu yeni öyrənən uşağa öz nümunəsində bir dərs keçmişdi.

Həmin çörəkçidən çörək aldığım vaxtlarda dəfələrlə bilərəkdən müşahidə etmişdim. Kimə yanmış çörək verirdisə, dərhal səslərini başlarına atırdılar. Narazılıq olmasın deyə, tez çörəklərin yaxşısını seçib yola salırdılar.

Ancaq növbə mənə çatanda bu qadın, bəlkə də, məni kiçik görüb, yaşlı və böyük olduğuna arxayın olub heç kəsin yaxın durmadığı yanmış çörəyi mənə uzadırdı. O, gözəl bilirdi ki, məni evdə bu çörəyə görə danlayacaqlar. O yaxşı bilirdi ki, bir ailənin səhər yeməyində yediyi burnundan gələcək. Həmin iri masada oturan hər kəs qəzəbli, acıqlı nəzərlərini bu fərasətsiz, utancaq, çəkingən uşağın üzünə tuşlayacaq. O qadın bilirdi ki, mənim kimi uşağın sayəsində həmin gün yandırdığı çörəyi “xilas edəcək”. Daha doğrusu, özünü xilas edəcək. Bir əfəlin hesabına bir addım qabağa düşəcək.

Bu qadın özündən böyük, güclü uşağı döyə bilməyib, özündən kiçik və zəifə əl qaldıran bəzi uşaqlar kimi davranmışdı.

Çörəyə baxa-baxa həmin qadına “gözəl” arzular dilədim. Onun həyatının da məhz bu çörək kimi qaralmasını istədim. Ondan daha güclülərin onu dəfələrlə əzməsini və haqqını yeməsini istədim. O zamanlar uşaq idim. Anlamırdım ki, insanlar daim güclü olduqlarını bir-birinə sübut etmək xəstəliyinə tutulur.

Ömründə, bəlkə də, bir tikə də təndir çörəyi yeməmiş Nitsşedən oxumuşdum ki, “həqiqi güc zəifə gücün çatdığı halda, onu əzməməkdir”, “həqiqi güc hər dəfə göstərməyə məcbur olduğun güc deyil”.

“Sən əzməsən, səni əzərlər” mantrasıyla yaşayan cəmiyyətin bir nümayəndəsi kimi bu qadın “Axşamacan bu yanmış çörəyi kiməsə satmasam, özüm almalı olacağam” – deyə düşünürdü. Həmin “kimsə”ni tapmışdı. Mülayim səsli, üzündən əfəllik yağan, insanlara və insanlığa inanan sadəlövh bir uşaq tapmışdı. O bir dövlət xadimi, məmur və ya siyasətçi deyildi. Onun iradəsiylə ölkənin gələcəyi müəyyən edilmirdi. O, çörək bişirib-satan adi bir insan idi. Əgər o bunu edirdisə, digər insanların belə etməsi artıq məni təəccübləndirə bilməzdi.

“Yaxşı insan olmaq yaxşı bir şey deyil” və ya “Vəhşi olmasan, cəngəllikdə sağ qala bilməzsən”, qaydaları ilə yaşayan bir insan idi.

Mən balaca uşaq idim. Mənə vəhşilik öyrədilməmişdi. Bunu özüm öyrənməli idim. İllər keçəcək, bank-

lardan birində mənə soxuşdurmaq istədikləri “təndir çörəyi”ni hər kəsin qulağı eşidə-eşidə “baxın hamınızdan vəhşi ola bilərəm”, deyən səs tonuyla geri qaytaracaqdım.

# 39/100

## Gözümüzdən yayınan qorillalar

Musiqi:
Mind Lost – Beautiful Chill Mix

1999-cu ildə psixoloq Daniel Simons insanların diqqətini ölçmək üçün bir sıra testlər edir. Bu testlərdən ən məşhuru “qorilla” testidir. Test edilən insanlara bir video göstərilir.

Videoda 6 nəfər var (3 nəfər ağ, 3 nəfər qara geyinib).

Bu 6 nəfərin 2 basketbol topu var. Bütün video bu 6 nəfərin 2 topu sırayla bir-birinə atmasını göstərir. Testin tapşırığı sadədir (Ağ geyinmiş insanların bir-birinə neçə dəfə top atmasını hesablamaq).

Əksər insan videoya baxandan sonra “15 dəfə” deyir və bu düzgün cavab kimi qeydə alınır. Simons videoya baxanlardan növbəti sualı soruşur: “Bu videoda göstərilən qorillanı görə bildinizmi? “Asanlıqla “15” deyənlərin əksəriyyəti çaşıb qalır.

Qorilla hardan çıxdı?

Təkrar videoya baxırlar. Ancaq bu dəfə ötürülən topları saymırlar və 6 nəfərin ortasından qorilla kostyumu geyinmiş bir nəfərin keçdiyini görürlər. Bizim diqqəti-

miz çox dağınıqdır ("məhduddur" demək daha uyğun olar). Eyni zamanda həm toplara, həm də qorillalara reaksiya verə bilmirik.

Mediamıza və şou biznesə diqqətlə baxsaq, görərik ki, camaata "basketbol topu saydırmaq"la məşğuldurlar.

Nəhəng və gözəgirən olsa da, "qalmaqallı" xəbərlərin fonunda görünməyən iki "qorilla"mız var. Birinci qorillanın adı "Təhsil"dir. İkinci qorillanın adı isə "Səhiyyə"dir.

Bu yay neçə qalmaqallı hadisələr baş verdi. İçkili müğənnini müzakirə edən insanlar "İstək" liseyi kimi təhsil ocaqlarının bağlanmasını görə bilmədi. Gördülər eee, ancaq mediada bu hadisə Mətanət qədər əks olunmadı. Təhsil adlı qorillamıza bir quş qoyuldu. Bunun üstündən "Səni deyirlər" – deyib rəqs də etdik.

"Səhiyyə" adlı qorilladan danışmazdan öncə yadıma klinikaya at gətirən "ruhu-şadlar" düşdü. Bəzi ulduzlar xəstələndi və onkoloji binanın qapısını döyməli oldu. Gəlin sizə ulduz olmayan 13 yaşlı uşaqdan danışım. Həftə içi dərslərimin bir qismini Cərrahiyə İnstitutunun binasında keçirəm. Əməliyyat otağında baş verənlərə şahidlik etməli oluram. 13 yaşlı uşaqla bağlı danışan həkim dərin nəfəs alıb: "Ona dərman lazımdır", – deyir. Elə bir dərman ki, burada satılmır. Elə bir dərman ki, ən yaxşı halda Türkiyədən sifarişlə gətirmək olar. Elə bir dərman ki, uşağın ailəsinin maddi imkanı onu almağa yetməz. Elə bir dərman ki, bu gün uşağa verilməsə, onun hekayəsi burada bitəcək.

Bu uşaq kimi minlərlə insanın belə bir hekayəsi var.

“Təhsil” və “Səhiyyə” nəhəng və təhlükəli qorillalardır.

Biz “trend”lərə o qədər çox fokuslanırıq ki, iki qorillanın müəmmalı davranışlarına vaxtında reaksiya verə bilmirik.

Bütün bunların nəticəsi nə olacaq?

Bu gün görə bilmədiyimiz bu iki vəhşi heyvan vaxt gələcək bizi parça-parça edəcək.

# 40/100

## Ulduz xəstəliyinə ancaq ulduzlar tutula bilər

Video:
Avicii – True Stories (sənədli filmi)

Ulduzların bir işi var.

Daim parıldamaq. Bu işi özləri seçməyiblər. Belə olmasını, bəlkə də, heç istəməyiblər. Ancaq belə olub və daim belə də olacaq. Ulduzlar parıldayır. Bəzən elə bir an gəlir ki, bu parıltını qorumaq və ya olduğu kimi göstərmək alınmır.

Bəzən elə olur ki, ulduzlar xəstələnir. Onlar ulduz xəstəliyinə tutulur. Bu mərəz qaranlıq dolu kainatda görə bildiyimiz kiçik ümid işıqlarının yanıb-sönməsinə gətirib çıxarır.

Parıldamaq nə deməkdir?

Parıldamaq "yaratmaq" deməkdir. Hislərini, düşüncələrini və istəklərini müəyyən bir qəlibə salmaq deməkdir. Alınan məhsul nəticəsi etibarilə başqa insanların qaranlıq dünyasına işıq salmaq deməkdir. Qaranlıq olan dünyada "Mən buradayam", – deyə hayqırmağı bacarmaqdır. Sevilən ilk musiqi, şeir, yazı, səhnə, rəqs, kəşf, elmi iş, foto və onlarla belə əsər yaradıcı cəhddir.

Növbəti mərhələ bu işığın mənbəyini cəmiyyətin "rasionu"na uyğun qablaşdırmaqdır. Elə eləmək lazımdır ki, həddən artıq işıqdan kor olmasınlar. Albomlar, toplular, müqavilələr, şərtlər, vəzifə öhdəlikləri, məsuliyyətlər ulduzun parıltısını azaldan amillərdir. Növbəti mərhələ puldur. Pul ilə birgə insanlar, fürsət axtaranlar, şarlatanlar, yalan, böhtan və yüzlərlə nöqsan gəlir.

Növbəti mərhələ boşluqdur. İçini içkiylə, nəşəylə, hər cür kimyəvi maddəylə doldurmağa çalışdığımız boşluqdur (Mənim keysimdə çipslə və buzlu çayla).

İlk dəfə olduğu kimi "işıq istehsal edə bilməmək" qorxusu ilə yaradıcılıqla öhdəliklər arasında qalmaqdır. Səni sevən və səndən növbəti parıltı dolu addımı gözləyən insanların təzyiqidir.

Medianın, televiziyanın təzyiqidir. Sənin "işıq qabını sındıran" güclü təzyiqdir. Səni mənəvi cəhətdən sındıran təzyiqdir. Səni, bəlkə də, almaz qədər parlaq etməyə qadir olsa da, əksər hallarda kömür səviyyəsinə salan təzyiqdir.

Ulduz xəstəliyinə kimlər tutula bilər?

Bu xəstəliyə ancaq ulduzlar tutula bilər. Yaratmağa həvəsi, enerjisi və ya səbəbi qalmayan kəslər tutula bilər. Bu gün deyib-gülən, sabah isə xəbərlərdə adını eşitdiyimiz mərhum müğənnilər, DJ-lər, komediya ustaları, yazarlar, rəssamlar, alimlər, sənətkarlar, natiqlər tutula bilər.

Ulduz xəstəliyini daha yaxından anlamaq istəsəniz, gənc DJ Aviciinin həyatından bəhs edən "True Stories" adlı sənədli filmə baxa bilərsiniz.

28 yaşına qədər 800-dən çox konsert verən, verməli olan və son illərdə studiyasına qayıdıb yenidən əvvəlki kimi musiqi yaratmaq istəyən bu gəncin həyat yolunu yaxından izləmək faydalı olar.

Ulduzlar nə üçün var?

Ola bilər ki, onlar təsadüfün nəticəsidir. Ancaq yenə də bir çox səyyahın yolunu azmamasına kömək edib. Sağ-salamat evə qayıdan milyonlarla insan bu qayıdışı həmin ulduzlara borcludur.

Həyat çox qəribədir.

"Sonda heç nə əhəmiyyət daşımır", – deyən Çester Beninqtonun mahnısıyla həyata sığınan insan ordusu özünə qəsd etmiş müğənnini yad etmək üçün bərkdən və birlikdə oxuyaraq onun irsinin nə qədər əhəmiyyətli olduğunu göstərirlər.

Hamını ürəkdən güldürən Robin Uilyamsın çıxışlarına hər dəfə baxanda ən qaranlıq günlərində belə "bu insanın parıltısı və istisi ilə" həyatına davam edə bilirsən.

Eminem "Kamikadze" albomunu çıxarır və "Slim Shady qayıtdı" deyən insanların sevincini bütün varlığınla hiss edirsən.

Kitablarım məndən başqa hər kəsə yardım etdi. Sevdiyim oğluma, mənəvi boşluq yaşayan gənclərə, qərar verməyə çalışan insanlara, sevdiyini itirən insanlara, həyata ümidini itirmiş neçə insana, təslim olmuş insana, unutmuş insana, nə qədər möhtəşəm ola biləcəyini unutmuş hər bir insana yardım etdi.

"KVAN"dan sonra bir qədər xəstələndim. Yazıya

olan sevgimi qablaşdırmalı və pula satmalı oldum. "Sevgili"mə xəyanət etdim!

Yeraltı musiqi silsiləsi mənim üçün köhnə günlərə qayıdışdır. Həvəslə kompüter arxasına oturub yazı yazdığım anlara qayıdışdır. Bu silsilədə qayda yoxdur. Bu silsilədə yaşadığım hislər və təcrübədən keçirmək istədiyim müxtəlif "Coşqun"lar var.

Bu silsilə səyahətin sonu deyil, məhz özüdür.

# 41/100

## Gözləyən insanların ensiklopediyası

Musiqi:
Shawshank Redemption – Brook Was Here

İnsanlar daim gözləyirlər. Onların fərqli gözləmə səbəbləri və bu səbəblərdən dolayı yaşanan fərqli hisləri olur (Masanın üstündə duran iri ensiklopediyanı götürüb mənə uzatdı). Artıq 11 ildir ki, gözləyən insanların təsnifatını aparıram. Bu ensiklopediyanı sənə hədiyyə edirəm.

Kitabın bir neçə hissəsini vərəqləyib siyahıya göz gəzdirdim. Bəzi yerlərdən sürətlə, bəzi yerlərdən isə dayana-dayana keçdim. Siyahıda gözlədiyim və gözləmədiyim gözləyənləri gördüm:

122. Uşağının əməliyyatının sona çatmasını gözləyən valideyn

123. Uşağının hərbi xidmətdən qayıtmasını gözləyən valideyn

127. Uşağının doğulması xəbərini gözləyən valideyn

133. Valideynindən xoş söz gözləyən övlad

134. Valideynindən anlayış gözləyən övlad

155. Həyatının ilk öpüş anını gözləyən gənc

156. Sevgilisinə yazdığı ilk mesaja cavab gözləyən gənc

157. İlk rəqsinə dəvət etmək üçün fürsət gözləyən gənc

158. Onun yaxınlaşmasını gözləyən gənc

211. "İşə qəbul edildiniz" zəngini gözləyən namizəd

212. İlk iş gününün problemsiz bitməsini gözləyən işçi

219. Ayın sonunu gözləməyə başlayan işçi

220. Başqa bir yerdə iş imkanı gözləyən işçi

445. Günün əvvəlində ilk müştərisini gözləyən taksi sürücüsü

446. Mağazaya girəcək ilk müştərini gözləyən satıcı

449. Günün əvvəlində ilk çayını gözləyən müştəri

777. Kişilərin nə zamansa dəyişəcəyini gözləyən qadın

778. Həyat yoldaşının işdən evə qayıtmasını gözləyən qadın

779. Həyat yoldaşının evdən işə tez getməsini gözləyən qadın

880. Sürücünün radara düşməsini gözləyən polis

881. Baş tutacaq vacib tədbir üçün toplanış əmrini gözləyən polis

888. Güclə avtobusa minən qocanın oturmasını gözləyən avtobus sürücüsü

900. Təyyarənin təkərlərinin yerdən üzüləcəyi anı gözləyən sərnişin

901. Həmin təkərlərin yenidən yerə toxunuşunu gözləyən sərnişin

902. Hazır yeməyin təqdim ediləcəyi anı gözləyən sərnişin

903. Sərnişinlərin təyyarəni boşaltmasını gözləyən heyət

1200. Maraqlı filmin ortasına girmiş reklamın bitməsini gözləyən tamaşaçı

1313. Ölüm hökmünü gözləyən məhbus

1319. Azadlığa çıxmazdan öncə əşyalarının verilməsini gözləyən məhbus

4501. Gölməçəyə əyilib su içən aslanın üzünü dəqiq çəkmək üçün gözləyən National Geographic fotoqrafı

4502. Pulitzer mükafatını gözləyən yazar

4506. Oskara namizədlik elanını gözləyən aktyor

8000. Kosmik fəzaya uçuş anını gözləyən kosmonavt

8011. Gördüklərini sevdikləriylə paylaşacağı anı gözləyən kosmonavt

15000. "Mənim bir xəyalım var" deyə biləcəyi anı gözləyən Martin Lüter Kinq

15001. Corc Formeni yerə sərəcəyi anı gözləyən Məhəmməd Əli

15015. Ümmətinin nə vaxtsa düzələcəyini gözləyən Məhəmməd

15016. Ümmətinin nə vaxtsa, düzələcəyini gözləyən İsa

15017. Ümmətinin nə vaxtsa düzələcəyini gözləyən Musa

66.000. Ümmətinin nə vaxtsa bağışlanacağını gözləyən Adəm

120.000. Potensialını göstərmək üçün fürsət gözləyən insan

121.000 Növbəti fürsəti gözləyən insan

121.001 Heç nə etməyib möcüzənin baş verməsini gözləyən insan

121.002 "Gördün, alınmadı" demək üçün növbəti bəhanəni gözləyən insan

*** "Bağışla!" deyə bilmək üçün o biri dünyada görüş ehtimalını gözləyən insan

*** Həqiqətən yaşamaq üçün fürsət gözləyən insan

*** Son nəfəsinin bitməməsini diləyən və belə olacağını gözləyən insan

# 42/100

## Qanın su yerinə axmasına dözməyən Adəmin oğulları

Musiqi:
We Are All Astronauts – Ether

"Alma"nı yedirən Həvvaya və bu almanı yeyən Adəmə nə vəd edildi? Sonsuz əziyyətlər. Həvvanı və onun uşaqlarını (növbəti Həvvaları) doğuş zamanı ağrılar, "ay sonları", "su yerinə axan qan" gözləyirdi. Adəmi və onun uşaqlarını (növbəti Adəmləri) ömür boyu çörək axtarmaq, ov ovlamaq, dolanmaq, dolandırmaq, Həvvanın əziyyətini yüngülləşdirmək gözləyirdi.

Kişilər qadınların doğuş ağrılarını azaltmaq üçün əsrlər boyu çıxış yolu axtarıb. Hətta bir sıra kimyəvi maddələri test ediblər. Bu kişilərdən biri Şotlandiyada həkimlik edən Ceyms Yanqdır. Ceyms bu gün hamıya məlum olan doğuş zamanı xloroformdan istifadəni başladan ilk adamdır. Bu maddə ilə insanın huşunu itirdiyini görüb və fikirləşib ki, bununla qadınlara kömək edə bilər. Deyilənə görə, Ceyms dünyaya bu üsulla gələn ilk uşağa – Vilhelminaya "Anesteziya" ləqəbini qoyub. Xloroformu iyləyən qadının huşunu itirməzdən əvvəl işlətdiyi son cümlə "mən mələyəm" olub. (Həkim barədə yazılmış memuara əsasən).

1929-cu ildə Örl Hass adlı kişi bu gün bildiyimiz "tampax" tamponunu ixtira edib, patentini alıb. 7 il sonra Gertruda Tenderix bu patenti Haasdan 32.000 dollara alıb "Tampax"ı MMC edib. 1941-1945-ci illərdə müharibə zamanı kişilərin əvəzinə zavodlarda işləməli olan qadınlar bu məhsuldan o qədər çox alıb ki, nəticədə, ölkə qadınlarının 85%-i bu məhsulun istifadəçisi olub. İllər sonra bu MMC-ni Procter and Gamble kimi nəhəng şirkət 1.85 milyarda satın alıb.

1998-ci ildə Arunaçalam Muruqanantam (qısaca Padquru deyək) həyat yoldaşının əlində "müəmmalı" parçaları görür. Padqurunun həyat yoldaşı utanaraq "Özümə bez ala bilmirəm. Bezin pulu ilə evə süd alıram", – deyir. Padquru öz evində yaşayan 3 və Hindistanda yaşayan milyonlarla qadının "pulsuzluq"dan özünə "gigiyenik bez" ala bilməməsi problemini həll etmək qərarını verir. Mağazalarda satılan bahalı bezlərdən dəfələrlə ucuz olan və asan şəkildə hazırlanan bezin istehsalına başlayır.

Qadınları gündəlik əziyyətdən xilas etmək məqsədilə istehsal etdiyi bezləri sınaqdan çıxarmağa o boyda Hindistanda könüllü qadın tapa bilmir. Buna görə də Padquru öz belinə donuz qanı dolu qab bağlayır və günlərlə bu qabla gəzir (Qanaxmanın simulyasiyası, testlər, könüllü qadın axtarışları Padqurunun həyat yoldaşının ondan hətta boşanmaq istəyinə gətirib çıxarır. Ancaq bu hekayənin sonu Padquru, onun həyat yoldaşı və bütün Hindistan üçün əla bitir).

Hindistanın, demək olar ki, bütün əyalətlərində Padqurunun "gigiyenik bez" hazırlayan ucuz cihazları işləyir. Onun işi o qədər böyüyüb ki, hal-hazırda 21.000 qadın işçisi var. Dövlətə verdiyi xeyrə görə Şərəf ordeni ilə təltif edilib. "Tayms" jurnalının "Dünyaya təsir edən 100 insan" siyahısına da (2014) düşüb.

Qan su yerinə axır ki, "yeyilən almanın aqibətin" xatırlayaq. "Axı bu Yaradan Adəmi və Həvvanı nə üçün heç cür bağışlamır" – deyə düşünürdüm. "Yaradan" sözündəki "yara" nə zaman sağalacaq" – deyə düşünürdüm. İndi isə başqa bir şey düşünürəm.

Yaradan o qədər ağrının, əzabın, qanın və suyun içində Adəm və Həvvaya sevgi hissi ilə güc vermişdir. Cütlük rahatlığı bir-birini sevməkdə və bir-birinə həmdəm olmaqda tapır.

Qışın sərt soyuğu hər iki tərəfin qoynunu daha isti edir.

# 43/100

## Heç bir Tanrı insanı dəyişə bilməz

Musiqi:
Ennja "Let Go"

Tanrıları biz dəyişirik. Onlar bizi dəyişməyə qadir deyil. Hər şey çox sadədir. İnsan Tanrıdan qorxmur, o, başqa insandan, insanlardan qorxur. Ona görə də adətən, ona müqəddəs mətnlərdə deyiləni etmək əvəzinə insanların fikir və davranışlarını müqəddəsləşdirib bu "inanc"la yaşayır. İnsan Tanrıdan qorxmur, çünki "göydən" endirilmiş mətnləri məharətlə azaldır, çoxaldır, dəyişir, gizlədir və ya məhv edir.

Bir gün Jak Freskodan "Xristianlıq" barədə fikirlərini soruşurlar. Jak heç düşünmədən: "Gözəl konseptdir", – deyir. Ancaq çox çəkmir ki, Jakın ağzından: "Heyif ki, bu konseptin tətbiq edildiyini görməmişəm", – cümləsi çıxır.

Dini traktatlar özündə minlərlə qanun və rəvayəti toplayıb. Onları araşdırıb bu konsepti anlamaq bir ömür istəyir. Əgər ömrünü bu konseptin araşdırılmasına sərf etsən, tətbiq etməyə vaxtın qalmayacaq. Eyni zamanda, konsepti görməzliyə vurub ən sadə şəkildə "İnanıram"

desən, tam olaraq nəyə inandığını bilməyəcəksən. Bu, bir müqaviləni imzalamağa bənzəyir. Şərtləri və qaydaları ilə tanış olmadan imzanı atırsan. Hər şeyin qaydasında gedəcəyinə inanırsan. Sonra isə dəfələrlə “devalvasiya” yaşamalı və şərtlərin yazıldığı kağıza qayıtmalı, bu dəfə onları diqqətlə oxumalı olursan. “Buna necə imza atmışam?!” – deyib gileylənirsən.

Bir gün Mehmet Akif Ərsoydan “Bu ölkə nə zaman düzələcək?” – deyə soruşurlar. Mehmet Akif: “Cümə namazlarına gələn adamlar sübh namazlarına da gəlməyə başlayanda”, – deyir.

Mehmet Akif: “İslamı Avropada gördüm, ancaq ölkəmdə ona rast gəlmədim” sözü ilə də məşhurdur.

Ölkəsinin bir vətəndaşı kimi “müsəlman” olsa da, öz cəmiyyətinin konseptdən nə qədər uzağa düşdüyünü və ya bu konsepti nə qədər dəyişdirdiyini müşahidə edir. O da Tolstoy kimi “dinə inanıram, ancaq dindarları görməyə gözüm yoxdur” düşüncəsinə qapılır.

Bir gün Hz. Musa haqqında bir lətifə oxudum.

Müqəddəs dağdan enən Musa onu gözləyən davamçılarına bir yaxşı və bir pis xəbərinin olduğunu deyir. Davamçıları əvvəlcə yaxşı xəbəri eşitmək istəyir. Musa deyir ki, Rəbbimiz bizdən 15 qanuna əməl etməyimizi istəyirdi. Sövdələşdim və sayını 10-a endirdim. Sevinən insanlar ikinci xəbəri eşitmək istəyir. Fikirli-fikirli baxan Musa deyir:

– Nə qədər çalışdım, “zina” ilə bağlı qadağanı ləğv etdirə bilmədim.

Tanrıdan çəkinən cəmiyyətin evlərində dəmir qapılar, möhkəm qıfıllar olmazdı. Kilsələrdə uşaqlara, məscidlərdə qadınlara meyil edilməzdi. Rəqqasələr bu gün ehsan verib sabah rəqslərinə davam etməzdi. Sadəcə "O"nu sevənlər vəd edilən cənnətlər üçün səcdə etməzdi. Sadəcə "O"nu axtaranlar öz mənfəətini güdməzdi. Haqqı danıb, haqsızlıq edib başqalarının haqqını yeməzdi. Tülkülər "toyuq-cücə"ni aşırmaq üçün həccə getməzdi.

Pulu Tanrıya çevirməzdi.

Ancaq bütün bunlar baş verdi.

Maraqlıdır ki, pulun da insanı dəyişdirə bilmədiyini deyirlər.

Yaxşı daha çox yaxşılıq edir. Pis daha çox pislik edir. Kasıbın əlinə çox pul düşəndə çaşıb qalır, mənasız şeylərə xərcləyib yenə də kasıb qalır. Varlılar öz sərvətini daha da artırır.

Növbəti Tanrı kim, ya da nə olacaq, bilmirəm.

Bircə onu bilirəm ki, yenə də öz xeyrimizə çıxış yolunu tapacağıq.

# 44/100

## Bu yazıdan incə bir xətt keçir

Musiqi:
Kiasmos – Looped

Bilmək və etmək arasından incə bir xətt keçir. Eyni xətt oxumaq və tətbiq etmək arasından da keçir. Həmin xətti zülmə dözməmək və səbir etmək arasında görmək də mümkündür. Bir az dərinə getsək, bu incə xətt dekoltenin ortasından görünməyən aşağıya tərəf gedir.

Sahilboyu gəzənlər üfüqə tərəf baxanda həmin xətti görə bilirlər. Bu xətt dəst-xəttə çevrilir. Bu dəst-xətt əmin olanları özündən razı olanlardan ayırır. Bu işin peşəkarları: Tolstoy və Dostoyevskilər, Nitsşelər, Freyd və Yunqlar dəst-xətt qoyub gedir. Özündən razıları zaman incə xəttin ən incələn yerindən silərək heçə çevirir.

Bir də təmas xətti var. Bu xətdən nə qədər mərmi keçir. Ölüm və həyat arasından keçən xətt kimi bu xətt bizim qorxularımıza və ümidlərimizə təmas edir. İncə xətt hospitalda uzanan ağır yaralının monitorundan da keçir. Bəzən yuxarıya qalxır, bəzən enir. Bəzən də elə an gəlir ki, sadəcə "uzanaraq" gedir.

Musiqi notları incə xətlərin arasında yazılır.

Bu notları səliqə ilə yazan bəstəkar beynindəki xao-

su azadlığa buraxır. Çılğınlıq qablaşdırılır. Bu qaba ad qoyulur. Arxasına bir aksiz markası vurulur. Bu məhsul başqalarından fərqlənsin deyə, üstünə ştrix kod əlavə edilir. Kitablara İSBN nömrəsi vurulur.

Fərq etmir, hansı məhsula nə vurulur. Əsas odur ki, hər şeyin sonunda yenə də incə xətləri görməli oluruq.

Sonda isə insan həyatla ölüm arasında bir kəndirdən yapışır, ancaq kəndiri gəmirən ağ və qara siçovullar olur. Tolstoyun bu siçovulları qorxularımızla qidalanır. Onların ucbatından nə yerə, nə də göyə baxa bilirik. Gəmirilən kəndirin qırılan iplərinə tamaşa edirik. Bu tamaşa incə bir xəttin qırılmasına kimi davam edir.

Keyfiyyət yoxsa kəmiyyət? Yaradıcılıq, yoxsa intizam? İlham pərisi, yoxsa səbəb? Rahatlıq, yoxsa peşmanlıq?

Biz daim var-gəl edirik.

Bu incə xətlərin üzərindən keçib qayıdırıq.

Bu xətlər bizim üçün sərhədləri təyin edir.

Bu xətlər bizə mümkünsüzü və mümkünü göstərir.

Bu xətlər tələsənləri ofsayd vəziyyətinə salır.

Bu xətlər bacaranlar və bacarmayanlar arasında sərhəd yaratmış olur. Həmin sərhədləri gözümüzdə böyütməyə başlayırıq. Nəticədə, onlar nəhəng qala divarlarına çevrilir.

Diqqətlə baxanlar anlayır ki, bu qala divarları, əslində, bir neçə xətdən ibarətdir.

Bu yazını yazarkən “Kiasmos – Looped” musiqi parçasını dinləyirəm. Parçada qatarın səsini eşitmək müm-

kündür. Bu qatarın nə zaman yola çıxdığını bilmirəm. Onun nə vaxt dayanacağı da bəlli deyil, ancaq onun bu qədər aramla aparan relslər də iki incə xəttə bənzəyir.

Bir gün öncə qarşıma bir müqavilə qoyuldu.

Bu müqavilə mənim üçün növbəti mərhələ, növbəti səyahət deməkdir. Bunun üçün imza atmalı idim.

İmza atım deyə, imza yerinə incə bir xətt çəkilmişdi.

# 45/100

## Arqos adlı itin hekayəsi

Musiqi:
Kiasmos – Jarred

Arqos vaxtilə Odisseyin sadiq iti olub. 20 il uzaq diyarlarda yaşamalı olan Odissey nəhayət, öz doğma evinə qoca və dilənçi qiyafəsində qayıdanda heç kim onu tanıya bilmir. Hətta ən yaxın dostu Eumaious belə onu tanımır.

Bircə giriş tərəfdə qoca iti Arqos onu görən kimi tanıyır, qulaqlarını şəkləyib quyruğunu bulayır. Odissey itinə yaxınlaşıb onu oxşaya bilmir (Kim olduğu bilinməsin deyə). Göz yaşını dostundan gizlədir. Peyinin içində bit basmış və halsız halda uzanan Arqosu görmək Odisseyin ürəyini dağlayır.

Bir qədər gedəndən sonra Odissey Arqosun nə üçün bu hala düşdüyünü dolayı yolla öyrənmək üçün Eumaiousdan soruşur:

– Bu it sizin evə məxsusdur, yoxsa yemək dilənmək üçün bir küncdə uzanıb?

Dostu cavab verir:

– Bu itin həqiqi sahibi uzaq diyarlardan birində həyatını itirib. Əgər Troya tərəfə yola düşən Odisseyin

vaxtlarına qayıda bilsəydik, o zaman bu itin nələrə qadir olduğunu görərdin. Bütün vəhşi heyvanlar ondan qorxurdu. Çox güclü və təhlükəliydi. Onun kimi iz tapan ikinci canlı yox idi. İndi isə heç kim ona qulluq etmir. Kölələr sahibləri gedəndən bəri itə qarşı biganədirlər. Özün bilirsən də, Zevs insanı qula çevirəndə içindəki yaxşılıq hissinin yarısını ürəyindən silir.

20 il Odisseyin yolunu gözləyən Arqos, nəhayət, sahibini görüb son nəfəsini verir.

Bu il də öz Arqoslarımıza qulluq edək!

Arqos – bizim daxili aləmimiz ola bilər.

Arqos – bizim əziz xatirələrimiz ola bilər.

Arqos – bizim vaxtilə başlamaq istədiyimiz, ancaq heç cür başlamağa cəsarət etmədiyimiz bir layihə ola bilər.

Arqos – evdə, ailədə həllini gözləyən bir “problem” ola bilər.

Arqos – çoxdandır itirib axtarmadığımız yaxınımız, tanışımız və ya dostumuz ola bilər.

Arqos – bizim ümidlərimiz və xəyallarımız ola bilər.

Arqos – başqa insanlara qarşı münasibətimiz ola bilər.

Arqoslarımıza tumar çəkmək, onları oxşamaq və onların qeydinə qalmaq vaxtıdır.

# 46/100

## Evdə tənha olan uşağın axırı

Musiqi:
John Williams "Somewhere in my memory"

Heç kim uğurdan və onun fəsadlarından sığortalanmayıb.

Hollivud tarixində Şirli Templdən sonra ən uğurlu uşaq aktyor olan Makaluey Kalkindən bəhs edirəm. "Evdə tənha" filmində oynadığı Kevin rolu ona elə bir uğur gətirdi ki, yatıb yuxusunda da görə bilməzdi. Filmin istehsalçıları 18 milyon dollar xərcin müqabilində yarım milyard dollar gəlir götürdü. Bu gəlir fantanı fışqıranda uşaq ulduzun üstünə də xeyli su damcıladı. Kalkin film tarixində milyon dollar qonorar alan ilk uşaq aktyor oldu. Onun prodüsseri – məhz atası Kit Kalkin buna nail olmuşdu.

Əlbəttə ki, insan bu qədər tanınmış və 1 ilə varlanmış uşağın həyatında hər şeyin dəyişəcəyini düşünür. Bəli, hər şey dəyişdi.

İlk növbədə, valideynləri uşağın maliyyə fondunu idarə etmək məsələsini həll edə bilmədiyi üçün məhkəmə işi açıldı. Övladına milyonlar qazandıran atası içki aludəçiliyi ucbatından həm milyonlarsız, həm də uşaq-

sız qaldı. Kalkin anasının himayəsinə keçdi. 14 yaşında aktyorluqdan imtina etdi. Bir dəfə evlənməyə cəhd etdi. 2 il sonra boşandı. Bir neçə dəfə həbs edildi və cərimə ödəyərək azadlığa buraxıldı. Narkotik maddələrə qurşandı. Zolaq getdikcə qaraldı.

Elə bil ki həyat onu, həqiqətən də, “evdə tənha” qoydu.

İndi də onun filminə baxan milyonlarla insanın üzü gülümsəyir. “Kevin yoxdur”, – deyə qışqıran anasını ekranlarda eşitmək yeni ilin ən vacib atributlarından birinə çevrilib.

Uğur insana hər şeyi birdən verib onu yerdə bərk saxlayan ayaqlarına badalaq vurur. Əlində tutduğun kuboklarla, çeklərlə və xəbər başlıqları ilə birgə yerə yıxılırsan.

Kalkin yıxıldı. Ancaq pis-yaxşı, indi yenə də ayaq üstədir. Nə isə etməyə çalışır. Və nə yaxşı ki, cəhd edir. İnanıram ki, filmdə olduğu kimi həyatda da valideynlərinə yenidən qovuşa biləcək.

# 47/100

## Bu gün dünya kitab günüdür

Film:
"Finding Forrester"

Bir mövzu barədə yazmaq yerinə düşər.

Son illər müşahidə etdiyim bir davranış və düşüncə modeli var:

"A" tipli kitabları oxuyanlar "B" tipli kitabları oxuyanları səfeh hesab edir. "B"lər də "A"ları səfeh qismində görür.

Kitab oxuyanlar oxumayanları, oxumayanlar da oxuyanları anlamaqda çətinlik çəkir. Bir sözlə, hamımız kiminsə təsnifat siyahısında mütləq "səfeh" kateqoriyasına aidik.

Həm oxuyan, həm də yazan bir insan kimi bu məsələyə aydınlıq gətirmək istəyirəm.

Kitab oxumaq "yeyib-içməyə" bənzəyir.

Rus ədəbiyyatı: xüsusilə, Tolstoy, Dostoyevski, Nabokov, Çexovun yazdıqları "kabab" kateqoriyasına aiddir. Kabab dadlıdır. Mədəmiz kabab ətini saatlarla həzm etdiyi kimi ağlımızın da bu kitablarda yazılanları dərk etməsi bəzən illər çəkir.

Amerikan ədəbiyyatı: Drayzer, Fitzcerald, Staynbek,

London, Selincer, O. Henri kimi ədiblər də "barbekyu" təklif edir.

İngilis ədəbiyyatı: Şekspir, daha doğrusu, Kristofer Marlo, Çarlz Dikkens, Coys, Conatan Svift, Kits və Bayron "bozartma və ağır ət yeməkləri" qəbilindən yazıb.

Kabab yemək yaxşıdır, ancaq hər gün 3-4 dəfə yesən, sonda mədən sıradan çıxa bilər. Arada su içmək lazımdır. Rumi, Veyn Dayer, Ekhart Tollenin yazdıqları insanın ruhuna su səpir. Gün ərzində 2-3 "litr" qəbul etməkdə fayda var. Oşonun kitabları qazlı içkilərdir, "Kola, sprayt və fanta kimi şirindir, ancaq təbii deyil".

Napoleon Hillin "Düşün və varlan" əsəri ilə başlayan və Karnegi ilə davam edən motivasiya və ilham dolu kitablar daha çox enerjili içkilərə oxşayır.

"Kimyagər", "Ferrarisini satmış rahib", Brayan Treysinin, Entoni Robbinsin kitabları, adətən, insana redbull və ya snikers şokolad batonu kimi təsir edir. Həftədə bir neçə dəfə qəbul etmək normaldır. Ancaq bunu su əvəzi içmək təhlükəlidir. Çünki aldığınız enerjini yerbəyer etmək çətinləşəndə bu enerji içinizi dağıtmağa başlayacaq.

Gəlirəm ədviyyat tərəfə.

Nitsşe vasabidir. Vasabi insanın dilini yandırır. Az-az qəbul etmək, nəyinsə üstünə sürtüb yemək məsləhətdir. Nitsşe bu vasabini daxilində gəzdirdiyi üçün özü yanıb kül olub. Onun aqibətini yaşamamaq üçün arada "su" için və ya "çörək"dən dişləyin.

Corc Oruel, Aldoks Haksli və onların stilində yazan-

lar heç kimin eşitmək istəmədiyi acı həqiqəti dilə gətirir. Bu qəbilədən olan yazılar "tabasco" sousu kimidir.

Dini kitablar çörək kimidir. Xüsusilə də, ərəb ölkələri və biz Qafqaz xalqları hər şeyi çörəklə yeməyi xoşladığımız kimi bir çox əsəri də, fikri də sonda Yaradana bağlamağı çox sevirik və buna adət etmişik. Bişirilən çörəyin qoxusu sanki cənnətdən gəlir. Ateistlərin müraciət etdiyi ədəbiyyat da vafli kimi olan qoxusuz çörəyə bənzəyir. Onlar xəmirin ziyanlı olduğunu iddia edir. Ona görə də xırt-xırtlı alternativ təklif edirlər.

Xırt-xırt demişkən romantik əsərlər adətən çipsə bənzəyir. Elə əlini paketə salıb 1-2 çips də yemək istəyirsən, bir də görürsən ki, bütün paketi aşırmısan. Barmaqlarındakı çipsi qırıntılarını yalayırsan.

Dedektiv əsərlər daha çox balıq yeməklərinə bənzəyir. Özü də tıxlı və çətin yeyilən balıqlarla əlləşməyi sevən oxucular sümükləri bir-bir tapıb bir kənara qoymaqdan həzz alır. Onlar Aqata Kristi kimi aşpazların növbəti balıq yeməyinin üzərində səbirsizliklə işləməyi sevirlər.

Tolkien, Corc Martin, Roulinq isə "pizza" hazırlayır. "Xəmir" tipli kitabların üzərinə day nə desən, düzür, sonda bütün "toplu"nu sobaya atırlar. Bəzi pizzalar çox dadlı alınır. Bəzilərinin xəmiri və üstündəkilər yaxşı çıxmır.

Biznes kitabları, Kiosaki, Silikon vadisinin külliyatı isə "hamburger və fast-food" kateqoriyasına aiddir. Qablaşdırılma, təqdim edilmə, sürət, səs, eyforiya, mu-

siqi... və siz artıq bu hamburgerləri və fransız sayaq friləri yeyirsiniz. Sehrli fast-food anlarını mütləq yaşamaq lazımdır. Ancaq bir müddət sonra “tərəvəzli” nəsə yemək də pis olmaz.

Şeirlər və kiçik hekayələr adətən “meyvə-tərəvəz” rolunu oynayır. Gözəl doğranmış meyvə salatını kim istəməz ki?

Qədim traktatlar “brokkoli, kök və çuğundur” kimidir. Dadı olmasa da, insanın qanına və sağlamlığına çox yaxşı təsir edir.

İshaq Azimov, Jül Vern və digər fantastlar sizi “molekulyar mətbəxə” səsləyib qabağınıza fantastik menyu qoyurlar.

Müasir feysbuk postları, medium postları və bloq yazıları çay və kofe kimidir. Günümüzü onları içmədən təsəvvür etmirik. Ancaq paket çayla evdə dəmlənmiş açıq çay arasında fərqi, yəqin ki, izah etməyə ehtiyac yoxdur.

Müasir ədəbiyyat inciləri və “desert” kateqoriyası isə yutubda yazılan rəylər, tvitterdə paylaşılan tvitlərdir.

Bu siyahını böyük həvəslə davam etdirərdim, ancaq “iştaham” açıldı, gedib nəsə “yemək” lazımdır.

Sonda öz kitablarım haqqında oxuculardan birinin dediyi maraqlı bənzətməni paylaşmaq istəyərdim. O deyir ki, mənim 3 kitabım daha çox “kanape” kimidir. Xüsusi səliqə ilə və kiçik həcmlərdə dilim kimi üst-üstə düzülmüş məlumatlar bir çubuqla bərkidilib və sinidən götürülməsini gözləyir.

Bir nəfəsə oxunulan və ya yeyilən "kanape"lərim üçün sevinirəm.

Mədənizi çox işə salmadan sizi günün müəyyən hissəsinə qədər gümrah saxlayan bu əsərləri yapon aşpazları kimi düşünüb yazmışam.

Səliqə ilə tərtib edilmiş cümlələr və estetik görünüş nəticədə həm gözü, həm də mədəni oxşaya bilməlidir.

Ancaq unutmayaq ki, bəzən "oxumaqdan oruc tutmağa" keçid etməkdə bir xeyir var. İldə 60-70 kitablıq "yeyib-içmək" həcminizi keçməmisinizsə, sizə "oruc tutmaq" hələ tezdir. Yox əgər 200-500 arasında "yemək-içmək" varsa, o zaman bizim toylarda o ki var yeyib-içən insanlar sayaq durub rəqs etmək, hava almaq və masadan uzaqlaşmaq sizə faydalı olar. Yoxsa, bu gediş sizin üçün "sonuncu şam yeməyi" olar. (Da Vinçi, keç günahımdan!)

Əgər bura qədər oxumusunuzsa, demək, siz də yaman "yeyib-içən" adamlarsınız!

Sizin Dünya Kitab Gününüzü təbrik edirəm!

Sizə maraqlı gələn bənzətməni kod adı ilə yaza bilərsiniz!

Nuş olsun!

# 48/100

## İri daş parçası

Musiqi:
The best relaxing music – Relaxing Sitar

Atamın səhər tezdən durub gəzmək adəti var idi. Evimizin yanındakı meşəlik ərazidə gəzintiyə çıxmağı çox sevərdi. Saat, saat yarım gəzib qayıdardı. Hər dəfə qayıdanda özü ilə daş parçalarını gətirər və onlardan müxtəlif fiqurlar hazırlayardı. Evin müxtəlif yerlərini bu fiqurlarla bəzəməyi çox xoşlayardı.

Bir gün növbəti gəzintidən qayıdan atamın məni silkələməsiylə ayıldım. "Dur gəl, kömək elə, bir daş parçasını içəri salaq", – dedi. Ayağa qalxıb bağçamızın girişinə tərəf getdim. Girişdə duran nəhəng daş parçasını qucaqlayıb qaldırmağa çalışdım. Alınmadı. Daşı qaldırıb içəriyə qoymaq üçün bir neçə nəfər lazım oldu. Otağın içində dayanan bu iri daşa baxıb atamdan soruşdum:

– Biz bu daşı iki-üç nəfərə birtəhər qaldıra bildik, bəs sən bağçaya qədər təkbaşına necə gətirdin?

Atam gülümsəyib cavab verdi:

– Bu daşı gördüyüm gün o qədər xoşuma gəldi ki, mütləq evə aparmaq istədim. Təkbaşına qaldıra bilməzdim. Ancaq bir az cəhd elədim, gördüm, qabağa itələmək olur. Hər dəfə gəzintiyə çıxanda evə sarı azca

itələyirdim. Düz 2 ay sonra bağçanın girəcəyinə kimi itələyib gətirə bildim.

Atamdan səbirli olmağı belə öyrəndik.

(Məşhur hind aktyoru Amitab Baçanın müsahibəsindən).

# 49/100

## Bizə vəd olunan 9 bakirə kimdir?

Musiqi:
21 Return to Ithaca Odyssey Soundtrack

Bütün həyatını yaşayırsan ki, nəticədə sənə vəd olunan 9 bakirəni görmək şansını əldə edəsən. Yəni hər şey bu qədər bəsit və biolojidir? Cənnəti bu qədər ecazkar edən çaylar deyil, ağaclar deyil, bu 9 qızdır? Onların səsidir. Onların sənə baxıb təbəssüm etməsidir. Axı necə olur ki, biz kişilərin evini məhz bu 9 qız ilə yıxmaq planlaşdırılıb?

Bu dinlərin mətnini hansı axmaq qarışdırıb?

Bu söhbət hardan hara gətirilib?

Mən bu 9 qızı düşünəndə ağlıma aşağıdakı namizədlər gəlir:

1. Kleo
2. Yevterpa
3. Taliya
4. Melpomen
5. Terpiskora
6. Erato
7. Polimnia
8. Uraniya
9. Kalliopa

Bu qızlar qədim yunan tanrısı Zevsin qızlarıdır.

Zevs onlara ilahi güc verib. Ataları 9 qızını insanlar üçün ilham pərisinə çevirib.

Kleo tarix və salnamə ilahəsidir. Kleo yunanca "cəsarətli addımlar" deməkdir. Yevterpa da bacısından geri qalmayıb, bir sıra musiqi alətlərinin yaranmasına vəsilə olub. Nə vaxt baxsan, tütəklə musiqi ifa edib. Taliya komediyanın hamisi hesab edilir. Taliya adətən hamıya tanış olan bəyaz teatr maskasında gəzərmiş. Melpomen bacısının əksinə faciənin banisi və hamisi olub.

Terpiskora isə rəqs ilahəsidir. Nə zaman baxsan, rəqs etdiyini görə bilirsənmiş. Erato isə sevgi və romantik şeirlərin yaranmasının səbəbkarıdır. Polimnia cəbr və qrammatikanın əsasını qoyub. Bu gün oxunan bütün himnlərə görə bu qız cavabdehlik daşıyır.

Uraniya astronomiyanın qurucusu və dəlisidir. Ulduzlara baxmaq və onlardan həzz almaq ənənəsi onunla başlayıb. Kalliopa isə şahlara və şahzadələrə yoldaşlıq edərək hər zaman ədalətin bərqərar olmasını təmin edib. Kalliopa Odissey əsərini yaza bilmək üçün Homerə güc verən qızdır. Bu qız həmçinin natiqlik elminin protektorudur. Nitqi və qəhrəmanlıq şeirlərini çox sevir.

Bu nəfəs kəsən 9 qız minlərlə kişini və qadını yoldan çıxararaq onları əsas yola qaytara bilib. Yaradıcılıq yolunu nəzərdə tuturam. Bu 9 qız bütün rəssamların, yazıçıların, şairlərin, iş adamlarının, idmançıların, bir sözlə, tarixə düşmüş bütün simaların ilham pərisidir.

Bizə vəd edilən 9 bakirəni bəzən bu dünyada da görmək nəsib olur. Hər kəs onları görür, eşidir və ya onlar-

la təmasda olur. Ancaq əksəriyyətimiz buna bir o qədər də əhəmiyyət vermir. Çünki başımız qarışıqdır. Çünki biz vəd edilən cənnətə və orada bizi gözləyən 9 çılpaq qıza fokuslanırıq. Halbuki Zevsin qızları insan ruhunu çılpaq etmək və bu ruhun meyvələrini milyonlarla insana yedirtmək işində mahirdir. Bu qızlar ən gözəl qızlardır. Onların bir pıçıltısı, bir sözü, bir toxunuşu içimizdə olan dahiyə "Oyan!" deyir. Latıncada "dahi" sözü, yəni "genius" insan daxilində gizlənmiş ruhu ifadə edir.

Ey mənim dahilərim!

Ruhlarınızı cənnət gözləntisi ilə tələf etməyin!

Bu yazını oxuyarkən ətrafınıza diqqətlə baxın. Bəlkə də, Zevsin qızlarından biri indicə əlini sizin çiyninizə qoyub "Səni seçdim!" – deyir. Onların əlindən tutub arxalarınca gedin. Sizi çox gözəl yerlərə aparacaq. Beyninizin və ürəyinizin izdivacından yaranan əsrarəngiz yerlərə. O yerlərə ki, yazıçı ancaq qələmi, rəssam fırçası ilə təsəvvür edə bilir. O yerlərə ki, orada zaman və məkan anlayışı yoxdur.

Bu yazını oxuyan hər birinizi 9 ilham pərisiylə baş-başa qoyuram.

Onlarla danışın. Söhbətinizin nəticəsində bir "iş" yaransın!

Bu işlər ətrafınızda kərpic-kərpic cənnət köşkünü ucaltsın!

Son nöqtəni qoymuram... bunu sizə həvalə edirəm...

Son 3 ildə mənim daim yanımda olan Kalliopanın hüzuruna qayıdıram. Onunla birlikdə 4-cü səyahətimizə çıxmalıyıq.

# 50/100

## Standart vəziyyətlərə hazır olmaq lazımdır

Musiqi:
Eric B. – Rakim – “Don’t Sweat The Technique”

Futbolda standart vəziyyətləri nə üçün dönə-dönə məşq edirlər?

Ona görə ki, bir gün məhz həmin vəziyyətlərin yaranacağına inanırlar və onlara əvvəldən hazır olmaq istəyirlər.

“KVAN” kitabında “Motivasiya sizi bir yerə qədər aparar, ancaq vərdişlər sona qədər aparar” demişdim.

Nə qədər insan var ki, onların həyatında son dəqiqədə belə bir standart vəziyyət yaranır. Ancaq onlar “topun arxasında” dayanarkən: “Kaş vaxtında bu vuruşu məşq edəydim”, – deyir. Sonra dua edir. Sonra gözünü yumur və zərbə vurur. Şübhəsiz ki, bu cür topların milyonda biri “qol”a çevrilir.

Məhsullarınızı, xidmətlərinizi daha yaxşı satmaq istəyirsiniz? Standart vəziyyətləri məşq edin!

Daha yaxşı nitqə sahib olmaq və yazmaq istəyirsiniz?

Standart vəziyyətləri məşq edin!

İş görüşü və ya təqdimat olacaq?

Standart vəziyyətləri məşq edin!

O qədər məşq edin ki, “son dəqiqənin və təzyiqlərin ağırlığı altında belə” bədəniniz düzgün qərar versin.

Müdafiə olunmağa gəlincə isə hər birimiz gördük ki, ən gözəl müdafiə yenə də hücumdur. Müdafiə olunma insanın içində bir qorxu hissi yaradır. Bu hiss o qədər sehrlidir ki, özünü doğrultmağı çox sevir. Həyat öz qapısına qısılıb qalanları sevmir. Həyat fortunanı rəqib qapısında axtaranları sevir.

Əlbəttə ki, bütün bunlar xaricdə baş verə bilər.

Azərbaycanda standart vəziyyət yarana bilər. Hakimin “Vur!” deyən fit səsini eşidə bilərsən. Ancaq qarşında bir “top” olmayacaq. Sən də rəqib qapısına baxa-baxa qalacaqsan.

Bu məşq yazısı idi.

Fikir verməyin!

# 51/100

## Zehni azlıqda olmaq nə deməkdir?

Musiqi:
Duke Dumont "I Got U ft. Jax Jones"

Bir insan nə zaman "zehni azlıq" nümayəndəsinə çevrilir?

Gəlin simptomları birlikdə öyrənək:

1. Psixoloji və mənəvi çətinliklərlə üzləşəndə ("Necə bu qədər rahat ola bilirlər? Bunu necə bacarırlar?" suallarını tez-tez soruşmağa başlayanda).
2. Ətrafındakı insanların ona nə qədər yad olduğunu və bu "yadlaşma" prosesinin sürətlə böyüdüyünü hiss edəndə (Söhbət texnologiyadan deyil, fikirlərdə, dəyərlərdə, həyata baxışda özünü göstərən yadlıqdan gedir).
3. Daxili dünyanı zənginləşdirən, beynini qidalandıran diskussiyalar üçün adam tapmaqda çətinlik çəkəndə.
4. Klassik musiqini, klassik ədəbiyyatı hələ də sevməyə davam edəndə.
5. Maraqlı ideya və fikirlərin "qaynadığı" məkanları tapa bilməyəndə.

6. Mübahisə zamanı dialoqun mənasız olduğunu anlayıb susanda.
7. Kitab rəfini görərkən yaşadığın həzzə başqa bir alternativ tapa bilməyəndə.
8. Kütlənin kütləvi şəkildə küt edildiyini görə-görə azlıqda olduğunu fikirləşib mübarizəni mənasız sayanda.
9. Pula nəticə kimi deyil, vasitə kimi baxanda.
10. Şöhrət, hörmət, diqqət, güc, sevgi dilənməyəndə.
11. Tənhalığı sevməyə başlayanda.
12. Bayağı musiqi, sözlər, hərəkətləri görüb bədən və beyninin "avtomatı atanda".
13. Haray-həşirdən, səs-küydən, şəhərin qovhaqovlu mənasızlığından bir anlıq uzaqlaşıb vacib həqiqətləri sorğu-suala çəkəndə.
14. ________________

(Əlavə etmək istədiyiniz əlamət varsa yazın.)

Sizdə bu əlamətlərin hansı var?

Bu əlamətlər bizdə ola-ola yolumuza necə davam edək?

Bunun əlacı varmı?

# 52/100

## Eyfel qülləsini 70.000 dollara satmış ağdamlı kimdir?

Musiqi:
Oceans Eleven Soundtrack – Swat Team Exit

Bilmirəm.

Bircə onu bilirəm ki, bizdə "satmaq"dan sözü düşən kimi dərhal "ağdamlı" ağıla gəlir. Belə detalları bilmək kifayət edir ki, "balığı" tuta biləsən.

Balığa fransızlar "poisson" deyirlər. Yazımız elə məhz Fransada yaşamış "Andre Poisson" adlı iş adamı və ona Eyfeli satan Viktor Lyustiq haqqındadır.

Viktor bizim yerlimiz deyil. Buna baxmayaraq, satış menecerlərinə risk və satış barəsində iki vacib dərsi keçməyə hazırlaşır. Birinci dərs "əmin olmaqla" bağlıdır. Əmin olan insan böyük riskə gedə bilir. Dəmirdən yumurtaları olan kişilərə və qadınlara əcnəbilər "con artist", yəni "confidence artist" (əminlik üzrə sənətkar) deyir.

Onların yumurtaları dəmirdən olsa da, ürəklərində olan materialın qurbanına çevrilirlər. Eyni riski təkrar etməyə cəhd edirlər. "Risk" ilk dəfə ediləndə heyrət doğurur. Eyni riskli işə ikinci cəhd "axmaqlıq" kateqo-

riyasına düşür. 2-ci dərs də elə 2-ci dəfə təkrarlamaq cəhdiylə bağlıdır.

Öz məharətinə əmin olan Viktor 1925-ci ildə Parisə gəlib sadəcə bir qəzet məqaləsini oxuyub "Bunu bacararam" deyir. Viktor tərəvəz, maşın, elektro-texnika, sığorta və ya başqa bir şey deyil, birbaşa Eyfel qülləsini satmaq qərarına gəlir.

Viktor bir hoteldə biznemenləri gizli şəkildə toplayıb özünü nazirlik işçisi kimi qələmə verir. Eyfelin söküləcəyini və nazirliyin bu işi qısa müddətdə həyata keçirməli olduğunu deyir. Görüşə gələn "dəmirçi" biznesmenlərə sökülməli və alınmalı olan 7000 ton dəmir üçün tenderə girmək təklifi edilir. Hətta adamları maşınlara doldurub Eyfel ərazisinə aparıb gəzdirir. Orada təmir işləri ilə məşğul olan və Viktora daha çox inanan qurbanlardan biri seçilir. Andre Poissona təklif edilir ki, tenderdə qalib gəlmək üçün"nazirlik işçisi"nə rüşvət verilsin. Beləliklə, iki nəfər digər iş adamlarından xəbərsiz 70.000 dollarda razılaşır. Viktor "konverti" alan kimi Avstriyaya qaçır.

Nazirlik binasına gələn Poisson ona verilən müqavilə və qəbzləri göstərir. Ona gülürlər və belə bir məsələnin gündəmdə belə olmadığını deyirlər. Hər gün xəbər başlıqlarını yoxlayan Viktor düşünür ki, Poisson utandığından polisə xəbər verməyəcək və bu söhbəti bağlayacaq. İlin axırı buna əmin olan Viktor Parisə qayıdır və ikinci dəfə eyni "macəra"nı yaşamaq istəyir. Bu dəfə alınmır. İş adamlarından birinin şübhələndiyini görüb qaçmağa məcbur olur.

Amerikaya qaçan Viktor San Fransiskoda olan Alkatrasa (həbsxanaya) qədər gedib çıxa bilir.

"Əminlik üzrə sənətkar" rolunu o qədər "əmin" oynayır ki, hətta "Al Kapone" kimi qanqsterə 5000 ABŞ dolları ata bilir.

İllər sonra Viktorun ölüm şəhadətnaməsinə başqa ad və soyad yazılır. Ancaq onun peşəsi elə olduğu kimi qeyd edilir:

"Satış təmsilçisinin assistenti".

# 53/100

## Yeraltında 3 qadın

Musiqi:
Stromae – Formidable

Qatarın içində 2 sərnişinin arasında bir qadın oturmuşdu. Sərnişinlərdən biri günlərlə davam edən yuxusuzluğunu və yorğunluğunu qadının zərif çiynində birtəhər "qablaşdırmağa" çalışırdı.

Digər sərnişin isə tək deyildi. Qucağında körpə var idi. Körpə gah ayaqları, gah əlləri ilə qadına toxunub gülürdü. Anasının sözlərinə məhəl qoymadan bildiyini eləyib əməlli-başlı əylənirdi. Körpənin əyləndiyi qadın bu azmış kimi qarşısında dayanan gənc qızı da "həzm etməli" idi.

Bütün qatarın diqqəti həmin qızda idi. Qızın duruşundan və baxışlarından həyat eşqi yağırdı. İstidən bişən bütün qatar əhlinin ehtiyac duyduğu yaşamaq şövqü idi bu.

Gənc qıza gizlin-gizlin baxan qadın qarışıq hislər keçirirdi. Öz əvvəlki günlərini xatırlayırdı. Gümrah saçlarını və cavan bədənini yadına salırdı. Həmin günlər qaranlıq tunelin içində itirdi. Yerində yan oturacaqda oturmuş yuxusuz oğlanla əylənən körpə qalmışdı. Desertdə isə qıza baxıb heyifslənmək var idi.

Qadın özünü qismən yeyiləndən sonra soyuducuya qoyulmuş tort kimi hiss edirdi. Hələ yeyilməmiş halı və krem dolu vaxtları yadına düşdükcə özünü daha qəribə hiss edirdi. Şirinliyi qalsa da, qaşıqlanası vaxtı çoxdan keçmişdi. Hələ bircə qaşıq da dəyməmiş cavan qızı görmək ona daha ağır gəlirdi.

Qatar dayandı. Açılıb bağlanan qapılarla birgə "Miss Həyat Eşqi" də qatarı tərk etdi. Başını bir anlığa endirib qaldıran qadın bu dəfə qarşısında daha yaşlı bir qadını gördü. Heç düşünmədən ayağa qalxıb ona yer verdi. Bu dəfə yuxarıdan müşahidə etmə şansı var idi.

Yuxulu oğlanın üzündəki yorğunluq ona daha doğma gəlirdi. Əylənmək istəyən körpə ona daha şirin gəlirdi. Qarşısında oturmuş yaşlı qadının üzündəki qırışlar illərlə öyrənilmiş və səliqə ilə bir-birinin üstünə düzülmüş həyat dərslərinə bənzəyirdi.

Yaşlı qadının üz cizgilərinə ötüb keçən illərdən sonra həyatda heç nəyə əhəmiyyət verməməyin rahatlığı həkk olmuşdu. Bu rahatlıq həmin simaya baxanlara da hüzur bəxş edirdi.

Bu rahat çöhrə onun qəlbinə su səpdi. Qatardan rahatca düşdü. Yoluna rahat halda davam etdi. Həmin günü rahat hislərlə başa vurdu.

Evinə qayıtdıqda isə onu sürpriz gözləyirdi.

*Qeyd: 2. Hekayənin sonunda bir qadın qalacaq.*

# 54/100

## İkimizə də lazım olan ağ kağız parçası

Musiqi:
Ludovico Einaudi "Experience"

Hotelin klubuna daxil olanda qaranlıq dəhlizin sonundakı qırmızı işıq onun üstünə düşmüşdü. Gülüşlər, rəqslər və qədəhlərdən uzaqda, yaşlı müştərisinin qucağında oturmuşdu.

Bəlkə də, vaxtilə atasının qucağında oturan şipşirin və saf qız idi. Bəlkə də, nə vaxtsa, atasının o əmin-aman qucağını tərk etməyə məcbur olmuşdu. Bəlkə də, onun atası yox idi. Heç üzünü də görməmişdi.

"Bəlkə"lərimlə birgə masa arxasına keçdim.

Gözlərim hələ də onda idi. Yarıçılpaq idi, əynini gözlərimlə örtməyə çalışırdım. Örtə-örtə bədəninin nə qədər gözəl olduğunu görməyə belə macal tapmışdım.

Saçları qısa idi. Saçının ucları ömrü boyu qaçmağa fürsət tapmamış yarış atlarını andırırdı. Külək belə o saçları sığallamaq istəmirdi.

Bədəninə vurulmuş tatular aksiz markasına oxşayırdı. Sanki onu istifadə edən müştərilər özlərindən bir yadigar qalsın deyə bu markaları boş yerlərə yapışdırmışdı.

Ondan istifadə edirdilər. Onu mühakimə edirdilər. Onu mühakimə edənlər belə istifadə edirdi. O, lazımlı idi. Bu müvəqqəti lazımlılıq onu əbədiyyən “soyuq” etmişdi.

Bədəni mərmərdən idi. Soyuq, ancaq, eyni zamanda, zamanı donduran antik gözəllərin mərmərindən idi.

Gözləri qara quyuya oxşayırdı. Quyunun dibində kiçik tonqal yanırdı. Bəlkə də, məhz həmin tonqalın hesabına yaşayırdı.

Adəmdən öncə dünyaya gələn Həvva kimi idi. Səhvlərinin bir əhəmiyyəti qalmamışdı. Bu səhvləri kimin üçün edirdi?

Yola saldığı kişilərin təqribi sayını düşünürdüm. Onun freskasını çəkən hər bir “rəssamı” təsəvvürümdə canlandırmaq istəyirdim.

Bu rəssamları masanın üstünə səpələnmiş çörək qırıntıları kimi təmizləmək istəyirdim. Onun portretini yenidən çəkmək istəyirdim.

Ağ kağız parçasına həm onun, həm də özümün ehtiyacım var idi.

Mən yenidən çəkməli idim. O isə fərqli baxışları yenidən üzərində hiss etməli idi. Dəyərli olduğunu ona verilən 50-60 avro ilə deyil, məhz çılğın rəssamın gözlərində hiss etməli idi.

Uzaqdan onu gördüyümü hiss etdi.

Mənə baxdı. “Sən də hamı kimi bax və mühakimə et” deyirmiş kimi “tonqal”ını bir az da “alovlandırdı”.

Gözlərimi çəkmədiyimi görüb qoca müştərinin qucağından durdu. Mənə sarı gəlməyə başladı.

Ona həyat qadını deyirdilər. Kim bilir, neçə nəfərin həyatına elə məhz bu addımları ilə girmişdi.

Ancaq bu dəfə bu addımları məhz özünün həyatını dəyişdirəcəkdi.

# 55/100

## Bizə qalan portağal şirəsi olacaq

Musiqi:
Yiruma – River Flows in You (Piano)

Aralıq dənizinə baxan hotel lobbisində oturub Avstriyadan gəlmiş pianoçunun ifasında ruhumuzu uzaqlara aparan musiqi parçalarını dinləyirdik. Dinləyə-dinləyə böyük və yumşaq divanın içində yerimi rahatlayıb yenicə aldığım kitabın səhifələri ilə bir-bir tanış olurdum. Qarşımdakı masanın üstündə təzəcə sıxılmış portağal şirəsi dururdu. Günəş, dəniz, musiqi, kitab və portağal şirəsi... başqa nə lazımdır ki? Sualı soruşmağa peşman olub lazım olanların siyahısını beynimdən keçirməyə başladım. Əlimdə tutduğum kitabın maraqlı adı var idi. Kitab "Beynini gücə salma" deyirdi. Onsuz da, iki gün sonra "reallığa" geri dönəcəkdim.

Bəlkə də, bu dəqiqələri bir daha yaşamadım. Yanımda oturub pianoçunu maraqla dinləyən proqramçı dostum Nicata baxdım. Musiqinin ifasından çox ifaçının gülüşünə vurulmuşdu. Qadının üz cizgilərini və dərisini illər alıb aparmışdı. Ancaq yaşı gülüşünə toxunmamışdı. Sanki həmin qız uşağı idi və Avstriyada, həyət ev-

lərinin birində günorta vaxtı üzünə dəyən günəş şüalarının təsiri ilə daha da bərkdən gülür və oynayırdı. Bu qadın piano ilə birlikdə bizim ruhumuzla da oynayırdı. Reallıqla onun musiqisinin arasında qalmışdıq. Axırda o qalib gəldi. Müvəqqəti də olsa, bizi ovsunladı.

Bir neçə gün sonra bir millət vəkili kanallardan birinə çıxıb yaşı 60-ı ötmüş həmvətənlərini pensiya məsələsində ovsunlamağa çalışacaqdı.

"10 il vaxtınız olacaq, daha nə istəyirsiniz?" sualı ilə məni oyatdı.

Gecə vaxtı yuxuya gedə bilmədim. Adam haqlı idi. Üst-üstə yığsaq 10 il real həyat yaşaya bilərik. Özümüzə aid həyatı. Başqalarının istək və gözləntilərindən ibarət olmayan 10 il. Başqalarının söz və hərəkətlərindən ibarət olmayan 10 il. Yalnız bizim istək və xəyallarımıza aid illər barmaqla sayılacaq qədər az idi.

İlahinin ədalətində belə, kimliyindən asılı olmayaraq, hər kəs gec-tez öləcəkdi. Ancaq kimliyindən asılı olmayaraq, hər kəsə bu həyatı "yaşamaq haqqı" verilməmişdi.

P. Lafarqın sözləri ilə desək, tənbəllik haqqımdan istifadə etdiyimə görə sevinmişdim. Nə də olmasa, 60 yaşı adlamaq əksər Azərbaycan kişiləri üçün artıq nə elmi, nə də sosial səbəblərdən mümkün idi.

Bizə qalan elə bunlar olacaq... günəş, dəniz, musiqi, kitab və portağal şirəsi.

# 56/100

## Fələyin sevdiyi skamya

Musiqi:
Ludovico Einaudi – Divenire

Bakının özünəməxsusluğu ilə qaynayan küçələrindən birində Fələk adlı qadın hər gün eyni saatda, eyni dəqiqədə, hətta eyni saniyədə oturmağa adət etdiyi skamyaya əyləşdi. Ərini itirdikdən sonra bu doğma məhəlləyə gəlib skamyasına oturur, xatirələrdən ibarət "isti vanna"sını qəbul edirdi.

Məhəllənin qarşısında salınmış uşaq meydançasında gənc analar, orta yaşlı dayələr sağa-sola şütüyən uşaqlara hərdənbir "Yavaş olun" deyib mobil ekranlardakı dünyalarına qayıdırdı.

Fələk xanım uşaq səslərindən və uşaqlarla dolu mənzərədən həzz alırdı. Onların səsində, yorulmadan qaçmasında, tərli və təbəssümlü üz cizgilərində təsəlli tapa bilirdi. Arabir iri çantasından telefonunu çıxarır, zəng gələn nömrəyə sakitcə baxıb yerinə qoyurdu.

Bu vaxt uşaqların biri atılan topu tuta bilmədi. Top yavaş-yavaş diyirlənib Fələk xanımın ayağının yanında dayandı.

Uşaq yaşlı qadına yaxınlaşıb topu götürmək istədi.

Fələk xanım çantasını kənara qoyub topu əllərinə götürdü. Uşaq gözlərini ona zilləyib növbəti hərəkətini gözlədi.

Qadının üzündən qopan təbəssüm sanki illərin ondan aldığı cazibəni bir cəhddə geri qaytarmaq istəyirdi. Elə bu təbəssümlə də topu balaca Mələyə uzatdı.

Yaşıl-mavi rəngli top son illərini yaşayan qadının əlindən ömrün ilk illərinə qədəm basan kiçik qızın əlinə keçərkən bir müddət ortada qaldı.

Sanki yolun axırı yolun əvvəlinə baxıb nəsə demək istəyirdi. Ancaq kiçik qız uşağına nə deyib nə məsləhət vermək olardı ki?

Fələk xanım ona ürəyindəcə ürəkdən "Xoşbəxt olasan!" deyib barmaqlarını topdan çəkdi. Mələk sevincək halda dostlarının yanına qayıdıb oyuna davam etdi.

Oyun mütləq davam etməli idi.

Fələk xanım isə bu hadisədən 4 gün sonra həmin skamyanı, məhəlləni, şəhəri və ümumiyyətlə, ölkəni tərk edəcəkdi.

İllər sonra oğlunun qəlbini qırmayıb uzaq qərb ölkəsinə səfər edəcək və bu dəfə təyyarənin onun üçün tənzimlənmiş yeni oturacağında oturub ətrafındakı gənc insanların qəribə şəkildə qaynaşmasını seyr edəcəkdi.

# 57/100

## Tarixə imza atmış ilklər

Musiqi:
Hazy – Cosmos

Hərdən düşünürəm…

Əlinə daş götürüb qaya üstünə, mağara içinə şəkil çəkən və ya yazı yazan ilk insan kim olub?

Tapdığı yeməyi bişirməyə cəhd edən ilk insan kim olub?

Uçmağa cəhd edən ilk insan kim olub?

Kitab yazıb öz fikirlərini əbədi yaşatmağı düşünən ilk insan kim olub?

Vətənini tərk edib yeni torpaqlar kəşf etməyi düşünən ilk insan kim olub?

İlk metro, ilk kamera, ilk kompüter, ilk maşın, ilk dəfə kosmos üçün qaşınmaq…

Bu insanların ortaq cəhəti varmı?

Onların ilk olması sadəcə statistik bir təsadüf olub, yoxsa məhz onlar bu dünyaya görülməli işləri görmək üçün gəlib?

Belə insanlarla müqayisədə işlədiyini və yaşadığını düşünmək bir az çətin gəlir. Ancaq düşünmək istəyirsən ki, əgər onların dünyaya gəlişinin bir səbəbi varsa, sən də səbəbsiz doğulmamısan.

Bu səbəbi tapmadan və bu səbəbin ruhuna işləməsinə icazə vermədən getmək istəmirsən!

Sual: “Siz bir tarixi ilkə imza atmaq istəsəydiniz, bu nə olardı?”

# 58/100

## Qış fantaziyası

Musiqi:
1 Hour of Dark Winter Music & Gothic Music

Sobaya qoyulmuş odun parçalarının çırthaçırtına qulaq asırdı. Kənara çıxıb bacardıqca hündürə tullanmağa çalışan qızğın köz parçalarıyla evin damına və ətrafına sakitcə yağan qar dənələri yarışırdı. İri kreslosunda əyləşib, yenicə hazırladığı isti şokoladdan fasilələrlə qurtum ala-ala uzun müddət bu yarışı izlədi.

Daha sonra sobaya yaxınlaşıb odunların yerini bir qədər dəyişdi. İçəridən çıxan tüstünün hərarəti və közün iyi bədəninə hopdu. Üzü o qədər qızmışdı ki, evin qapısını açaraq çölə çıxmalı oldu. Səliqəylə salınmış kiçik bağçaya tərəf addımladı. Bağçanın düz ortasında dayandı.

Dərindən nəfəs alıb ağ rəngə boyanmış meşəyə baxdı.

Özünü çox rahat hiss edirdi. Əmin-amanlıqda idi. Uzun müddət eşitmədiyi səssizlikdən həzz alırdı. Sanki onu narahat edən bütün düşüncələrini "ezamiyyətə göndərmişdi". Sanki onların bir daha qayıtmayacağını hiss etmişdi. Sanki o bu anın gözəlliyini yaşasın deyə, soyuqla isti qarşılıqlı saziş imzalamışdı.

Tam nirvanaya çatacaqdı ki, meşənin qaranlıq yerində xırçıltı səsi eşidildi.

Artıq səssizlik dost deyil, düşmənə çevrilmişdi.

Dərhal qayıdıb evə girdi. Qapını bağlayıb pəncərələrdən ətrafa diqqətlə baxmağa başladı. Ov tüfəngini götürüb kreslosuna oturdu, qapıya fokuslandı.

Qapıdan bir qədər aralıda növbəti səsi eşidən kimi tüfəngi havaya qaldırdı.

Qapının arxasında bir nəfər dayanmışdı. Buna əmin idi.

Dolmanın kimə məxsus olduğuna əmin olan UNESCO rəsmiləri kimi əmin idi.

Qüdsün kimə məxsus olduğuna əmin olan Trump kimi əmin idi.

Ukrayna üçün nəyin daha yaxşı olacağına əmin olan Saakaşvili kimi əmin idi.

Qapı arxasında bir yox, iki nəfər dayanmışdı. Bunlar Vinkelvos əkizləri idi.

# 59/100

## Birnəfəsə nitqlərin hikməti

Video:
Good Will Hunting – Your Move Chief Scene

“Bir dəfə ailəmi götürüb həmin gölün yanına getdim. Həmin skamyada oturduq. Uşaqlarım bu skamyanın hekayəsindən xəbərsiz idi. Onlar yeni nəsildir. Heç biri bu filmə baxmayıb. Skamyada oturub qeyri-ixtiyari Robini xatırladım.

Filmin son səhnəsi çəkilirdi. Robin məsələni uzatmadan mənə baxıb çıxışını etdi. O danışarkən daxilimdəki səs “Bu səhnə partladacaq”, – dedi.

Birnəfəsə danışdı. Təkrar çəkilişə ehtiyac olmadı.

Robin danışanda bəzi səhnələrdə operatorlar özlərini saxlaya bilməyib gülür, kameranı tərpədirdilər”.

(Aktyor Met Deymonun müsahibəsindən)

Natiqlər silah anbarına bənzəyir.

Onların daxilində yaşanmış iztirab və mübarizələrdən ibarət qumbaralar gizlidir. Bu qumbaraların bir qismi səhnələrdə və auditoriyalarda partlayır. Ancaq anbarı təhlükəsiz şəkildə boşaltmaq mümkün olmur.

Bir gün gəlir və anbarın, anbardarın özü gedir.

Onun nitqlərinin sehrinə, təsirinə düşənlər isə bax beləcə həmin skamyaya həsrətlə baxmalı olur.

Bəzən illər sonra hansısa bir videoda onun monoloquna qulaq asıb kövrəlirsən.

Başa düşürsən ki, belə insanların bu planetə bir daha gəlmə ehtimalı gün keçdikcə azalır.

# 60/100

## Siqaret çəkən qadın

Musiqi:
Bryson Tiller "Right My Wrongs"

Mikrorayon binalarının eyvanları Aralıq dənizinə, Ontario gölünə və ya Alp dağlarına açılmır. Ən yaxşı halda digər mikrorayon binasını görmək mümkündür.

Bizə seçim etmək üçün onlarla pəncərə təqdim edilir.

Hər pəncərə bir ailənin həyatına və ya dramına açılır.

20 ildən çoxdur ki, fikrim ancaq bir pəncərədədir.

Həmin pəncərədə anam yaşında bir qadın dayanıb siqaret çəkir. Hər gün çəkir. Həmişə eyni vaxtda və eyni qətiyyətlə çəkir.

Çox kişinin siqaret çəkməyini görmüşəm. Ancaq heç biri bu qadın kimi çəkə bilmir. Barmaqlarının arasında sıxılan siqaretin fəryadını eşidə bilirəm. Közərtinin səsi və havaya uçuşan "“sabiq” siqaretin qığılcımları mikrorayon səmalarına yayılır.

Bu qadını ilk dəfə çəkməyə vadar edən səbəbi bilmirəm. Ancaq bu səbəbin onun həyatında nə qədər acı bir iz qoyduğunu hiss edirəm.

Uşaqlıq illərimdən bəri həftədə bir neçə dəfə onun eyvana çıxıb çəkməsinə tamaşa edirəm. Mənim üçün

vaxtı və keçən illəri saat göstərmir. Bunu saat əvəzinə məhz onun siqaret dənələri edir. Müntəzəm, sakit və fikirli halıyla növbəti giləni dodaqları arasında məhbusa çevirir. Nə barədə düşündüyünü bilmirəm. Bircə onu bilirəm ki, sabah yenə həmin eyvana çıxıb təxminən eyni vaxtda, gözlərinin qarşısında tüstüdən növbəti peyzajı çəkəcək.

Bəlkə də, həmin tüstüyə baxıb ruhən rahatlıq tapacağı yerə gedəcək. Bu rahatlıq üçün əzab çəkən ciyərinin belə ondan ötrü can yandırdığına əminəm.

Günlərim, illərim davam edir... Hərdən qeyri-ixtiyari eyvandan ətrafa baxanda onu görməyib sevinirəm. Düşünürəm ki, bu günü yaxşı keçib. Çəkməyə ehtiyacı qalmayıb. Ancaq bir müddət sonra onu qarşımda görürəm.

Bir qədər qocalsa da, duruşu dəyişməyib.

Neçə illərin əsgəri kimi hər gün döyüşdən sonra özü üçün fasilə edir. Mən də fasilə verirəm. Ona baxaraq mübarizə etməli olduğum günə hazırlaşıram.

Qəhər və kədər dolu anlar çox qəribə hislər yaradır.

Bu hisləri keyitmək üçün çəkmək və içmək istəyənlərdən biri ola bilmədim. Mən bu hislərimi hisə qoyuram. Rusların deyimi ilə hislərimi "kaptyorkaya" tapşırıram.

Bir də düşünürəm ki, mən çəksəm belə, bu qadın kimi "gözəl" alınmayacaq. Onu bu qədər içdən çəkməyə məcbur edən həyatı qınamıram.

Alp dağlarını, Ontario gölünü və Aralıq dənizini

əvəz edən bu tüstülü mənzərənin rəssamını – siqaret çəkən qadını başa düşməyə çalışıram.

Başa düşürəm ki, belə şeylər mənim başım üçün deyil.

Bir gün iki eyvanda dayanan iki yad insandan biri başını götürüb gedəcək.

Həmin günə neçə siqaret giləsi qalıb?

Bilmirəm.

# 61/100

# Andromedaya göndərilən məktub

Musiqi:
June Marieezy & Fkj – Amsterdam

Printerin içində sakit şəkildə uzanan A4 kağızlarından birini qamarlayıb masaya tərəf qaçdım. Nə bu kağız, nə bu masa mənə aiddir. Ancaq onların köməyi ilə özümə aid hissləri müəyyən etməyə çalışıram. Suallarım və şübhələrim var. Onları Andromedaya göndərmək istəyirəm.

Bu məktubu yazarkən ağlıma gələn ilk sual səninlə bağlıdır.

"Səninlə bağlı nə qərar verim?"

Artıq bir neçə ildir ki, bunu düşünürəm. Hər görüşümüzdə fikrimi daha çox qarışdırırsan. Daha çox dərinə getməli oluram. Keçilməz cəngəllikdə gəzirəm. Məni arxanca aparırsan. Bilərək və ya bilməyərək bunu edirsən.

Son görüşümüzdə parıldayırdın. Həyatın rəngləri üzünə qayıtmışdı. Səyahətlərindən, iş həyatından, gələcək planlarından danışırdın. Özümü hal-hazırda başına oyun açdığım A4 kimi hiss edirdim. Dinləmək xoşuma gəlirdi. Dediklərinin məğzini xoşlamasam da, danışanın

"sən" olması ürəyimə işləyirdi. Başına çox adam dolanırdı. Bu qədər diqqətə öyrəşməyin məni qorxudurdu. Çünki özümü sadəcə detallardan biri kimi hiss edirdim. Ucu-bucağı bilinməyən Andromedanın ulduz dənəciklərindən biri idim. Nə adım var idi, nə də dəyərim.

Ancaq mənimlə üzbəüz oturmuşdun. Mənimlə danışırdın. Mənə təbəssüm edirdin. Ya da, ümumiyyətlə, təbəssüm edirdin, hərdən mənə tuş gəlirdi.

Masaya oturub səni gözləmək, yoxsa masadan durub gedəcəyimiz anın gəlməsi... hansı daha ağır idi?

Paylaşdığın xatirələrin və xəbərlərin arasında qəribə bir fasilə verdin. "O mənə yenə yazıb", – dedin. "Görüşmək və münasibətimizi bərpa etmək istəyir", – dedin.

Sanki ürəyimə külüng endirdin, içimdə kilometrlərlə uzanan bir çat əmələ gəldi. Sakit və gülər üzlə "Sizin üçün sevindim," – dedim. Axı başqa nə deyə bilərdim?

Ürəyi başqa yerdə olan bir adama sənin ürəyin maraqlı deyilsə, bunun heç bir çarəsi yoxdur. A4 kağız və masa bunu mənə dəfələrlə izah etməyə çalışıb.

Başa düşməmişəm. Başa düşmək istəməmişəm.

Ürəyə söz keçirmək olmur. Bu orqan ancaq döyünməyi sevir. Və bəzən kimisi üçünsə həmişəkindən daha sürətlə döyünür, halbuki o döyündüyü kimsə onu dayandıra bilər.

Səni bir daha görməyimə sevinmişdim. Hiss edirdim ki, bu bizim son görüşlərimizdən olacaq.

Bu masada və bu A4-də bir məktub yazılır. Onu Andromedaya göndərirəm. İllər sonra sən həyət evində, yellənçəkdə oturub sağa-sola qaçışan uşaqlarına baxa-

caqsan. Onların sevinci səni sevindirəcək. Sonra əlinə mənim növbəti kitablarımdan birini götürəcəksən. İçində bu hissəni oxuyacaqsan. Andromedaya göndərilmiş məktub da ünvanına çatmış olacaq!

Özünəməxsus istiliklə və sevgiylə təbəssüm edəcəksən...

# 62/100

## Saudade – darıxan və sevən insanların sözü

Musiqi:
Chopin "Nocturne. 20 in C Sharp Minor"

*Saudade*. Bu sözü bu gün gördüm.

Mənasını bilməsəm də, bu qəribə kəlməni tələffüz etməyə çalışdım. Mənə maraqlı gəldi. Nə demək olduğunu öyrənmək istədim. Uzaq Portuqaliyaya kimi gedib çıxası oldum.

Sən demə, Saudade çox sevdiyin biri üçün və ya çox sevdiyin bir an üçün möhkəm darıxmaq hissidir. Həmin insanı və ya həmin anı qaytarmaq istəyini yaşadan hisdir. Portuqaliya sahillərindən okeanlara üz tutan, uzun səyahətlərə çıxıb evə bir daha qayıtmayan itkin düşmüş on minlərlə insanı yad etmək üçün də istifadə olunub.

Bu söz get-gedə mənə doğmalaşmağa başladı. Portuqal dilində danışmasam da, o dövrün insanlarını özümə çox yaxın hiss etdim.

Yaxınlarından həsrətlə xəbər gözləyən insanlardan danışanda "saudade" deyirlər. Qovuşmaq üçün fürsət axtaran və həmin günü səbrsizliklə gözləyən xəyalpərəstlərdən söz açanda da bu söz ağıla gəlir.

Bu sözü düşünəndə yadıma Şopen düşür. Portuqaliyadan Polşaya tərəf gedirəm. Gənc polyakın ürəyindən barmaqlarına, barmaqlarından pianoya səyahət edən musiqini hiss edirəm. Şopenin notlarında "Saudade" sözünü bütün çalarlarıyla hiss etmək mümkündür. Həyatının son illərində Jorj Sand ilə 10 illik münasibətlərinə son qoyması və ondan sonra musiqi sevdasının soyumağa başlamasını təsəvvür edirəm.

Bir insan, bir məkan, bir şəhər üçün darıxmaq nə deməkdir?

Həyat bu gənci Paris şəhərinə qədər aparıb çıxarır. Şan, şöhrət və ad Şopenin ürəyindəki Saudadeni dindirə bilmir. Ağır xəstəliklə boğuşur, sonda məğlub olur. Vəsiyyətində bir xahişi olur. Ürəyinin bədənindən çıxarılıb Varşavaya aparılmasını istəyir. Bədəni Parisdə torpağa tapşırılan Şopenin ürəyi Varşavaya gətirilir və orada basdırılır.

Saudade heç bir zaman yeri dolmayan bir boşluqdur. Boş yelləncəkdə yanımızda oturmasını istədiyimiz kəsdir. Birgə sevindiyimiz və gülümsədiyimiz andır.

Saudade qərib diyarlardan gələn, qəribə səslənən, ancaq doğma hisləri yaşadan sözlər silsiləsindəndir.

Bu yazını oxuduqdan sonra Şopendən bir parça dinləyin.

Qayıtmasını istədiyiniz, ancaq heç vaxt qayıtmayacaq bir insanı düşünün. Sonuncu not kimi düşünün. Əlvidanı ürəklə deməyə növbəti cəhdinizi edin. Alınmasa, darıxmayın. Əksinə, sevinin, çünki sizə belə bir insanı

tanımaq və sevmək nəsib olub... sizə onun üçün darıxmaq və onu, həqiqətən, sevmək kimi hissləri yaşamaq qismət olub.

Bu polyak bəstəkarın barmaqları məni çox uzaqlara aparmamış Bakıya, Sahil metrosuna qayıdıram.

# 63/100

## Sonuncu cümləmiz nə olacaq?

Musiqi:
Chopin – Nocturne. 20 in C Sharp Minor

Uşaqlıq xatirələrimin arxiv qovluqlarıyla dolu rəflərin arasında gəzərkən gözümə "ölüm xəbəri" qovluğu dəyir. Dayanıram. Həmin qovluğu əlimə götürüb dərin nəfəs alıram.

Uşaq nə zaman böyüməli olur?

Bu an nə zaman gəlir?

Hər iki valideynimin böyümə anını yadıma salıram.

Anamın öz anasının vəfat xəbərini telefonla eşidəndə yanında duran balaca Coşqun hələ bu acını tam dərk etmir.

Çarpayıda uzanıb anasının yoxluğuyla barışmalı olan anamın balışa tökülən göz yaşlarını görürəm. Onun içdən ağladığı bu anda yanında dayanıb "dözülməz olan ağır musiqini" dinləməli oluram.

Anamın atama zəng edib: "Evə gəl, atanın vəziyyəti yaxşı deyil", – dediyi günə qayıdıram. Özünü tələsik evə çatdıran atamın öz atasının yanına addımlamaqda necə çətinlik çəkdiyini görürəm. Anamın baxışlarından hər şeyin bitdiyini anlayan atam möhkəm dayanmağa çalışaraq babamın uzandığı çarpayıya yaxınlaşır.

Qapı bağlı olduğu üçün onları görmürəm.

Bizi otağa buraxmayan anamla birgə heç vaxt görmədiyimiz bir hönkürtü eşidirik. "Nə üçün gözləmədin?" cümləsini də xatırlayıram. Ola bilsin ki, səhv xatırlayıram. O gün mətbəxə keçirəm, bir çörək parçası qoparıb üstünə kotlet qoyuram. İştahasız olsam da, yeyirəm. Azacıq böyüyən Coşqun növbəti günlərdə yas mərasiminin qaçaqaçında ac qalmamaq üçün belə bir addımı atır.

Anamın da, atamın da necə böyüdüyünü görmüşəm. Belə bir günün mənim üçün də gəlib çatacağını anlamışam. Onların öz valideynlərinə demək istəyib, ancaq demədiklərini eşitmişəm. İllərlə hər ikisinə demək istədiyim o qədər söz olub ki... Ancaq onlarla sözlər qədər yaxşı rəftar etməmişəm. Düzdür, nailiyyətlərimlə fəxr ediblər, onlara nəvə sevincini də yaşatmışam. Bununla belə aysberqin heç 5%-ni belə göstərməmişəm. Hələ də uşaq olduğum üçün belədir.

Böyümək istəməyən bir uşaq kimi öz qorxularımı, öz şübhələrimi və öz xəyallarımı içimdə yaşayıram. Nə vaxtsa mənə də bir telefon zəngi gələ bilər. Mənə də eşitmək istəmədiyim xəbəri çatdıra bilərlər. Tam əksi də ola bilər. (Yaradan varsa, bu acını onlara yaşatmasın!)

Yazan insanların bütün orqanları xarab olur. Əsas da başları düzgün işləmir. Onlar düşünür ki, sözlərlə hər şeyi etmək mümkündür. Ancaq heç bir söz əməlin yerini vermir.

Zarafatcıl tərəfim kinayə ilə "Əməli belə sözlə qüvvətə mindirdin", – deyir.

Böyüməkdə olan tərəfim isə bu iki insanı çox sevdiyimi, həyat yoldaşımı çox sevdiyimi, uşaqlarımı çox sevdiyimi xatırladır. Qələmlə ailəmə xeyir verə bilmədiyimi düşünəndə iztirab çəkirəm. Usanmıram, ancaq hərdən utanıram. Bəzən xəyallarıma görə utanıram. Bütün ölkələrdə mümkün olan, bircə Azərbaycanda mümkünsüz görünən xəyallarıma görə... Ancaq yenə də usanmıram. Orqanlarımı bilmirəm, ancaq ayaqlarım hələ də gedir. Həmin günə tərəf addımlayır.

Bu yeraltı musiqi silsiləsinin səsi ölkənin bütün yerlərində eşidiləcək. Bu musiqiyə qulaq asanlara bir neçə sual vermək istəyirəm:

– Sonuncu cümləniz nə olacaq? Sevdiyiniz insanlara son olaraq nəyi deyəcəksiniz? Onların eşitməli olduğu həmin bir-iki söz hansıdır?

***

*Müəllifin qələmindən başqa nəyi var?*

*O qədər xatirə, hiss və fikirləri var ki, o qələm belə yazmaqda çətinlik çəkir.*

*Hara qədər açıb baxmaq mümkün olacaqsa, bunu edəcəyəm.*

*Musiqi harada dayanacaqsa, oraya qədər gedən yolum var...*

*Şəhadət gətirməzdən əvvəl rahatca "Yaşadığımı yaşadım, indi apara bilərsən" demək ümidi ilə ifa edirəm.*

*"Böyümək istəməsə də, böyüməli olan bütün uşaqlara" hörmətlə!*

# 64/100

## 1200 körpənin canına qıyan ata öz uşağını itirərsə, nə edər?

Musiqi:
Nicholas Britell “The Big Short Piano Suite”

23 may 2013-cü il.

ABŞ Konqresində nitq üçün söz Nyu Meksikonun Mərkəzi Xəstəxanasında çalışan Entoni Levantinoya verilir.

21 il həkimlik etmiş Entoni nitqinə ginekoloq kimi etdiyi abort əməliyyatlarının sayını açıqlamaqla başlayır.

“1200 dəfə abort əməliyyatı etmişəm”.

Entoni konqresmenlərə və auditoriyaya öz alətlərini və həmin alətlərin istifadə qaydalarını göstərir. Əməliyyat əsnasında uşaqların bədən hissələrini necə qopardığını və baş nahiyəsini necə əzdiyini izah edir. Onun nitqinə qulaq asanlar daxilən narahat olmağa başlayır.

Entoni ölümün körpə çalarını izah edir.

1200 körpənin həyatına son qoyan Entoni şəxsi həyatı ilə bağlı vacib bir məqamı paylaşmaq borcunu hiss edir. Elə bir məqam ki, onu belə əməliyyatlardan birdəfəlik daşındırıb.

Entoni və həyat yoldaşı uzun müddət uşaq sahibi ola

bilməyiblər. Sonda "ənənəvi" yoldan əllərini üzüb bir uşağı övladlığa götürüblər. Maraqlıdır ki, bu hadisədən 10 ay sonra cütlük dünyaya bir oğlan uşağı da gətirib.

Övladlığa götürdükləri qız uşağı (Heather) onlarla birgə 6 ilə yaxın yaşayıb.

6 yaşını qeyd etməyə az qalmış düz evlərinin qarşısında onu maşın vurub. Entoni qızını ambulans xəstəxanaya çatmamış qucağında itirib.

Bu hadisədən sonra Entoni uzun müddət həkimliyə fasilə verməli və özünü mənəvi cəhətdən toparlamalı olur.

Klinikaya qayıdandan sonra ilk abort əməliyyatında Entoni əlinə aləti götürüb uşağı ana bətnindən çıxaranda dayanmalı olub.

Konqres auditoriyası Levantinonun bu cümləsini də eşdir:

– Həkimlik karyeramda ilk dəfə idi ki, bu körpənin sadəcə ət yığını deyil, kiminsə qızı və ya oğlu olduğunu hiss etdim. Həmin gündən abort əməliyyatlarından imtina etdim.

Entoni Levantino o hadisədən bəri körpələrin həyatı uğrunda aktiv mübarizə aparır.

Mən isə hələ də insanlara belə mürəkkəb həyatı yaşadan "matrisa"ya heyran-heyran baxıram.

# 65/100

## “Braziliya” dediyi üçün peşman olan adamın göz yaşları

Musiqi:
Calvin Harris – Rollin (Official Audio)

Müxtəlif masalara yaxınlaşan və salamlaşan Markus Braziliyadan olduğunu deyən kimi hamı onun sözünü kəsib: “Braziliya!? Həmin oyun yadımızdan çıxmayıb! Yaman uduzmuşdunuz!” – deyirdi.

Əvvəl-əvvəl ürəklə “Braziliyadanam” deyən Markus artıq hardan olduğunu deməyə çəkinirdi. Elə bir an çatdı ki, Markus haradan gəldiyini demədən salamlaşmağa başladı. O deməsə də, çantasında və ya laptopunda olan Braziliya bayrağı “sirr”ini faş edirdi.

Markus futbolçu deyildi. Buna baxmayaraq, ən az Braziliya yığmasının futbolçuları qədər bu məğlubiyyətin altında əzilib qalmışdı. Üstündən 2 il keçməsinə baxmayaraq, həmin oyun bir çox braziliyalı üçün ən pis kabusdan betər idi.

Bu oyun “Biz 5 qat dünya çempionuyuq. Pelemiz var, Romario və ya Ronaldomuz var” kimi cümlələri “oyundan kənar vəziyyətdə” saxlayırdı.

Markusun üzündəki məyusluğu görürdüm. Gülüm-

səməyə çalışsa da, hər dəfə biz onu 2014-cü ilin iyul ayına qaytarırdıq. O həmin stadiondakı temperaturun təsiri ilə tərləməli olurdu.

Bəzən onun haradan olduğunu eşidənlər bir anlıq susub sanki həmin oyunu 1 dəqiqəlik sükutla yad edirdi. Səssizliyi məhz Markusun özü pozmalı olurdu.

2014-cü ildə həmin oyun keçiriləndə hava limanında idik. Binanın girişindən gömrük məntəqəsinə çatana kimi artıq 3 qol vurulmuşdu. Məntəqəni keçib təyyarəmizi gözləyəndə 4-cü qolu da gördük. Oskar bir qolun əvəzini çıxdı, ancaq vəziyyət o qədər ağır idi ki, hər bir oyunçu oyunun bitməsini səbirsizliklə gözləyirdi.

"Qozbelin" üstündə dayanan müqəddəs İsa belə oyunun nəticəsini görməmək üçün gözlərini bağlamaq istəyirdi.

Amazon meşələrindən amansız alman tankları keçmişdi.

Favellalarda yaşayan və Kopakabanada top qovan minlərlə uşaq hönkürtü ilə ağlayırdı. Sadə xalq həmin il dərdlərini az-çox unutduracaq qələbə üzünə həsrət qaldı.

2016-cı ilin avqustunda fələyin bu ölkəyə rəhmi gəldi. Olimpiya oyunlarının final qarşılaşmasında Braziliyanı yenə də Almaniya ilə oyun gözləyirdi.

Oyunun əsas vaxtı 1-1 hesabı ilə başa çatdı.

Penalti vuruşlarında bir qədər büdrəyən almanlar Neymara tarix yazmaq imkanı verdi.

Topun arxasında dayanıb qapıçıya baxan Neymarın nə

düşündüyünü bilmirəm. Onu bilirəm ki, həmin topun toru silkələməsini istəyən Markusların duaları onunla idi.

Dualar qəbul edildi. "Qozbeldə" dayanan İsa ona qucaqlarını açıb "Bizi bağışla!" deyən Neymarı, Braziliya millisini bağışladı.

Hiss olunurdu ki, həmin il görüşlərdə özünü təqdim edib "Braziliyadanam" deyən Markus da yığmasını bağışlamışdı.

2014-cü ildə axan göz yaşlarını 2016-cı ildə axan göz yaşları əvəz etmişdi.

# 66/100

## Bu hədiyyələri hansı ağılla almışdıq?

Musiqi:
"Seçimi siz edəcəksiniz" ( 3 )

Bapbalaca olanda, hələ ağlımız təzə kəsməyə başlayanda müşahidə elədik ki, xüsusi gün var imiş. Bu gündə anaya nəsə almaq lazım imiş. 3 qardaş birtəhər o vaxtın pulu ilə 1 şirvan yarım toplayıb düşdük Memar Əcəminin canına. Başladıq anamız üçün hədiyyə axtarmağa. Hələ Tağının yeraltı ticarət dünyasının fışqıran vaxtlarında yeraltı keçiddən bir dəst naxışlı stəkan aldıq. 6 stəkan. Qutunun içində səliqəylə düzülmüş qızılı naxışlı stəkanlar...

Pulumuzun 70%-i bu stəkan dəstinə getmişdi. Gül almalı idik. O vaxt nədənsə holland qızılgülünü seçdik. Bu qızılgül plasmasdan idi. Ətri yox idi. Amma biz üç uşaq düşünürdük ki, iki-üç günə solmayacaq, illərlə anamızın yanında olacaq. Bir sözlə, salafana bürünmüş stəkan dəsti və plasmas holland qızılgülüylə evimizin qapısına gəldik. Boyumuzun çatdığı yeri döyəcləməyə başladıq.

Anamız qapını açıb "Ay balam, hara getmişdiniz?"

sualını soruşmağa macal tapmamış hədiyyələri ona uzatdıq. Qadın gülümsədi. Sonra stəkanları görüb o ki var güldü. Sonra qızılgülü götürdü.

Sonra... detallara girməsək də, olar.

İllər sonra həmin qızılgülü onun şkafında görmüşdüm. Hədiyyələri alan uşaqlıq ağlımız üçün darıxmışdım. Həmin günə qayıtmaq və yenə eyni hədiyyələri alıb eyni həyəcanı yaşamaq istəyirdim.

İnsan böyüyəndə aldığı hədiyyələr dəyişir və brendləşir. Ancaq onların xüsusi hekayəsi olmur.

İndi siz deyin! Hansı hədiyyənin sizin üçün çox dəyərli bir keçmişi, bir hekayəsi var?

# 67/100

## Uşaqlarınızı müdafiə etmək istəyirsiniz?

Musiqi:
Mobb Deep – Shook Ones

Övladlarınızın saf və sadəlövh böyüməsinə imkan verməyin!

Qoy elə uşaqlıq illərindən bic, ikiüzlü, yaltaq, torbatikən, işverən, mədəniyyətsiz, şərəfsiz və vicdansız olmağı öyrənsinlər.

Televizor ekranlarında dəmir parçası üçün bir-birinə itin sözünü deyən xala və əmilərə baxa-baxa böyüsünlər. Nəyin bahasına olursa-olsun, qalib gəlməyin, əzməyin, məhv etməyin və tapdalamağın nə qədər vacib olduğunu anlasınlar.

Elə edin ki, uşaqlarınız üçün müqəddəs heç nə olmasın. Sadəcə şöhrət, pul və gücə sitayiş etsinlər. Bu üçü kimdə yoxdursa, onlardan uzaq dursunlar.

Elə edin ki, uşaqlarınız kitab oxumasın. Xəyal qurmaq istəkləri və ya bacarıqları olmasın. Kütbeyin olsunlar. Ziyalı olmasınlar. Ziyalı olmaq ziyanlı bir şeydir. Uşaqlarınızı daxilən məhv edən xəstəlikdir.

Qoyun, uşaqlarınız fiziki cəhətdən sağlam böyüsün.

Lap elə “qoyun” kimi böyüsünlər. Ətli olsunlar. Yunlu olsunlar. Bayramlıq olsunlar. Qoyun uşaqlarınız çirkab və ədalətsizlik dolu dünyanın qurbanı olsunlar.

Uşaqlarınıza yalan danışmağı öyrədin. O qədər yalan danışsın ki, bu onların həyat tərzinə və həyat fəlsəfəsinə çevrilsin.

Çalışın, uşaqlarınızın böyük hədəfi olmasın! Onların ən böyük sevinc mənbəyi məhz cümə günü axşam saat 6-dan sonrakı iki günün dadını çıxarmaq olsun.

Uşaqlarınızı vəhşi kimi yetişdirin. Çox səs-küy salsınlar. Sinif otağında, evdə, nəqliyyat vasitəsində heç kimə hörmət eləməsinlər. Ora-bura tüpürsünlər. Söyüş söysünlər. Harada gəldi və kiminlə gəldi dalaşsınlar.

Uşaqlarınızı müasir böyüdün. Texnologiya onlara deyil, onlar texnologiyaya xidmət etsinlər. Sosial şəbəkələrdə vaxt öldürməyi bacarsınlar.

Uşaqlarınıza kin və nifrəti öyrədin. Başqa uşaqlara nifrətlə baxmağı və daş götürüb atmağı öyrənsinlər.

Bütün bunları uşaqlarınıza öyrədin. Onların saf bir insan kimi böyüməsinə imkan verməyin. Öz uşaqlarınıza rəhminiz gəlsin. Başqa uşaqların arasında “yad” məxluqa çevirməyin. Ölkənin içində yaşaya-yaşaya özlərini mühacir hiss etməsinlər. Bu qədər tamahın, vicdansızlığın və insansızlığın içində çaş-baş qalmasınlar.

Onların gülüşlərindəki səmimiyyəti, baxışlarındakı istiliyi elə beşikdəcə söndürün. Bunu başqasına həvalə etməyin.

Uşaqlarınıza ancaq özünü və öz mənfəətini düşünmə-

yi öyrədin. Yıxılana balta çalmağı, köməsiz və möhtaclara biganə qalmağı öyrədin.

Bir uşağı zülm və qaranlıq dolu dünyadan müdafiə etmək üçün onu zalıma çevirmək lazımdır.

Bu yazı yazılanda minlərlə evdə on minlərlə uşaq döyüldü, söyüldü və xəyallarından məhrum edildi.

Bu yazı yazılarkən on minlərlə uşaq aclıq, səfalət və müharibə ucbatından böyüyə bilmədi.

Bu yazı yazılarkən nə qədər uşaq Vatikanın hansısa kilsəsinin rahibi, hansısa hörmətli bir ağsaqqal tərəfindən zorlandı.

Bu yazı yazılarkən nə qədər uşağa dilənmək, oğurlamaq, özünü partlatmaq öyrədildi.

Bu yazı yazılarkən barmaqlarımın qırılmasını istədim.

# 68/100

## Keçmişə məktub

Musiqi:
Zack Hemsey "The Way (Instrumental)"

Əziz keçmişim!

Elə bil sən heç cür keçə bilmirsən.

Hər dəfə yadıma salmalı və səndə cavablar axtarmalı oluram. Çoxdandır, sənə bir etiraf etmək istəyirəm. Sənin vaxtlarındakı özüm üçün darıxıram.

Uzun müddətdir, məni narahat edən bir fikir var.

Sevməyin nə olduğunu unutmuşam.

İnsanları görəndə həyəcan keçirmirəm. Onları sevmək üçün bir səbəb tapa bilmirəm. Gülümsəmirəm. Əvvəllər özümü gülümsəməyə məcbur etsəm də, indi sadəcə baxıram. Donuq üz ifadəmi görənlər reaksiyamı kəsdirə bilmir.

Yenə də hər ehtimala qarşı üzümə "gülümsəyib" keçirlər. Belə çıxır ki, onlar öz keçmişini unuda bilib. Ya da bunu daha yaxşı gizlətməyi bacarırlar.

Sevməyin nə olduğunu unutmuşam.

Sənin vaxtlarında keçirdiyim hislərdən əsər-əlamət qalmayıb.

Sanki bir filmin çəkilişi bitib. Bütün işçi heyəti çəki-

liş meydanını tərk edib. İşıqlar söndürülüb. Bircə avadanlıq və “mən” qalıb.

Əziz keçmişim, sənsiz qalmışam.

Bəzi dostlarım: “Gələcəyə bax”, bəziləri: “Bu günü yaşa” deyir.

Ancaq bu cümlələr məni yerimdən tərpətmir.

Sənin vaxtında həyat hələ qabaqda idi. Sənin vaxtında hər günü doyunca yaşayırdım. İndi isə doyunca yatıram. Yatıram ki, vaxtı hiss etməyim. Yatıram ki, bu halımı nə başqaları görsün, nə də özüm görüm.

Sənin vaxtlarında oyanmaq arzusu ilə yatıram. Hər yuxuyla sənə tərəf qaçıram. Bu marafonun nə zaman bitəcəyini bilmirəm.

Haradasan? İndi nə edirsən? İndi kimin keçmişi olmağa başlayırsan? İndi kimə sevməyi öyrədirsən?

İndi kimin həyatının ən gözəl anlar toplusuna çevrilirsən?

Bəlkə də, bir gün qayıdıb gələcəksən.

Səninlə oturub ürəkdən danışacağıq.

Birlikdə ürəkdən güləcəyik.

Birlikdə ortaq məxrəci tapıb yolumuza davam edəcəyik.

# 69/100

## Gözümə görünməyə başlamısan

Musiqi:
Calvin Harris “Rollin (Official audio)”

Eskolatordan çıxıb bir qədər getmişdim ki, səni gördüyümü sandım. Uzaqda gedənin paltarı və saçlarının rənginə aldandım. Aldanmaq istəyəni aldatmaq elə də çətin deyildi, bəlkə də.

Donub qaldım. Çox çəkmədi. Kütlə məni çıxışa tərəf sıxışdırıb çölə çıxardı.

İki dəfə həmin qıza baxdım. Yanılmaq istəyirdim. Gördüyümün sən olmasını istəyirdim. Çıxışdan sağ tərəfə gedib şəhəri mühasirəyə alan iri “toyuq hini”nin yanı ilə getməyə başladım.

Səsi çıxmayan “toyuq”ların yanı ilə gedə-gedə vaxtında səsimi çıxarmadığım üçün özümü danladım.

Bəzən şəhərin fərqli yerlərində gözümə görünürsən. Bir dəfə şlyapanı səhv salıram. Bir dəfə çiyinlərini.

Səhvlər…

Hər şey onlarla başlayır. Hər şey onlarla bitir.

Düzlər. Düz olan nədir ki?

Hər dövrdə biri peyda olub “Düz budur” deyir.

Hər dövrdə biri əvvəlki "düz demiş"i əvəzləyir.

Elə indicə şəhərin düz ortasında adını var gücümlə qışqırmaq istəyirəm.

Hansısa küçədə addımlarkən səsimi eşidib ayaq saxlayasan və geri dönəsən.

Qulağımda zümzümə edən musiqinin bitməməsini istəyirəm.

Yadıma sözlərin düşür. ""Mən"lə başlayan cümlələrin "biz"lə bitə bilməz".

Biz!?

Ağlıma gəlməzdi ki, məni bu söz məhv edəcək. Bu sözün üzündən gözümə yuxu girməyəcək.

Biz!?

Dünyaya gələn iki körpə. Təmiz körpə. Daha sonra aldığı məsləhətlərlə kirlənmiş iki gənc. İki insan.

Heç vaxt bir olmayan iki insan...

Bir dəfə səni, həqiqətən də, görmüşdüm.

İçimdə baş qaldıran həyəcandan çaşıb qalmışdım.

Qapının açılmasını gözləyirdin. Sanki arxadan gəldiyimi hiss edib döndün. Uzaqdan əl edib gülümsədin.

Bu sən idin.

Saçların, çiyinlərin... iri gözlərinlə mənə baxırdın.

İkimizi sadəcə bir maşın yolu ayırırdı. Sadəcə bir yol.

Yaxınlaşıb ürəyimdə olanları qulağına pıçıldaya bilmədim. Cəsarətim çatmadı. Həyatımda cəsarət və qorxunun yeri həmişə səhv düşüb.

Bəyaz paltarda, hündürdaban ayaqqabılarda necə də gözəl idin. Necə də gec idi artıq.

Bu gün də qışqırmaq əvəzinə, susuram, hayqırtımı içimdə boğmalayıram.

Şəhərin harasa tələsən mənasız səsinə təslim oluram.

Mən də sistemli mənasızlığı həyat sananlar kimi vacib addımlarla yoluma davam edirəm.

# 70/100

## Vitrinlər nə üçündür?

Musiqi:
Tom Day — Who We Want to Be

Toni brend saat mağazanın yanından fikirli keçəndə qapılar avtomatik açıldı. Bir anlıq duruxdu, girişin tən ortasında dayandığını anladı. Fikrlərini cəmləyib girişdən uzaqlaşmaq istədi. Toni və onun kimi milyonlarla insan belə yerlərə girib nəsə alacağını xəyalına belə gətirə bilmirdi. Ürəyini sıxan düşüncələrə yenisini əlavə etmək istəməyən Toni bir neçə addım geri çəkildi. Bu hərəkəti ilə qapıların bağlanmasını tezləşdirəcəkdi. Bu mağaza qapısı üzünə bağlanan qapılardan o qədər də vacib deyildi. Ən azından o belə düşünürdü. Qapılar təzəcə bağlanırdı ki, yenidən açıldı. Mağaza satıcılarından biri çölə çıxdı.

Satıcı qadın onu bütün bədən cigilərindən məhrum edən tünd rəngli xüsusi mağaza paltarını geyinmişdi. Qızılı rəngli isimliyinin üstünə qara hərflərlə Anna yazılmışdı. Annanın gözləri dolmuşdu. Uzun müddətdir ürəyində saxladığı bütün arı-acını harasa tökəcəkdi. Anna qapı qarşısında hönkürtü ilə ağlamamaq üçün özünü birtəhər saxlayıb tələm-tələsik Toninin yanından

keçdi. Pilləkənlərə tərəf tələsən qızın çiyni çaşqınlıqdan şalban kimi orada dayanan Toninin çiyninə dəydi. Üzünü qaldırıb ona baxan qızın nəsə deyəcəyini düşünən və bunu səbirsizliklə gözləyən Toninin istəyi ürəyində qaldı. Gözləri yaşla, beyni fikirlərlə dolu qız tələsik taksiyə minib uzaqlaşdı.

Brend mağazanın qarşısında çox dayanmağın qəribə yükünü çiynində hiss edən Toni indi də ürəyinə qor kimi düşən həsrətin yükünü daşımağa başlamışdı. Öz-özünə düşündü:

"Necə də gözəl və əlçatmaz görünürdü. Bu qız gözəlliyi ilə satdığı bütün dəyərli əşyalar kimi daim vitrində qalmağa layiqdir".

Həmin gün ikisi üçün də bitmişdi. Ancaq Toni dəfələrlə mağazanın yanından keçib Annanı qısa müddətlik də olsa, süzəcəkdi.

"Vitrinlər nə üçündür?"

"Görə bilirik, ancaq ala bilmirik. Yaxında dura bilirik, ancaq əlimizi vura bilmirik. O qapıların yanından nə üçün keçdim? Yoluma rahat davam edib həyatımı yaşayacaqdım. Girişdə dayanmasaydım, onu görməyəcəkdim. Çiyinlərimiz toqquşmayacaqdı. Saçlarının qoxusunu tərəddüdsüz içimə çəkməyəcəkdim. Əsl zərgər əlindən çıxmış firuzə daşlarına bənzər gözlərini mənə zilləməyəcəkdi. Danışmasını istəməyəcəkdim. Bu texnologiyaları və bu qapıları çıxaranın atabatasını..."

Düşüncələrini bitirməyə macal tapmayan Toninin çiyninə bu dəfə də bir nəfər dəydi. Geriyə çevrilən Toni

mağazanın qapıları boyda olan bir kişinin yolunu kəsdiyini gördü. Bu yekəpərin geyimi qara, təmiz, səliqəli və bahalı idi. Kostyum üstünə o qədər gözəl otururdu ki, acıyıb ləyənin kənarına can atan xəmirə bənzər boynu belə bu görüntünü poza bilməzdi. Telefon danışığını yarıda qoyub gənc Toniyə baxan kişinin gözlərində qəribə özündənrazılıq sezilirdi. Həyatı yağ içində böyrək kimi keçən kişi mağazaya, yəqin ki, özünə və ya növbəti yaxınına növbəti saatı almaq üçün gəlmişdi. Toninin 10 illik maaşını beş dəqiqədə hansısa saata xərcləyəcəkdi. Üstəlik, Annanın qarşısında oturub onunla söhbət də edəcəkdi. Belə də oldu.

Kişinin üz ifadələrindən hiss olunurdu ki, söhbət yalnız saatlardan getmir. Annanın üz mimikası ona atılan atmaca və zarafatlarla dəyişməyə başladı.

Toni Annanın bir neçə gün öncə niyə ağladığını anlamağa çalışırdı. Bu qızın heç kimə deyə bilmədiyi məqamlar olmalı idi. Bəlkə də, işdən qovulmamaq üçün susmalı idi. Həmin iş olmasa, yəqin ki, maddi problemlərinin öhdəsindən gələ bilməyəcəkdi. Beynində canlanan səhnələrin və gördüyü mənzərənin təsiri ilə Toni bu dəfə mağazaya girib, Annanı bu çıxılmaz vəziyyətdən qurtarmaq istədi.

Qapıya yaxınlaşmışdı ki, Toninin telefonuna zəng gəldi. Nömrəyə baxan cavan oğlan ikinci dəfə şalban kimi donub qaldı.

Ekrandakı telefon nömrəsi Tonini 2-3 addım deyil, 3 il əvvələ qaytaracaqdı.

– Salam. Bilirəm ki, sənə qətiyyən zəng etməyə haqqım yoxdur. Ancaq dözə bilmədim. Səninlə görüşmək və danışmaq istəyirəm. Alo. Toni. Nə üçün susursan?

Toni dodaqlarını “açıb-bağlaya” bilmədi. Çünki zənglə qapının açılması və Annanın 2-ci dəfə çölə çıxması üst-üstə düşdü.

Yenə də üz-üzə dayanmışdılar. Ancaq bu dəfə dəstəyin o biri ucunda üçüncü adam gözləyirdi.

Toni özünü iki çörək arasına qoyulmuş və çox yaxında yeyiləcək hamburger dilimi kimi hiss etdi.

Bu dəfə də həyat onu acgözlüklə yeyib bitirməyi düşünürdü.

Bu dəfə də onun bütün ümidləri yeməkdən qalan kağız paketlər kimi zibil qutusuna atılacaqdı.

# 71/100

## Tənhalığın iyi gəlir

Musiqi:
Lana Del Rey "Young and Beautiful"

Hündürmərtəbəli binanın blokundan dikdaban ayaqqabıların səsi gəlirdi. Həmin səs 229 nömrəli qapının önündə kəsildi. Estafet açarların şaqqıltısına ötürülmüşdü. İri çantanın içində açarları tapmağa çalışan sahibənin yorğun üzündə evə tez daxil olmaq istəyi sezilirdi. Bir müddət sonra dəhlizdə idi. Çanta kənara atılmışdı, açar isə asılı vəziyyətdə idi.

Gün ərzində yuxuya getmiş otaqlar yanan işıqlarla bərabər oyandı. Günün bütün yükünü çiynində gəzdirən dikdabanları zərif ayaqlarından azad etdi. Rahat nəfəs alan ayaqlar onu qonaq otağına apardı. Çox keçmədi ki, çiyinlərini də iş paltarından növbə ilə azad etdi.

Mətbəxdə çaydan və fincan onun yolunu gözləyirdi. Evdə olduğunu hiss etmək üçün suyun 5 dəqiqəyə qaynamasını gözləmək kifayət edəcəkdi. Elə də oldu.

Qaynar fincanı götürüb qonaq otağındakı rahat divana əyləşdi. Digər əlinə pultu götürüb televizora öz sözünü demək imkanını verdi. Ekranda həvəslə baxdığı komediya serialı gedirdi. Serialda edilən zarafatlardan

biri üzündə təbəssüm yaratdı. Əlindəki fincanı yerə qoydu. Ayaqlarını yerdən götürüb divanın üstünə bardaş qurdu.

Divandan bir qədər aralıda qucaqlanmaqdan bezmiş balış və vərəqlənməkdən yorulmuş sevgi romanı dururdu.

Nəhəng mənzilin qonaq otağından ekrandan yayılan gülüş səsləri, yenicə içilmiş çayın buxarı və yaşanan tənhalığın iyi gəlirdi.

# 72/100

## Musiqi notlarında gizlətdiyim məktub

Musiqi:
Lana Del Rey"Young and Beautiful"

Bu məktubu yazmadan öncə uzun müddət boş ekrana baxmışam. İlk sözü tapmaq həmişə çətin olur. Ancaq bir müddət sonra başlamalı olduğunu anlayıb ağlına gələn ilk sözləri beynindən klaviaturaya tərəf ötürürsən. Onların ekranda özlərini yerbəyer etməsini gördükcə içimdə müəyyən bir əminlik yaranır. Mən buna hətta axmaqlıq da deyərdim. Adama elə gəlir ki, bu cümlələrin əhəmiyyəti var. Elə sanırsan ki, onlar nəyisə dəyişə bilər.

Sənin öz ekranının qarşısında oturduğunu təsəvvür edirəm. Saçlarını daramamısan. Boynunu və barmaqlarını gizlədən uzunboğaz jaketini geyinmisən. Bir dizini yuxarı qaldırmısan. Əllərinlə həmin dizini qucaqlamısan. Bohema qablarının üstündə təsvir edilən antik və zərif çənən dizinin üstündə dincəlir.

Arabir özün boyda fincanından çay içib telefonuna gələn bildirişləri barmaqlayıb yola salırsan. Bilmirsən ki, növbədə bildiriş bu məktubla bağlıdır.

Üz ifadənin necə dəyişdiyini görmək istərdim. Ancaq hal-hazırda bu mümkün deyil. Ona görə də bütün ümidlərimi bu cümlələrə bağlamışam. Ümid edirəm ki, hal-hazırda onları oxuyarkən göz bəbəklərin böyüməyə başlayır. Ümid edirəm ki, mətbəxdən qaçıb öz otağında gizlənəcəksən. Orada bu məktubu gizlincə oxuyacağını ehtimal edirəm və ürəklə yazmalı olduğum sözləri "paraşütla" klaviaturanın üstünə göndərirəm. Onlar astaca yerə enərkən özümə gülməyim gəlir. Axmaqlıq etdiyimi, ancaq yenə də bunu etmək istədiyimi bilirəm.

Sənə yazmaqda məqsədim nədir?

Niyə səni, özümü sonu görünməyən yola tərəf aparmaq istəyirəm? Bəlkə də, buna cavab tapmaq üçün hələ də axmaqcasına yazıram. Bildiyim bir şey var. Sənin üzünə baxanda cavabın bütün detalları yerinə oturmağa başlayır. Musiqi notlarını eşidirəm. Lirik piano bəstəsi beynimi tərk etmir. Səninlə sağollaşmaq anı gələndə üzümdə süni ciddiyyət yaranır. Hər şeyi süni olan bu həyatımın təbii olan hislərimə qalib gəlməsinə icazə verirəm.

Səni ilk dəfə nə zaman gördüyümü xatırlamıram. İlk dəfə səninlə nə barəsində danışdığımızı belə xatırlamıram. Ancaq ilk dəfə içimdə nəyinsə dəyişdiyini anladığım günü və həmin gün yanımda dayanan səni çox yaxşı xatırlayıram.

Heç bir şey olmamış kimi yanında oturub sənə baxdığım anları xatırlayıram. Öz-özümə "Axı necə oldu?" deməyim də yadımdadır.

Axı necə oldu ki, çoxdan günəş görməyən ruhuma istilik gətirdin?

Axı necə oldu ki, səninlə gəzmək və danışmaq, sənin üzünü görə bilmək mənim üçün nəfəs almaq qədər vacibə çevrildi?

Axı necə oldu ki, sən yanımda olanda keçmişimə və cəmiyyətə üsyan etməyə başladım?

İndi bunun bir əhəmiyyəti varmı? Yəni bu suallara tapacağım cavablar məktubu oxuyan səndən daha əhəmiyyətli olacaqmı?

Bəlkə də, buraya qədər oxumamısan.

Hirsindən və ya həyəcanından ilk cümlədəcə məktubu görməmək üçün telefonu bir kənara atmısan. Bilirəm, hal-hazırda iri gözlərindən yaş axır. Tavana baxırsan. Elə mənim kimi, sən də çıxış yolunu yuxarıya baxmaqda görürsən. Ancaq çıxış yolunun çıxılmaz vəziyyətə düşməkdə olduğunu bilirsən. Bu məktub məni də, səni də həmin çıxılmaz vəziyyətə salır. Onu oxuduğun andan heç nə əvvəlki kimi olmayacaq. Bir-birimizin üzünə baxmalı olacağıq. Özünü saxlaya bilməyib təbəssüm edəcəksən. Ya da çox sərt danışıb bu məsələyə öz üslubunda son qoyacaqsan. Ancaq bunun xeyri olmayacaq. Çünki sən də beynində musiqi notlarını eşidəcəksən. Ürəyində qəribə cümlələr "ayaq açmağa" başlayacaq. Onları bir-bir "tutub" sıraya düzəcəksən.

Mənim ürəyimdə başlayan axmaq cümlələr sənin ürəyində bitəcək.

Ya bitməli olan yol və onun sonu kimi, ya da ümid qədər kiçik və əlacsız, ancaq yenə də yaşamaq istəyən çiçək kimi...

# 73/100

## Əlyazma, yazıçı və körpə

Musiqi:
In The End (Official Video) Linkin Park

Böyük həvəslə yazdığı əsərin əlyazmasını növbəti nəşriyyat evinin masasından götürməli oldu. Bu dəfə eşitdiyi "yox" sonuncu idi. Artıq qərar vermişdi. Bir daha heç bir nəşriyyatın qapısını döyməyəcəkdi. "Yəqin ki, dünya bu əsəri kəşf etməməliymiş", — deyib özünə təsəlli verdi.

Əlində əlyazma nəşriyyat ofisinin əsas qapısından çıxıb binanı tərk etdi. Bir qədər qarşıda ona sarı addımlayan sarışının baxışlarına tuş gəldi. Qadının isti təbəssümü onu daha da məyus etdi. "Yəqin, mənim uğurlu bir yazar olduğumu düşünür. Məşhur və çox oxunan yazarlardan olduğumu sanır. Ancaq mənim, əslində, kim olduğumu və ya kim ola bilməyəcəyimi xəyalına belə gətirmir".

Öz fikirlərinin musiqi sədaları altında yolu keçməyə hazırlaşan "uğursuz yazar" geriyə dönüb arxada qoyduğu sarışına bir daha baxdı. "Nə üçün bəxtim də yanımdan keçib bu qədər isti təbəssüm bağışlaya bilmir?" – deyə soruşdu öz-özündən.

Üzünü geri çevirəndə qarşı tərəfdə dayanmış başqa bir qadını və uşaq arabasını gördü. Qadının başı telefona qarışmışdı. Uşaq arabasında oturan körpə də yazara məsum təbəssümünü bəxş etdi.

İşıqforun vaxtı tam bitməmiş telefonda kiməsə və ya nəyəsə əsəbiləşən ana qeyri-ixtiyari əlini arabadan çəkdi. Yazarın gözü qabağında araba yolun ortasına tərəf hərəkət etməyə başladı. Arabanın içində gülümsəyən körpə dünyadan xəbərsiz müəllifə tərəf gəlirdi. Ancaq yolboyu şığıyan maşınların sürəti vaxtında dayanmağa kifayət etməyəcəkdi. Müəllif əlində tutduğu əlyazmanı yerə qoymaq istəmirdi. Küskün olsa da, bir daha cəhd etməyi fikirləşməsə də, həmin kağız topası onun üçün müqəddəs idi. Onlara ömrünün neçə ayını fəda etmişdi. Körpəsini 9 ay bətnində gəzdirən analar kimi o da bu əsəri 9 aya ərsəyə gətirmişdi. Həyati seçimi etməkdə və uşağa tərəf qaçmaqda tərəddüd edirdi.

Uzaqdan gələn maşınların siqnalı onu ayıltdı. Qəfil kağız parçalarını yerə tullayıb yola tərəf qaçdı. Telefon danışığından sonra özünə "qayıdan" ananın qışqırıq səsləri, maşınların siqnalı və yolun ortasına qaçan yazarın ürək döyüntüləri bir-birinə qarışdı.

Körpənin arabasını geriyə itələsə də, özü yoldan çıxa bilmədi. Ona tərəf sürətlə gələn maşına baxan gözləri qeyri-ixtiyarı əlyazmanı qoyduğu yerə zilləndi. Xəfif külək artıq bir neçə səhifəni havaya qaldırmışdı.

Bunu görən müəllif kinayə dolu gülüşləriylə havada uçuşan səhifələrinə qoşuldu.

# 74/100

## Gözləyənlər və darıxanlar üçün yazı

Musiqi:
H.E.R – Avenue

Sözlər sənsizliyin nə qədər acı olduğunu izah etməkdə acizdir.

Bu cümlə sadəcə cəhdimdir. İzah etmək cəhdim deyil, rahatlıq tapmaq cəhdimdir.

Hər söz yazıldıqca içimdəki ağrının bir parçasını kənara çıxarır. Hər cümlə bu ağrının nə qədər dərin olduğunu hiss etdirəcək qədər uzundur.

Bəli, tənhayam. Yaradanın özü kimi tənhayam.

Bəzən ürəyimizdə Ondan bizi nə üçün yaratdığını soruşuruq. "Əlbəttə ki, ibadət etmək üçün!" – deyir. Halbuki nə qədər tənha olduğunu gizlədə bilmir. Bəlkə də, bizi tək olduğu üçün, canı sıxıldığı üçün xəlq edib. Sonsuz kainatlardan daha böyük məkanlarda təkbaşına var olması bizi yaratmasına gətirib çıxarıb. Varlığını özündən başqa kiminsə hiss etməsini, dərk etməsini istəyib. Əvvəl mələklərlə yoxlayıb, ancaq onlarla alınmayıb. Sonda çıxış yolunu bizi yaratmaqda görüb.

Kainat nə üçün bu qədər mükəmməldir?

Bu suala cavab vermək üçün hansısa evə qonaq getmək və həmin evin balaca uşağı ilə ünsiyyətdə olmaq lazımdır. Qonağın gəlişinə o qədər sevinir ki, bütün oyuncaqlarını və əşyaları gətirib onun önünə düzməyə başlayır. Sonra da qonağın düz yanında böyük bir fəxarət hissi ilə oturur. Uşağın gülən üzündə qarışıq sevinc hisləri birləşir. Uşaq görə və göstərə bildiyi üçün sevinir.

Planetləri və ulduzları gördükcə Onun sevincinə səbəb oluruq. Başımızı qaldırıb səmaya baxanda bizim önümüzə sərilən oyuncaqları görürük. Hər şeyin bu qədər mükəmməl və səliqəli olması tənhalığının təzahürüdür. Ağ kağızı bəzəyən bu cümlələrin ahəng və səliqəsi səni aldatmasın. Hal-hazırda özümü sonda qoyulan nöqtə kimi hiss edirəm. Hərflərdən ibarət söz, sözlərdən ibarət cümlə kimi ola bilməyən nöqtəyəm. Hamısı məndən əvvəl gəlir. Hamısından uzaqda dayanmalı oluram.

Məni səndən ayrı və uzaqda dayanmağa məhkum etdin. Birgə atdığımız addımları xatırlayıram. Bir-birimizin üzünə səssizcə baxdığımız anları xatırlayıram. İndi səssizcə yazdığım cümlələrə baxmaqla kifayətlənməli oluram.

“Səni uzaqdan sevmək nə qədər gözəldir!” demişdin.

Bu cümlənlə məni səmadakı ulduzlardan birinə çevirdin. Çox böyüdüm. O qədər böyüdüm ki, kilometrlərlə uzaqdan görə bilərsən. Ancaq yanında dayanan başqasının əlini tutub barmağını səmaya qaldırmasını

görmək də nəsib oldu. “Bu gördüyün ulduza sənin adını verirəm” cümləsini də eşitməli oldum.

Yanında dayanan başqası, uzaqda yanan ulduzdan daha yaxındır indi.

Zarafatların üçün darıxıram. Dirsəyini tutduğum həmin gün üçün darıxıram. İpək köynəyinin intibah dövrünə aid dərinlə yaratdığı vəhdət üçün burnumun ucu göynəyir.

Çətin günündə yanında ola bilmədim. Buna görə də yaxşı günlərini mənimlə paylaşmırsan.

Əslində, hamımız beləyik.

Çətinə düşən kimi dua edirik. Dua edirik ki, eşidib bizə kömək etsin. O isə bizim sevgimizə susadığı üçün dualarımıza uzun-uzadı qulaq asmağa başlayır. Qulaq asdıqca bizi daha çox eşitmək istəyir. Ancaq işlər gözlədiyi kimi getmir. Sonda səsimiz kəsilir.

Bizi eşitmək üçün daha çox çətinə salır. Səsimiz çıxmır. Nə ölən kimi ölürük, nə də danışan kimi danışırıq. Bizi yaradarkən bir məqamı nəzərdən qaçırdığını anlayır. Anlayır ki, bizi özündən bir hissə ayırmaqla yaradıb. Anlayır ki, biz onun kiçik özüyük. Onun qədər güclü olan özüyük. Həris/iddialı və əlacsız olmaq bizi daha güclü etməyə başlayır. Bu güclə yaradırıq, ya da məhv edirik. Onun yaratdığı dünyada öz gücümüzlə yaşaya biləcəyimizə inanmağa başlayırıq. Nəticədə, bizim üçün yaratdığı dünyanı tərk etmədən ondan uzaqlaşmağa başlayırıq.

Sən də belə etdin.

Şəhərimizi tərk etmədin. Məni tərk etdin.

# 75/100

## Olar ki, beynimdən çıxasan bu gün?

Musiqi:
H.E.R – Avenue

Olar ki, beynimdən çıxasan bu gün?
Azacıq dincəlsin, neyron yığınım?
Olar ki, olmasın olmalı olan?
Otaq sənsiz qalsın, təkcə mən olum.

Günəş şüasıyla ifşa edilib
Dinməzcə yerlərə düşən toz olum…

Olar ki, yanımda gəzməsin əksin?
Sual soruşmasın, söz danışmasın,
Hər dəfə baxanda özgə birinə?
“Bu odur” düşünüb göz karıxmasın.

Olar ki, gedəsən çox uzaqlara?
Marsa, Venereya, nə bilim, aya.
Uçasan, izindən bir iz qalmasın,
Rahat uç, arxada gözün qalmasın.

Otaq ortasında, masa başında,
Otursun Əzrail, otursun Şeytan,
Domino oynayım hər ikisiylə,
“Balıq!” qışqıraraq çırpım son daşı,
Nəhayət, ödəşim hər ikisiylə.

Görürsən, necə də ahəngsiz çıxdı,
Mənasız, qaydasız, məntiqsiz çıxdı,
Rəzil-rüsvay oldum, sərraf içində,
Çünki sözlər dolu, “SƏN” boş içimdə…

Xəyyam da deyir ki, dur bir içimdə,
Mənimtək içməmiş dəm olanların,
Meyiddən beşbətər can sağlığına…

# 76/100

## O, günəşə bənzəyirdi

Musiqi:
Shakka – When Will I See You Again

Saçları okean suları geriyə çəkilərkən onları yola salan tropik sahillərin qumu rəngində idi. Saç kənarlarında kiçik spirallar var idi. Uşaq olanda daş sobaların üstündə gördüyüm spirallara bənzəməsə də, ürəyimə onlar qədər hərarət sala bilirdi.

Həyatı yenicə öyrənən körpə kimi həmin tellərə toxunmaq, onları əlimdə tutmaq istəyirdim. Elə həmin körpə kimi də bunun nə qədər təhlükəli olduğunu dərk edə bilmirdim.

Ətrafında daim pərvaz edən kişilər var idi.

Bu kişilər günəşin ətrafında dönən planetlərdən fərqli olaraq, öz sırasını və yerini bilmirdi. Onları anlayırdım. Onlara acıyırdım.

Çünki onlar nə qədər yanacaqlarını belə təsəvvür etmirdi. Onu əldə etmək üçün yaşadıqları yanğı o əldə ediləndən sonrakı yanğının yanında sadəcə zarafat idi.

Günəşi əldə etmək mümkün idimi?

Onu necəsə ram etmək mümkün idimi?

Özümü bu qədər "planet"in içində Yer kürəsi kimi

hiss edirdim. Ona yaxın olmaq mənim üçün həyat demək idi. İçimdə olan düşüncə və hislərimi yalnız o, canlı saxlaya bilirdi. Bunu açıq-aydın görə bilirdim. Ancaq unudurdum. Əslində, nə qədər uzaqda olduğunu və ona yaxınlaşmaq üçün neçə işıq ilinə ehtiyac duyduğumu unudurdum.

Məndən aralıda olması həm onun üçün, həm də mənim üçün həyati əhəmiyyət kəsb edirdi. Çünki yaxınlıq ikimizdən birini və ya ikimizi də məhv edəcəkdi.

Kənar təhlükələrdən qorunmaq üçün illərlə ətrafımda ozon qatı formalaşdırmışdım. Ancaq hiss edirdim ki, hər baxışı ilə müdafiə divarımı yarır. Nədənsə bu divarın məhv edilməsinə sevinirdim.

Ozon qatımı tərk edib uzaqlara uça bilərdim.

Uçub ilk öncə aya enə bilərdim. Çiyinləri ayın kəşf edilməmiş vadiləri kimi cazibədar idi. İlk öncə onlara toxunmaq istəyirdim. Barmaqlarımla bir ömür boyu onların üzərində gəzə bilərdim. Boynunun dərisi ayın torpağı kimi əlçatmaz idi. Dodaqlarım bayraq sancaraq sevincindən tullana-tullana gəzən kosmonavt Armstronqun ayaq izlərinə bənzəməyə hazır idi.

Dünyaya və həyata olan baxışı günəş şüaları kimi aydın idi.

Sözləri günəş şüaları kimi isti idi. Soyuq və biganə ürəyimə yol tapan sözləri ilə isinməyə başlamışdım.

Hərəkətləri günəşin səthində baş verən partlayışlara bənzəyirdi.

Nə zaman harada nə edəcəyi bəlli deyildi.

Hər an əhval-ruhiyyəsi dəyişə bilirdi. Ancaq ruhunun ümumi əhvalı hər zaman eyni qalırdı.

Bu dünyaya ətrafına həyat və istilik vermək üçün gəlmişdi. İnsanları çox sevirdi. İnsanlara çox inanırdı. İnanmaq istəyirdi. İstisinin nəyisə dəyişəcəyinə inanmaq istəyirdi.

Ondan sadəcə bir addım aralıda dayanmışdım. Səssiz-səmirsiz tərəddüdlərimlə vuruşurdum. Saçları burnuma dəyirdi. Boynu dodaqlarıma, çiyinləri əllərimə çox yaxın idi. Baş verənlərdən xəbərsiz idi. Yenə adəti üzrə gördüyü işlərin hesabatını verirdi.

Özümü vitrinin digər tərəfində dadlı tort görən, ancaq vitrin şüşələri ucbatından həmin torta toxuna bilməyən uşaq kimi hiss edirdim.

“Həyatdan hər zaman ən yaxşısını istəməlisən!” – demişdi.

Ətrafımı çevrələyən ozon qatı təmiz itmişdi. Qarşısında dayanıb ona baxırdım. Ömrümün bu çağınadək rastıma çıxan ən yaxşıya baxırdım.

Baxmaqla kifayətlənmək qədər ağır heç nə yox idi.

Hər ikimizi yaralasa da, vitrini sındırıb onu qucaqlamaq üzrə idim.

# 77/100

## İstedad hədiyyədir. Götür və naz eləmə!

Musiqi:
The Last Samurai – A Way of Life

Anadolu liseyində oxuyan vaxtlarımda bizim evə müəmmalı bir zəng gəldi. Atam dəstəyi qaldırdı, "Bəli, bu ünvanda yaşayır, mənim oğlumdur", – dedi. Bir qədər sonra eşitdikləri atamın üzündə təbəssüm yaratdı. Sən demə, mənim adımı "Xüsusi İstedadlar Ensiklopediyası"na salmaq istəyiblər. Sevincimiz çox çəkmədi. Sonra öyrəndik ki, bu ensiklopediyaya düşmək üçün 20 şirvan lazım imiş (Məbləği tam xatırlamıram). Evdə bu pulu verməyə imkan yox idi. Atam babama dedi. Babam çox fikirləşdi. O qədər çox ki, imtina edəsi olduq.

İstedad yeganə xüsusiyyətdir ki, dünyanın heç bir puluna onu əldə etmək olmur. Həmin gün atamla birgə susduq. Ancaq 2016-cı ildə ilk kitabımı çap etdirdim. Bu yazını oxuyan sizlərin dəstəyi ilə bunu etdim! Atamın xəbəri yox idi ki, həvəslə oxuduğu Brayan Treysi belə onun oğlunun yazdığı kitabı dünyaya məsləhət görür. Çap edilmiş kitabımı rəfimizə qoyanda həyatımın ən güclü "KVAN"-larından birini yaşamışdım. Həmin il nə

ata, nə də bala bilirdik ki, neçə insanın həyatı dəyişəcək, neçə unudulmuş xəyal yenidən yada düşəcək, neçə ürək yenidən həyəcanla döyünəcək.

Bu kitabı istedadlı olan, ancaq tənbəllik edən insanlar üçün yazmışdım. 2 il sonra bu insanların həyat hekayələriylə bağlı məktubları və mesajları alanda həmin ensiklopediya yadıma düşür. Əslində, həmin zəng mənə hələ də çox müəmmalı gəlir. "Ölü ozanlar dərnəyi"ndə "Tanrının sizə telefon zəngi var" cümləsini xatırlayıram. Bəlkə də, bu bir işarə idi. "Hazırlaş, qarşıda hələ çox iş var" deyən bir işarə.

Pressfild deyir ki, istedad sənə verilən hədiyyədir. Çalış, bu hədiyyəni layiqincə qiymətləndir! Yazmalısansa, yaz! Naz eləmə!

# 78/100

## Bu dünyada ədalət varmı?

Musiqi:
The Last Samurai – A Way of Life

Bu barədə müxtəlif fikirlər var. Ədiblərdən biri deyir:

“Ədalətsizlik yağan yağışa bənzəyir. Yağışın səninlə qərəzi yoxdur. Təkcə səni islatmağa çalışmır. Yağış hər yerə yağır və nəticədə sən də yaş olursan”.

Alternativ olaraq bolluq və rifahla bağlı da belə bir fikir eşitmişəm:

“İnsan həyatını dəyişəcək fürsətlər yağan yağışa bənzəyir. Bəziləri bu yağış sularının altına qaşıq, bəziləri fincan, bəziləri isə vedrə qoyur. Hətta elələri var ki, quyu qazır. Yəni yağış hər kəs üçün yağır, ancaq hər kəs bunun fərqinə varacaq qədər islanmır. Çünki düşüncələrdən ibarət çətirlər buna mane olur”.

Ürəkdən islanan və yağışdan qorxmayan bütün cəsur insanlara hörmətlə...

# 79/100

## Nəhəng şəhərlərə nəhəng ürəklər lazımdır

Musiqi:
XX intro

Dünən gecə Nyu Yorkdan mesaj gəldi. Mesajı Nurlan adlı gənc göndərib. Nurlanla həyatım boyu bir dəfə də üz-üzə gəlməmişəm. Daha öncə heç bir tanışlığımız olmayıb. Bizi “KVAN” tanış edib. Zaqatalanın Çökəkoba kəndindən Bakıya tərəf yol alan Nurlana bu kitabı tanışı məsləhət görüb. O da oxuyub. Sonra isə onun həyatında Amerika səhifəsi açılıb.

ABŞ-da yaşadığı 8-ci ayda Nurlan mənə mesaj yazıb “KVAN”-la bağlı əməkdaşlıq təklif etdi. Kitabın elektron versiyasının ingilis dilinə tərcüməsi, redaktəsi və “Amazon”a yerləşdirilməsi işində birbaşa dəstək oldu. Amerikaya “KVAN”la meydan oxumaq üçün ilk şəhər kimi Nyu Yorku seçdi.

Nurlan və mən bundan əvvəl xaricə kitab satmamışıq. “KVAN”ı Nyu York Tayms bestselleri etmək ideyası ikimizə də çox normal gəldi. Əlbəttə ki, maliyyə və PR mexanizmi olmayan kitab yolu daha gec qət edir. Əlbəttə ki, çoxlu səhvlər etmişik və edəcəyik. Bəlkə də,

bu iş uğurlu olmayacaq. Bu nə mənim, nə də Nurlanın vecinədir. Biz həyata peşman olmaq üçün gəlməmişik! Nurlan kimi insanlar mənim üçün "İnternet nə deməkdir?" sualının ən gözəl cavablarından biridir. Xəyalımız nəhəngdirsə, o zaman bizim ağılda və ən az bizim kimi çılğın insanlarla dil tapmaq daha asandır. "KVAN"da yazmışdım:

"Xəyallarınız ancaq sizin üçün vacibdir!"

Sizə "yox" deyən, işinizə laqeyd yanaşan hər 1000 nəfərə mütləq 1 nəfər Nurlan Qarakişiyev kimi oğul düşəcək!

# 80/100

## Dəli şeytan deyir ki, ondan daha dəlisi var

Musiqi:
"Everdream" by Epic Soul Factory

Bakı kəndlərindən birində yaşayan dəcəl uşaqları təhsil layihəsiylə bağlı Qubaya gətirmişdilər. Bu 8-ci sinif uşaqları ilə söhbət edəndə onların ancaq "lotular barədə" hekayələr danışdığını gördüm. Özümü saxlaya bilməyib onların anladığı futbol dilində bir lotu barəsində danışdım. Bu lotu asmadan, kəsmədən, oğurlamadan, ancaq öz zəhmətiylə böyük uğurlar qazanıb. Minlərlə insana əl tutub.

Uşaqlar mənə qulaq asa-asa çevirdikləri təsbehin sürəti azalmağa başladı. Çünki söhbət "lotu" Ronaldodan gedirdi.

Onun "qırmızı şeytanlar"da oynadığı vaxtlara aid komanda yoldaşı Patris Evranın məşhur xatirəsi var:

– Saatlarla çəkən məşqdən sonra, Ronaldo: "Gedək qonağım ol, bir qismət çörək yeyək", – dedi. Mən də sevindim ki, indi gedib yeyib-içəcəyik. Adam masaya nə gətirsə yaxşıdır? Qaynadılmış toyuq sinəsi, salat və adi su.

Nəsə birtəhər yedim qurtardım. Ronaldo yeməyi bitirən kimi "Gedək bağçaya topla paslaşaq" – dedi. Sonra üzmək təklif etdi. Sonra da bir kardio məşq təklifini eşidəndə ona dedim ki, məşq edəcəkdiksə, elə stadionda qalardıq da, evə niyə gəldik?

Evra gülümsəyək davam edir:

Bir dəfə Rio Ferdinand onu hamının içində pinq-ponq oyununda məğlub etdi. Ronaldo axşam vaxtı öz əmisi uşağına pinq-ponq masası aldırdı. 2 həftə məşq edəndən sonra Rionu hamının içində məğlub etdi.

Bəzi insanlara dəli şeytan nəsə deyir. Ancaq bəzi insanlara qorxusundan yaxın durmur. Onların içində fərqli qan qaynayır.

Əzmkar. Əzmli və baş verənlərə "kar" olmağı bacaran.

Təşəbbüskar. Dayanmadan cəhd edən və rəylərə "kar" olmağı bacaran.

Sənətkar. Sənətini sevən, daim inkişaf etdirən və mövcud şəraitə "kar" olmağı bacaran, öz şəraitini qura bilən.

Bu mənada kar olmağınızı arzu edirəm!

# 81/100

## Qaranlıqda görmək asanlaşır

Musiqi:
Wakanda "Spirit Lifting" Theme/Vocal

Gecə işıqlar sönəndə hər tərəf qaranlıq olur. Heç nə görmədiyimiz üçün ilk 3 saniyəni təşvişə düşürük. Sonra içində dayandığımız otağın, əslində, bizə nə qədər doğma olduğunu anlayıb şama tərəf hərəkət edirik. Ola bilsin ki, işıq bizim doğma məkanda deyil, çox fərqli bir yerdə sönüb. Yenə də bədənimiz işə düşür. Gözlər ikinci planda, hissiyat birinci planda olur. Bütün mümkün səhvləri və testləri edərək – toxuna-toxuna gedirik. Bəzən işıq tez yanır. Dərhal da normal həyata qayıdırıq. Bəzən isə qaranlıq uzun müddət bizi həbs edir. O zaman ruhumuzun və xarakterimizin sınandığı məqama gəlib çıxırıq. Qaranlıq tunelin sonunda işıq olmaya da bilər. Ancaq tunel divarlarını dağıdıb işığa daha tez qovuşmaq da olar. Bəzən qaranlıqda tək qalırıq. Səsimiz işə düşür. Bəzən isə komanda şəklində oluruq və o cür mübarizə aparırıq.

Rus donanmasında bir sualtı qayıq kapitanı öz heyətinə qaranlıq şəraitdə gəmini bütün heyətlə tərk etməyi

də məşq etdirirdi. Gəmi heyəti bu məşqlər nəticəsində gəmi qaranlıq olsa belə, tez bir zamanda onu tərk etməyi və ya içində hərəkət etməyi öyrənmişdi. Nəhayət, həmin məşqin xeyrini gördülər. Bir dəfə qəza nəticəsində elektriki kəsilən gəmini rahatlıqla tərk edə bildilər.

Yoxsulluq qaranlıqdır. Mənəvi yoxsulluq isə daha betər qaranlıqdır. Zəngin mənəviyyatlı insanlar qaranlıqda yazı yazırsa, iş görürsə, bu ilk anlarda hiss olunmur. Ancaq işıqlar yananda bütün yazılar və işlər də açıq-aşkar görünməyə başlayır.

Elə insanlar var ki, özü işıq rolunu oynayır. Onlar yüksəldikcə onların işığı ilə minlərlə insan da öz yolunu tapır (Ya da öz yoluna qayıda bilir).

Filisiya Raşad və Denzel Vaşinqton belə adamlardandır.

"Black Panther" filminin baş rolunu oynayan Çedvik Bozman müsahibələrdən birində etiraf edir: "90-cı illərdə Hovard universitetində təhsil alanda Oksfordda yay məktəbinə qəbul edildik. İngiltərədə oxumaq və yaşamaq pulunu ödəyə bilməyəcəkdik. Oksford və teatr xəyalımızı kənara qoymalı olduq. Ancaq müəlliməmiz Filisiya Raşad bizim xəyallarımız üçün bir çox ulduzla danışıqlar apardı. Onların bir qismi xərcləri öz öhdəsinə götürdü. Təhsilimi bitirəndən sonra mənə gələn təşəkkür məktubunda "Sizin donor Denzel Vaşinqtondur" cümləsini oxudum. Şokda idim. O gün özümə söz verdim ki, Denzel bəyə elə bir məqamda yaxınlaşıb "Çox sağ olun!" deyəcəyəm ki, ikimiz üçün də tarixi bir an olsun.

Çedvik Bozman “Black Panther” Nyu Yorkda nümayiş etdirilən gün “Rollinq Stoun” jurnalına müsahibə verən Çedvik Denzel ilə üz-üzə gəlir və ona “Həmin tələbələrdən biri mən idim” deyir.

Hal-hazırda bu yazını oxuyan bütün Çedviklərə, Filisiyalara və Denzellərə hörmətlə....

# 82/100

## Nəhəng insanların işlərindən həzz almamaq olmur

Film:
Mission Impossible – Fallout

Bir şirkət və ya brend fərqli bazara girməyə cəhd edirsə, həmin bazarın mədəniyyətinə uyğun jestlər etməyi bacarmalıdır.

Bu il ekranlara çıxan "Mission İmpossible – Fallout" filmi mənim üçün bunun ən yaxşı nümunəsi oldu. Paramount şirkəti Alibaba Production ilə birgə işlər görür. Kassaya pul ABŞ və Avropadan savayı, Çindən də gəlməlidir. Filmdə bircə səhnə bəs edir ki, bütün Çin əhalisini bu filmə heyran qoysun.

Fransanın gecə klubunda, ayaq yolunda çəkilmiş döyüş səhnəsi. Filmin ən intensiv üç-beş səhnəsindən biridir. Bu səhnənin çəkilişi üçün 4 gün nəzərdə tutulsa da, səhnə düz 4 həftəyə ərsəyə gəlib (Niyəsini baxanlar başa düşəcək).

Filmin iki əsas personajı "mümkünsüzləri mümkün edən" Tom Kruz və "Supermen" kimi yadda qalan Henri Kevil bir çinli ilə bacara bilmir. Təkbaşına ikisini də zərərsizləşdirən bu Çin vətəndaşı axırda güllə ilə susdurulur.

“Bir sözlə döyə bilmədik, birtəhər tapançayla vurub öldürdük” səhnəsinə baxan hər bir şərqli ürəyində “Bizimki nə çırpdı bunları!” – deyib kinoteatrdan xoşbəxt ayrılır. Tom isə missiyasına davam edir.

Döyüş səhnəsinin qəhrəmanı koskadyor Lian Yanqdır. Canın yanmasın sənin, ay Lianq! :)

Bu səhnədən sonra babat təkliflər alıb (Xoreoqrafiya və döyüş səhnələri istiqamətində).

Sonda isə Tom Kruzun sözlərinə qayıdıram:

– Bu səhnə üçümüzü də əldən saldı. İkimizin də bədəni ağrıyırdı. Biruzə vermirdik. Zərbələr güclü idi.

Ancaq “nöqtə”ni Tomun özü qoyur.

Filmin növbəti səhnələrinin çəkilişi zamanı Tom binadan binaya tullananda topuğunu sındırır. Travmatoloq komandaya deyir ki, bu adam ən yaxşı halda 6 ay sonra qaça biləcək. O isə 6 həftə sonra çəkilişə qayıdıb qaçmağına davam edir.

Belə insanlar nəhəngdir.

Onların iş etikası və xarakteri nəhəngdir.

Onların ərsəyə gətirdiyi işə baxıb həzz alırsan!

Sonra da məhəllə dükanından 2 ədəd zavod çörəyi alıb evə qayıdırsan.

# 83/100

## Mat edən Şəhriyarın məəttəl qaldığı anlar

Musiqi:
The Big Short Piano Suite – Nicholas Britell

Şahmatı iki oyunçu deyil, iki ölkə oynadı. Biri Norveç, biri Azərbaycan. Hər iki ölkənin neft fondu var. Norveçin neft fondunun ehtiyat vəsaiti 1 trilyon dolları ötüb. Azərbaycan neft fondu isə "üzüb batmamağa çalışan" manatın altına pulu salfet kimi sərdi. Norveç adambaşına düşən gəlirinə görə dünyada 3-cü yerdədir. Azərbaycanın adambaşına gəliri ilə ən yaxşı halda 3-4 ədəd "Alov" markalı top almaq olar.

Norveçli gənclər həyat axtarışlarına çıxmaq üçün bank hesablarındakı pulla "benzin" alırlar. Dünyanı gəzib 3-5 il sonra qayıdıb qalstuk taxırlar. Azərbaycan gənclərinin əksəriyyəti "mənə də yeyinti piroqundan bir şey düşər" ümidi ilə az qala 60 yaşa kimi boğazına qalstuk keçirir. Dünyaya səyahətə çıxmaq üçün oksigenləri və ya pulları bəs etmir. Pullular da "3Q" qanunu ilə "Qız-Qəlyan-Qalenvaqen" deyib, Tibet fəlsəfəsi ilə ömür sürürlər.

Norveç inkişafda bizdən neçə dəfə qabaqdadır. Maq-

nus “cənnətdə” məşq edərək 13 yaşında Qrand Master alacaq səviyyəyə çatıb. Bir də var təxminən 17 yaşında bu titulu qazanmış Sumqayıt uşağı Şəhriyar. Bu adam Maqnusu məyus etdi.

Bütün dünyanın alqış səsləri, eyforiya və sonda Bakıya qayıdış. Qayıdandan sonra AzTV-də bir dənə qalstuklu qoca dayı ilə oyun barəsində söhbət etmək üçün evindən çıxacaq. Avtobusa minəndə sürücü onu əlavə 10 qəpik istəməklə mat qoyacaq (Maşını varsa, keçsin günahımdan :))

O gün olsun, dünyaya meydan oxuyan Şəhriyarlar təkcə oyun zamanı deyil, həm də evə qayıdanda da ürəkdən sevinə bilsin!

# 84/100

## Belə şeylər ancaq kinolarda olur

Film:
Baghban – Amitabh Bachchan

Münəvvərlə birgə hind filminə, “Bağban”a baxırdıq.

Həmin filmdə Amitabh Baççan ömrünün sonuna yaxın yaşadığı həyatı, sevgisini, ailəsini təsvir edən “Bağban” isimli bir kitab yazır. Ər-arvad uzun müddət ayrı qalmalı olur və nəticədə, bir-birinə qoşulub öz uşaqlarından qaçır. Köhnə evlərinin qarşısına gələndə xanımı “bağban”dan bu evdə nəylə dolanacaqlarını soruşur. Elə bu sualdan sonra bağbanın dostları peyda olur. Əllərində bir çeklə yaxınlaşıb bağbanı sevindirirlər. Məlum olur ki, onun kitabı böyük nəşriyyat evlərindən birində çap ediləcək. Budur ona milyon rupilik avans ödəyirlər.

Bu səhnədən sonra Münəvvər “Belə şeylər ancaq kinolarda olur”, – dedi. Dedikləri mənə ağır təsir etdi. Çünki haqlı idi. Həqiqətlərlə dolu Bakıda yaşayırdıq. 3 kitab yazıb hər biri üçün mübarizə aparan bir müəllif kimi onların bizim ailə üçün çörək ağacı olmayacağını anlayırdım. Qəbul etmək çətin idi.

İkinci kitabım “Ubuntu” daxili yaralarım və etirafla-

rım barədə idi. Münəvvərlə aramızda olan sevgi haqda idi. Qızıma, həyat yoldaşıma, anama və onların timsalında bütün qadınlara həsr etmişdim. Ancaq məhdud sayda çap eləmişdim. Üstəlik, bir daha çap etməyəcəkdim. Bu kitabın bir neçə seriya nömrəsini hərrac vasitəsi ilə satıb həyatımın qadınlarını və təhsil almaq üçün dəstəyə ehtiyacı olan 3 qızı sevindirəcəkdim.

Xəyallarım böyük idi. Çox sayda şirkətlə yazışdım. Heç birindən cavab gəlmədi. Oxucularım və kitab evləri "Nə üçün ikinci dəfə çap etdirmirsən?!" deyə narazılıq edirdi. Hərraca ümidlərim getdikcə azalmağa başladı. Üstəlik, bir də yerli müğənnilərdən birinin dodağı dəyən fincana 500+ manat, digər müğənninin bişirdiyi qayğanağa isə 600+ manat verdilər. Yaşadığım ölkədə yaşamaqdan utanmağa başladım.

Deyindim. Yoruldum. Susdum.

Kitabın bir nüsxəsi qalmışdı. "1" nömrəli nüsxəyə baxıb onu şkafımızdakı qutuya qoyurdum.

"Belə şeylər kinolarda olur" – deyib təslim olacaqdım. Amma "KVAN"da cəhdlər barəsində yazan bir insan kimi bir cəhd də etmək istədim. 6 ay öncə yazışdığım bir şirkətin şöbə rəhbərlərindən birinə yazdım. Görüşməyə razılıq verdilər. Ofislərinə getdim. Çaylarını içdim. Danışıq əsnasında "1" nömrəli "Ubuntu" nüsxəsini məndən aldılar. Sentyabrın 15-də, "Bilik günü"ndə təhsil almaq istəyən 3 qızı sevindirə biləcəyik.

Ofisin binasından çıxanda hələ də inanmırdım. "Azərbaycanda da belə şeylər ola bilərmiş", – dedim.

Üstündən bir neçə gün keçdi. Türkiyədən bir müəllimim kitabı oxuyandan sonra mənə zəng edib, dəstək verəcəyini açıqladı. O, söhbətdən sonra nəşriyyat evlərinin birindən mənə zəng gəldi.

Münəvvərə zəng edib ona xəbər verdim. Sevinməyə tələsmədi.

Düz elədi. Bu şəhərdə sevinmək çox çətindir. Bu şəhərdə gözünə sevinc göz yaşları əvəzinə ancaq tikintinin tozu girir. Küləklə üzünə çırpılan həqiqətin tozu.

25 il əvvəl çəkilmiş "Təhminə və Zaur" filmində Təhminə Zaura "Mən keçən küçələrə su səpərsən ki, toz olmasın?" sualını verir. Zaur da "Bakıda bu, mümkün deyil, – deyir. – Küçənin bu başına su səpənəcən xəzri o biri başını təzədən tozla doldurar".

Bakı küləyi nə qədər insanın xəyalının üstünü tozla örtüb?

"Ubuntu"yla bağlı xəyalımın tozlarını təmizləyən şirkətə təşəkkürümü bildirirəm! Bir daha Azərbaycan dilində çap edilməyəcək bu kitabı isə digər 2 kitabdan daha dəyərli görürəm. Orada mənimlə Münəvvərin həyat hekayəsi var.

Yeraltı musiqi davam edir. #1lərin gücünə inanmağa davam edirəm! Xəyallarımız boyda olduğumuza inanmağa davam edirəm! İnsanlığın ölmədiyinə inanmağa davam edirəm. İnamım zəifləyəndə yenə hind filminə baxıram.

"Belə şeylər ancaq kinolarda olur", – deyib təslim olmamaq üçün cəhdlərimin mənasız olmadığına inanmağa davam edirəm!

# 85/100

## Sənçə, mən gözəl qadınam?

Musiqi:
Hopsin – False Advertisement

Təbiət qadını cazibədar etmək üçün 3.5 milyard ildir ki, çalışıb-vuruşur. Müasir dövrdə kişinin "Sənin təbii gözəlliyin var, bəzənməyinə ehtiyac yoxdur" cümləsi adətən qadına inandırıcı gəlmir. Üstəlik, milyardlarla dollar qazanan kosmetika şirkətlərinin xətrinə dəyir.

Təbii gözəlliyə malik qadın kişinin diqqətini həmin dəqiqə cəlb edir. Onun vizual görünüşü, qoxusu, hərəkətləri, baxışları, aurası və bilmədiyimiz minlərlə xırda detal milyonlarla ildir bəşər övladının sürətli və dayanıqlı şəkildə çoxalmasına xidmət edir.

Buna baxmayaraq, son 2 min ildə qadınların bir qismi təbiət qanunlarına meydan oxuyub oyunun qaydalarını dəyişməyə çalışır. Nəticədə Kleopatralar, Nefertitilər və müasir Azərbaycanı götürsək, Aykalar ortaya çıxır.

Qədim Misirdə Kleopatra və Nefertiti kimi qadınların gözəllikdə başqa qadınlardan geri qalması onların mövqeyi üçün qəbuledilməz bir zərbə sayılırdı. Sezar kimi şəxsiyyətin ürəyinə sahib olmaq üçün Kleopatraya sadəcə

Kleopatra olmaq bəs etməzdi. Şayiələri Roma hökmdarına özündən əvvəl gedib çatmalı idi. Onun bu dünyaya məxsus olmayan "gözəlliyi" barədə söz-söhbətlər Sezarın dünya boyda eqosuna təsir etməli idi. Ona bağışlanan hədiyyələrin dəyəri və miqyası bir çox kişiyə "qiymətim çox bahadır" və "mənim gözəlliyimi yalnız Sezar kimi kişi ala bilər, dada bilər" mesajını verməli idi.

Aykalarımızın portretinə baxaq.

Estetik əməliyyat mütləq edilib.

Səhnə obrazı və ya ilahə obrazı yaratmaq üçün mümkün olan hər şey üzə, başa və bədənə əlavə edilib. Çoxunun tarixçəsi Avropadan gətirilmiş və dəfələrlə qəzaya düşmüş maşınların tarixçəsi kimidir.

Formaları böyükdür. Hər şey ifrat dərəcədə şişirdilib.

Dodaqları 3-5 dəqiqə qaynayandan sonra, partlamağa can atan çəngəl dəymiş sosiskalara bənzəyir.

Dırnaqları kənd təsərrüfatında istifadə edilən suvarma boruları kimi uzundur. Saçları artıq çoxdandır ki, ilk rəngini və formasını unudub. "Svarkalanmış" telləri var.

Burunları, qaşları, belləri, mədələri — bir sözlə, heç bir orqan onları qane etmir. Orqanları çoxdan miqrasiya etdirilib.

Parnikdə yetişdirilmiş çiyələklərə bənzəyirlər. Qırmızı olsalar belə, dadları yoxdur. Təbii çiyələklərin hər biri ayrı boyda olur. Bunların hamısı eyni boydadır.

Gözəl deyillər, ancaq "əhəmiyyətləri" var.

Hər gün onlara bağışlanan absurd hədiyyələrin şəkli-

ni paylaşırlar. Yüzlərlə qızılgül, onlarla ölkəyə səyahət, bir neçə bahalı maşın...bu da sənə yeni nəslin ovlanmış Sezarları…

Təbii gözəllər belələrini görəndə qeyri-ixtiyarı olsa da, "O çirkinin bəxti məndə olaydı", – deyib köks ötürür.

Gözəl qadınların bəxti əvvəllər də gətirməyib.

Onları sırf cazibədar olduqları üçün tonqallara atıb yandırıblar.

Tonqalın kənarında dayanan "təbiətin favoriti olmayanlar" isə bu hadisəyə böyük qələbə kimi baxıb. Kişilərin bolluğuna düşüblər. Nəticədə, əsrlər boyu Avropa gözəl qadına həsrət qalıb.

Bu gün də Azərbaycan gözəl qadına həsrət qalmaq istiqamətində yol gedir. Çünki internetdə və şou biznesdə "təbiətin favoriti olmayanlar" at oynadır.

Əli kitablı, gözəl sözlü, dərin mənəviyyatlı, uşaq kimi məsum üzlü, səhər küləyi kimi incə, aynaya kosmetikasız baxanda belə gülümsəyə bilən və ruhunun enerjisiylə bütün şəhəri canlandırmağı bacaran xanımlarımıza hörmətlə…

Siz təbiətin favoritlərisiniz!

Ekranlarda gördüyünüzə aldanmayın!

Kosmetika imperiyasının qoca boslarına az pul qazandırın!

# 86/100

## Cənubi Karolinadan Goranboya qədər yol gedən musiqi

Musiqi:
James Brown – I feel good

Hərbi hissədə nahar vaxtı idi.

Nəzarət buraxılış məntəqəsində təkbaşına dayanmışdım. Çölün ortasında saatlarla yola baxmaq elə də maraqlı məşğuliyyət deyildi. Canımı təkrarlanan mənasız günlər, səssizlik və sevdiyim üçün darıxmaqdan ibarət "trio" sıxırdı.

Uzaqdan yeməkxanaya tərəf addımlayan əsgərləri görüb "30 dəqiqəm var" dedim. Bütün hərbi hissə mənim ixtiyarımda idi. İstədiyimi edə bilərdim. Təbii ki, "menyu"da görüləsi işlərin limiti gözümə girirdi. Hər zaman olduğu kimi radionu yandırıb mahnıya qulaq asmağı seçdim.

Bir-iki mahnıdan sonra Ceyms Braunu eşitdim. Adam ürəkdən qışqıraraq "I feel good!" – deyirdi. Cənubi Karolinadan olan bu müğənni mənə sanki "Adə bəsdi darıxdın, bir az tərpən!" – deyə səslənirdi.

Əynimdə hərbi forma olsa da, içimdəki rəqqası oyatmaq elə də çətin olmadı. Bir anlığa harada dayandığı-

mı unutdum. Məni mühasirəyə almış reallığı unutdum. “Onun” üçün darıxdığımı unutdum. Bircə mən və “I feel good” qaldı.

Ceyms kimi mən də bu qəddar dünyaya üsyan etmək istədim.

Bütün ürəyimi rəqsə verdim. Özümü, həqiqətən də, yaxşı hiss etməyə başladım. Hər şey çox əla gedirdi. Gözüm məntəqə qapısının yanında dayanıb mənə baxan hərbi hissə komandirinə sataşana kimi... Əsgəri vəzifə başında bu cür rəqs edən vəziyyətdə görməli olan sonuncu adam qarşımda dayanmışdı. Hərbi xidmətə illərini verən və bu yolda saç ağardan komandirin bədəni elə hərbi hissəmiz boyda idi. Onun üz ifadəsini anlamağa çalışdım. Edam ediləcəkdim? Töhmət yeyəcəkdim? Ştrafbata göndəriləcəkdim? Bilmirdim.

İkimiz bir-birimizə baxanda Ceyms hələ də bəhbəhlə oxuyurdu. Kim bilir, bu Ceyms neçə əsgəri, işçini, məmuru bu mahnılarıyla yoldan çıxarmışdı (Bəlkə də, yenidən yola qaytara bilmişdi).

Komandirin üzündəki zəhm, mənə ediləsi rəhm barəsində şübhələrimi artırdı. Utanc hissi, qorxu, eyni zamanda, həyatın bu anında belə “Əcəb edib rəqs eləmişəm” deyən kiçik bir səs bir-birinə qarışmışdı. Bütün səslər kəsildi. Komandir hökm gözləyən əsgərinə baxıb bir cümlə ilə kifayətləndi.

Belə bir cümləni gözləmirdim. İçimə o qədər böyük bir rahatlıq qayıtdı ki, məni coşduran Ceymsə “me too” dedim.

Deмək, musiqi kiməsə kömək üçün ta Cənubi Karolinadan Goranboya qədər yol qət edə bilər.

Musiqi rəqs edən əsgərə baxan zəhmli komandirin də ürəyinə oynamaq istəyi sala bilər.

Musiqi heç nəyi olmayanların hər şeyi ola bilər.

Yeraltı musiqini oxuyan, “dinləyən” hər kəsə hörmətlə...

# 87/100

## Sahil metrosunun çıxışında Üzeyir Hacıbəyov dayanmışdı

Musiqi:
Üzeyir Hacibəyov — Koroğlu Overture
(Official Video)

Mahnı dinləyəndə hansına daha çox əhəmiyyət veririk? Mahnının musiqisinə, yoxsa sözlərinə?

Sırf musiqiyə əhəmiyyət verənlər bizi "klassik musiqinin zirvələrinə qədər aparır". Sırf sözləri sevənlər bizə nəzm, rep və meyxana kimi söz simfoniyasını bəxş edir. Çox az mahnı var ki, onun həm musiqisi, həm də sözləri ideal vəhdət təşkil edə bilib. Çünki hər iki "dünyanın dahiləri" fərqli paralellərdə inkişaf edir.

Bu gün Üzeyir Hacıbəyovun ad günüdür.

Eyni zamanda, Musiqi günü kimi də qeyd edilir. Üzeyir bəy və Əhməd Cavad bir araya gəlib bizə "himn"imizi bağışlayıblar. Musiqi və söz bir araya gələrək milyonlarla insanımıza qürur hissi keçirmə anını yaşadır.

Bu gün şəhərimizi gəzsəydi, Malakan bağının yanında, onun adına olan küçədə təsis edilmiş Bakı Kitab Mərkəzini görərdi. Həyəcanla içəri daxil olub: "Bax, belə bir yerdən bəhs edirdim", — deyərdi. Bir az da qa-

bağa gedib Sahil metrosunun çıxışında onun musiqisinin ifa edildiyini eşidər və sevinc hissi yaşayardı.

Musiqini dinləyən sərnişinlərdən: “Bəs indiki nəslin musiqisini haradan dinləmək olar?” – deyə soruşardı. Sərnişinlər saçları səliqəylə daranmış bu qədimi eynəkli kişiyə baxıb çaşbaş qalar, susardılar.

Həqiqi musiqi və sözlər dövrü əks etdirmir.

Həqiqi musiqi və sözlər hər dövrdə insanlara “ali hisləri, ali məqsədləri, ali dəyərləri” dadmaq şansı verir.

Həm musiqi, həm də söz sənətkarları sadə insanlarla “ilahi varlıq” arasında olan körpü rolunu oynayır.

500 il sonra belə, eyni körpüdən rahatlıqla keçə, eyni hisləri yaşaya bilirik.

Mən dayanmadan yazmaq istəyəndə klassik musiqini “yandırıb” tam “dəm alana kimi” gözləyirəm. “Dəmlənəndən” sonra yazmağa başlayıram. İlham almaq istəyəndə söz ustalarını dinləyirəm. Məsələn son 2 həftədə qulaq asdığım Black Tought adlı reperin 10 dəqiqəlik bədahətən dediyi sözlərin bu planetdə yaşayan bir bəşər övladına aid olmadığını anlayıram.

Ağılın idrak edə bilmədiyi cümlə quruluşları ilə hörülən məna toru məni özünə ilişdirir. 20 ildir rep deyən bir insan kimi çıxardığı oyunların onun üçün necə bəsit olduğunu, ancaq biz adi insanlara “möcüzə” kimi göründüyünü heyranlıq hissi ilə qəbul edirəm.

Yazıb-yaratmaq istəyəndə isə Üzeyir bəyin felyetonunu (Corab-kitab xatirəsi barədə) oxuyub iş başına keçirəm. Dövrünü 100 il qabaqlamış insan kimi, həm-

vətənlərinin 100 il də geridə qalmasını və gözləməsini istəməyən insan kimi yazıram.

Dahi bəstəkar dirijor çubuğu ilə “növbəti nəslin gənclərini” simfonik şəkildə hərəkətə çağırır. Ruhu ilə pıçıldayır.

Qarşıda bizi gözləyən maneələri, eyni zamanda yolun nə qədər şərəfli olacağını izah edir.

Sizi təsir altına salmaq üçün onun təsiri altında qalırıq.

# 88/100

## Azərbaycan köhnə zirzəmisi olan yeni binaya bənzəyir

Musiqi:
Zack Hemsey "Mind Heist"

Bir bina təsəvvür edin. Yenicə tikilib. Fasadı gözəldir. Eyvanlarından çiçək dolu dibçəklər asılıb. Binadan tez-tez musiqi səsləri gəlir. Hərdən moizələr də eşidirsən. Ancaq əksər vaxtlarda türk dilində dialoqlara şahid olursan. Vətənpərvərlik və sevginin kokteylindən hazırlanmış serialların səsi binanın, demək olar ki, hər yerindən aydın eşidilir.

Bu səs yerli tele-şouların, instaqramdan baxılan yerli "vine"ların səsiylə qarışır. Bu səslər yaşlı nənə-babaları və 12-16 yaşlı uşaqları daha çox özünə cəlb edir.

Binada müxtəlif ailələr yaşayır. Gün ərzində bu ailələrin bir-birindən xəbəri olmur. Onların hər birinin öz həyat ritmi var.

Hər bir ailənin özünəməxsus istirahət, iş, əyləncə və həyatı yaşamaq fəlsəfəsi var. Bir-birindən divarlarla ayrılmış və qapı ilə təcrid edilmiş bu ailələr gün ərzində bir neçə dəfə binaya girəndə və ya binadan çıxanda təmasda ola bilir. Onlar bir-birinin varlığından bu cür

epizodik hallarda xəbər tutur. Adətən qonşu evlərdən gələn "müxtəlif səslərə" sadəcə passiv reaksiya verirlər. Ya da adicə dinləyir və heç nə olmamış kimi günə davam edirlər. Bəzi səslərdən zorakılıq, söyüş, dava yağır. Bəzi səslərdə xoş xəbərlərin nəfəsi duyulur. İstənilən halda hər ailə özü üçün yaşamağı və başqa ailənin işinə qarışmamağı üstün tutur.

Bir də bu yenicə tikilmiş binanın köhnədən qalma zirzəmisi var. Binanın bünövrəsini bu zirzəmini təmizləmədən qoyublar. Zirzəmidə olan köhnə tullantıları heç kim yığışdırmayıb. Elə olduğu kimi saxlayıb üstündən bu yeni binanın qalan mərtəbələrini inşa ediblər.

Bina yeni olsa da, gözəl inşa edilsə də, bünövrəsindən çox pis iylər gəlir. Binanın bütün sakinləri bu iydən əziyyət çəkir.

Bəzi sakinlər bu iyi hiss etməmək üçün tez-tez binanı tərk edib ya parka gəzintiyə çıxır, ya da başqa binalara qonaq gedir.

Gəzib dolaşıb rahatlayan sakinlər binalarına qayıdan kimi iyin təsiri özünü gecikdirmir. "Yenə də bu iy!" – deyə sakinlər gileylənir. Bəzi sakinlər isə bu üfunət qoxusundan birdəfəlik uzaqlaşmaq üçün binanı ömürlük tərk edir. Onlar binalarıyla bağlı şirin xatirələrə və gözəl günlərə görə məyus olsa da, "iyin güclü təsiri" onları qayıtmağa qoymur.

Zirzəmi qaranlıq və sürüşkəndir. Yeraltından gələn "pis iy"lə bağlı nəsə etmək istəyən bir sıra insan elə həmin zirzəminin içindəcə məhv olub. Başqa sakinlər

də bunu görüb "iy"lə bağlı heç nə etməmək qərarına gəliblər. Onların həyat eşqi ölüm qorxusunu üstələyib.

Gecələr binada yaşayan bəzi sakinlər zirzəmiyə atılan növbəti zibilin səsini eşidir. Qapıdan baxıb bunu kimin etdiyini görməyə çalışırlar. Qapını açmağa cəsarət etmirlər.

Binanın mənzilləri gözəl olsa da, zirzəmidə fışqırmağa hazırlaşan tullantılar mənzilləri həşəratlarla doldurur. Hər yerə qarışqa, tarakan daraşır.

İy məsələsini unutmaq üçün ailələr "televizor və telefonların səsini bir az da artırır".

Bu addım qulaqlara təsir etsə də, burunların vəziyyətini dəyişdirmir.

Yeni binaya gələn yeni qonşular içəri girən kimi köhnə zirzəmi onları salamlayır. Bu iy onları "bihuş edir". Sərxoşlar bir-birini didməyə və aqressivləşməyə başlayır. Binadan get-gedə "qan iyi" gəlir.

İydən başı xarab olmuş insanlar tez-tez bir-biri ilə toqquşmalı və qəza törətməli olur. İydən başı xarab olmuş insanlar normal insana yaraşmayan hərəkətlər etməyə başlayır.

Yeni binanın köhnə zirzəmisində olan "tullantılar" durduqca və artdıqca heç nə dəyişmir.

Həmin zirzəmi cəhənnəm kimi təhlükəlidir.

Bəs yaxşı, bu məsələnin həlli nədir?

Vaxtilə uzaq "bina"lardan birində yaşamış Karl Qustav Yunq deyib ki, Cənnətə getmək istəyən yola Cəhənnəmdən başlamalıdır.

Bir sözlə, binanı abad görmək istəyiriksə, mütləq bu zirzəmini təmizləməliyik.

Binanın gənc sakinləri iddialıdır.

Onlar "Bizə şans verin, bu zirzəmini təmizləyək", – deyirlər. Artıq bir neçəsi zirzəminin içinə daxil olub oradan salamat çıxmağa və bir-neçə "zibil setkasını" çöldə düzülmüş "zibil qutularına" atmağa nail olub. Artıq az da olsa təmizlik işləri görülür.

Telefon və televizorun səsi ucbatından "atılan setkaların" səsini eşitməyən bina sakinləri bu gəncləri tanımağa fürsət tapmır. Bəzən bir neçə qonşu eyvana çıxıb zirzəmidən nəsə çıxaran belə gəncləri görür, heyrətlənir, "İşinizdə uğurlar", – deyir.

Bəzən də bir-iki sakin aşağı düşüb bu təşəbbüsə qoşulur və "setka"nın bir ucundan da onlar yapışırlar.

Belə anlarda köhnə zirzəmili yeni binadan ümidin təravət dolu iyi gəlməyə başlayır.

# 89/100

## Beynimdə var-gəl edən fikirlər

Musiqi:
Zack Hemsey "Mind Heist"

1-ci fikir / Eramızdan əvvəl 4-cü əsrdə, hələ Məhəmməd və İsadan əvvəl Yunanıstanda bir nəfər "Bəlkə, bu qədər tanrını yaratmaqda tələsmişik. Bəlkə, elə bir tanrı var", – deyir. Bu adam iddia edir ki, insanlara və onların yaratdığı tanrılara bənzəməyən bir TANRI mövcuddur. Bir də deyir ki, biz bilə bilərik, ancaq bundan xəbərimiz olmaya bilər. Bu adam belə qəribə fikirləriylə tənqidi rasionalizmin əsasını qoyur.

2-ci fikir/ Məşhur yazıçı Stiven Kinq əsərlərində "öldürdüyü" oğlan və it personajı barəsində danışarkən deyir: "İti nə üçün öldürdün deyə məktub yazıb məni söyənlərin sayı oğlana görə məktub yazanlardan qat-qat çox oldu. Bəzən bu insanları heç anlaya bilmirəm. Humanizm vəhşilikdə gizlənə bilərmi? Yəni biz nə üçün itə-pişiyə göstərdiyimiz şəfqəti və mehribanlığı bir-birimizə göstərə bilmirik? Yadıma uşaqlarını oxşaya bilməyən atanın pişiyi sığallaması düşdü. Bir vaxtlar özünü insanlardan təcrid edən qadının itə qayğı göstərdiyini gördüm. Ortada acı həqiqət var. Heyvan heyvana

bizim bir-birimizə etdiyimiz zülmü rəva görmür. Ancaq biz bir-birimizə göstərməyə cəsarət və ya cəhd etmədiyimiz hissləri heyvanlardan əsirgəmirik".

3-cü fikir Tez-tez inboksa yazırlar. Belə bir "iş" var, onu etmək istəyirəm. Görəsən, etməyə dəyər? Sən nə düşünürsən?

Mən düşünürəm ki, beyninizdə doğulan fikirlər və niyyətlər sizə aiddir. Daxilinizə düşən "toxum"a şans verin. İnvestor bilir ki, 10 ideyaya pul qoyacaq, ancaq 1-i tutacaq. İnvestor pulu 1 ideyaya yatırmır. Sizin ideya və fikirlər də belədir. 100 fikir, ideya düşünürsünüz bir-ikisi nəyəsə çevrilir. Onda 98 ideyanın dəyəri azalır? Məğzi itir?

Bir dəfə düşündüm ki, "İdeal" kimi ətir dükanında kitab üçün maraqlı bir kampaniya edim. Adətən "Xanımlara ətir alma, gül alma, kitab al" deyən kitab evlərinə maraqlı cavab atəşi olaraq "Sevginin ətrini hiss edin!" deyib "UBUNTU" kitabımı loyal müştərilərinə hədiyyə edə bilərdilər. Ancaq etmədilər. Ən azından içimdə doğan fikrə şans verdim. Yəni onlar "Yox" dedi, mən yenə dayanmadım. Sevginin ətri yayıldı. Xanımlarını sevən bəylər bu günə kimi "hədiyyə" qismində istəyir bu kitabı. Ancaq bitib. Fikriniz varsa, kimdənsə icazə və ya fətva gözləməyin. Edin! Ən pis halda alınmayacaq. Ancaq siz beyninizi və ürəyinizi növbəti fürsət üçün azad edəcəksiniz.

4-cü fikir / Ceyms Coysun karması. İngilis dilini gözəlləşdirən Şekspir və Dikens kimi nəhənglərlə adı

birgə çəkilir. Ölmədən öncə oxunmalı olan 20 kitabın içində ən az 2 əsəri var: “Ulysses” və “Dubliners”. Maraqlıdır ki, 2-ci əsərinə görə müraciət etdiyi 14 nəşriyyat müəllifə yox deməklə kifayətlənməyib, hətta əlyazmanın orijinalını da yandırıb. Bəxtindən insaflı naşirlərdən biri ona əlyazma versiyasını verib. 370+ tirajla çap edilmiş kitabın yarısını elə Ceyms özü alıb və ona-buna paylayıb. Ay karma, nə üçün heç bir dahi üçün dəyişmirsən?

Nə üçün hər zaman tam vaxtında gecikirsən?

Nə üçün Ceymslər ölüb getməli olur ki, sonradan onların canına dualar oxunub sağlıqlar deyilsin?

# 90/100

## Zirvə.
## Xəyal, yoxsa həyat tərzi?

Musiqi:
Tony Anderson – Immanuel

Bəziləri üçün zirvəyə çıxmaq bir ömürlük xəyaldır. Bəziləri üçün isə gündəlik həyat tərzidir. Everestin 8848 metri nə qədər xəyalpərəstin yuxusuna girir? Nə qədər insan bu zirvəni fəth etmək üçün bir ömür boyu hazırlıq görür? Nəhayət, bu arzusuna çatanda dəli kimi sevinir. Ancaq elə insanlar var ki, Everest onlar üçün çörək pulu, iş və başqa insanları sevindirmək vasitəsidir.

48 yaşlı Kami Rita Şerpa bir müddət əvvəl Everestə 22-ci dəfə çıxdı və düşdü. Onun 44 yaşlı bacısı Lakpa Şerpanın da aktivində 9 dəfə çıxıb düşmək var. Kami Ritanın ailəsində olan kişilərin əksəriyyəti ən az bir dəfə bu zirvəyə çıxıb. Onun qardaşı Everesti 17 dəfə görüb. Bu rəqəmləri klaviaturada yazarkən özümü necə rahat hiss edirəmsə, yəqin ki, onlar da elə rahat olublar zirvəyə qalxanda.

Şerpalar müasir müəllimlərə, mentorlara və kouçlara nümunədir. Onların işi əlçatmaz xəyallara gedən yolda

insanların əlindən tutmaq və mənzil başına çatdırıb bu sevinci onlarla birgə yaşamaqdır.

Siz hər dəfə “KVAN”, “UBUNTU” və “ALAMO13”-ü oxuyanda və ruhlanıb nəsə edəndə mən özümü məhz bu bacı-qardaş kimi hiss edirəm. Nitqinizi və ya təqdimatınızı daha da təkmilləşdirəndə onlar kimi sevinirəm. İdeyalarımı bölüşərək sizin işlərinizi daha da məhsuldar edəndə, sizi və komandanızı motivə edəndə “Everest”imi növbəti dəfə çıxıb-düşmüş oluram.

Dəyərli tələbələr!

Hər biriniz üçün xüsusi bir yol təyin edilib.

Hər birinizin çıxmalı və düşməli olduğu öz Everesti var.

Sizə uğurlar arzu edirəm!

# 91/100

## Əlimizdə olan kartlar

Musiqi:
Hans Zimmer "Time"

Həyat bir kart oyunu kimidirsə, o zaman kartlardan danışmaq lazımdır.

Hər kəsə eyni kartlar verilmir. Ancaq əsas məsələ səndə hansı kartların olması deyil, bu kartlarla necə oynamaqdır. Bir də oyunun nəticəsidir. Bir sözlə, oyun yaxşı başlasa da, yaxşı bitməyə bilər.

İki oyunçu var. Biri Nik Yarisdir (Nick Yarris), digəri isə Arda Turandır.

21 yaşlı Niklə 21 yaşlı Ardanın "kart"larına baxaq.

Nik oyunda bəxti gətirməyən, ancaq yenə də oynayan tərəfdir.

21 yaşında onun barəsində ölüm hökmü çıxarılır. Daha əvvəl cinsi zorakılıq görən, nəşəyə qurşanan, pul üçün maşın qaçıran Niki bir gün tutub yalan ifadəsindən sonra üstünə başqa bir qatilin günahını atırlar. Beləliklə, öz ölmünü gözləmək üçün zindana atırlar. 22 il içəridə oturan Nik əlavə "kart" istəyir. ABŞ məhkəmə tarixində ilk dəfə günahsız olduğunu sübut edə bilmək üçün DNT testinin tətbiqini tələb edir. Məhkəmə söh-

bəti uzadır. İllərlə çırpılan (buraya onun hansı şəkildə və həcmdə döyüldüyünü yazmıram) və bir çox şəkildə alçaldılan Nik məhkəməyə "Mənim edamımı vaxtından əvvəl icra edin" – deyə tələbnamə göndərir. Məhkəmə tələbnaməni icra etməzdən öncə DNT testini etmək qərarına gəlir. Oyunun gedişatı Nikin xeyrinə dəyişir. Adamın günahsız olduğunu müəyyən edirlər. Azadlığa buraxılan Nik Delaver ədliyyəsini mənəvi zərərə görə məhkəməyə verir (Vurulmuş ziyana görə ona 4 milyon ABŞ dolları ödənilir). İngiltərəyə qayıdan Nik orada həyatını yenidən qurmağa başlayır. Ailə qurur. Həyat yoldaşı onun həyat hekayəsinin bütün detallarını bilə-bilə ona "Hə" deyir. Barəsində film çəkilir. Özü iki kitab yazır və kitabları bestseller olur. Həbsdə oxuduğu mindən çox kitabın və həyat hekayəsinin "çörəyini" yeməyə başlayır.

Cəmiyyətin ona "qatil damğası" vurduğu yerdən uzaqda kuryerlik etməyə başlayır. Dünyanın ən məşhur podkastında "I am harder than life, kinder than love" – deyir (Həyatdan daha sərt, sevgidən daha nəzakətliyəm).

Nik əlindəki "kart"lara baxa-baxa dəfələrlə özünə qəsd etmək istəyib, ancaq sonda davam etmək qərarına gəlib.

Keçək masanın qarşı tərəfinə...

Qarşıda oturan Arda Turana 21 yaşında Qalatasaray kimi böyük klubun kapitanı olmaq şansı verilir. Atletiko və Barselona kimi klublarda oynamaq şansı verilir.

Türk futbolunun tarixində, dünya 100-lüyündə yer tutmaq şansı verilir. Arda böyük planlar qurur. “Bir gün gələcək Türk Futbol Federasiyasının rəhbəri olacağam” deyir. O, əmindir. Kartları onu aldada bilməz. Hamısı tuzdur. Toyuna gəlib şahidlik edən Erdoğan kimi “tuz kartı” belə var.

Amma sonra oyun onun üçün dəyişməyə başlayır. Çünki o, meydanda oynamaq əvəzinə barlarda oyun çıxarır. Xoşagəlməz xəbər başlıqlarının ardı-Ardası kəsilmir. Nəticədə, onun zindana salınma ehtimalı da yaranır.

Hər iki adamın həyatı “spiral” kimidir.

Nik Yaris spiralı və Arda Turan spiralı bizə çox şey öyrədə bilər.

Hər şey birdən dəyişə bilər. Kartlarınıza çox güvənməyin.

Eyni zamanda sizə verilmiş kartlara görə həyatı söyməyə tələsməyin.

Oyun hələ bitməyib, davam edir.

# 92/100

## Gəmi ilə uzaqlaşan xəyalım

Musiqi:
La Valse d’Amelie – Yann Tiersen, Paris

Limanın iri daşlarına çırpılaraq sahilə düşmək üçün yarışan damcıların kiçik bir qismi üzümə səpilirdi. Sahilin axırında dayanıb yanımdan uzaqlaşan gəmiyə baxırdım.

Qarşıda heç bir sədd və ya əngəl yox idi. Bircə 186 santimetrlik canlıdan ibarət maneə qalmışdı. Bir neçə yüz qramlıq beynim isə yer kürəsinin çəkisi ağırlığında olmuşdu. Bədənim hərəkətsiz idi.

Uzaqlaşan gəminin göyərtəsində getdikcə kiçilən üzünü görürdüm. Uzaqlaşan üzünə baxmaq ağır gəlirdi. Gözlərinin içindən yapışmışdım. Dağın zirvəsinə çıxmağa çalışan alpinist kimi daş çıxıntılarından – xatirələrimdən bərk-bərk yapışmağa və qarşıda məni gözləyən uçuruma – boşluğa düşməməyə çalışırdım.

Üzünu çevirməsini istəmirdim. Qətiyyən bunu etməməli idi. Ancaq digər tərəfdən bunun nə mənası var idi ki? Məsafə artdıqca geriyə baxmağın anlamı qalmırdı. “Üzünü çevirsə, daha yaxşı olar” – deyə düşündüm. Onda hər şey daha tez bitərdi. Damcılar üzümə deyil,

sahilə düşərdi. Bəlkə də, dəniz nə isə demək istəyirdi. Bəlkə də, dəniz məndən öncə eyni yerdə dayanmış və ağlamış insanların göz yaşı borcunu qaytarmağa çalışırdı. Ya da onların peşmanlıq dolu həyatını yaşamayım deyə şapalaq vurub ayıltmaq istəyirdi məni.

Suya tullanmaq keçirdi ağlımdan. Ancaq mən başqa cür böyüdülmüşdüm. Bizim tərbiyənin məğzi sulara atılmaq və hekayələrin gedişatını dəyişmək deyildi. Biz sularda xəyalları və xatirələri batırmaqla böyüdülürdük. Bu dəfə də onun kimi bir insanın əlimi buraxıb uzaqlara getməsinə sadəcə baxmaqla kifayətlənəcəkdim.

Bir anlıq damcıların daha da ağır şəkildə düşdüyünü hiss etdim:

– Ata, dur! – səsini eşitdim.

Körpə qızımın əlindəkı su qabını və üzündəki dəcəl gülüşü gördüm. “Həmin sahili” elə bu gülüşlə müvəqqəti yüngüllük taparaq tərk etdim. Saçları antik dövr gəmilərinin yelkənlərini andıran qızımla birgə gülməyə başladım. Pəncərədən içəri vuran külək onun saçlarını oynadırdı. Qıvrım saçlarından ibarət yelkənləri ilə günümün ilk səyahətinə start verilmişdi.

# 93/100

## 1 kilo mandarin

Musiqi:
La Valse d'Amelie – Yann Tiersen, Paris

Əlindən yerə düşən torbadan sırayla kənara diyirlənən mandarinlərə baxırdı.

Bir neçə saniyə sonra dizləri və üzü ard-arda yerə çırpılacaqdı. Mandarinləri bir-bir seçib yığmışdı, çalışmışdı ki, hamısı eyni ölçüdə olsun. Mandarinləri anası üçün almışdı. Bu meyvələri həmin qadına aparacaqdı. İndi isə onlar diyirlənə-diyirlənə uzaqlaşırdı.

Qonşu evdən onların evinə keçən anası "Ürəyim yaman mandarin istəyir", – demişdi. Bir saat əvvəl oğlunun ürəyi yenə xarablamışdı. İllərlə yığılan stress "dözüm kasası"nı doldurmuşdu. Artıq vaxtı gəlmişdi. Qadın heç özü də bilmədən oğlu ilə Əzrailin arasına girmişdi.

"Mandarin olsaydı, yeyərdim" cümləsi vaxtsız deyilmişdi. Oğlunun evində meyvə olmadığını görüb söhbəti dəyişdi. Zarafatları ilə gülüb-güldürməyə çalışdı. Bir müddət sonra öz evlərinə qayıtdı. Səssizcə dayanıb eyvandan çölə baxan oğlan cibindəki son pulunu nəyə xərcləyəcəyini yaxşı bilirdi. Heç olmasa, bu dəfə ana-

sının istəyini yerə salmayacaqdı. Heç olmasa, bu dəfə həmin qadın üçün də nəsə edəcəkdi. Edə bilmədiklərinin əvəzini 1 kilo mandarinlə ödəyəcəyini yalnız axmaqlar düşünə bilərdi.

Sanki Əzrail kənara çəkilib: "Get, al və qayıt", – dedi. Ritmi pozulmuş ürək döyüntüləri pilləkənlə aşağı düşən ayaqlarının səsinə qarışdı. Kiçik dükana yaxınlaşıb meyvəni əli ilə göstərdi. "1 kilo verin", – dedi. Torbaya qoyulan hər mandarin anasının ürəyini sevindirmək üçün kiçik də olsa, bir fürsət idi. İmkanı olsaydı, hər meyvənin üstünə "Ana, məni bağışla!" yazardı. Dükandan 15-20 addım uzaqlaşmışdı ki, Əzrailin əli onun çiyninə toxundu.

Oğlanın: "İcazə ver, aparım və bu meyvələri anama verim" – sözləri Əzrailə mənasız gəldi:

– Hər gün sənə şans verilirdi. Hər gün onu öpüb qucaqlayıb istədiyi meyvələri ala bilərdin. Sən sonraya saxladın həmişə. Sonra isə bu andan etibarən yoxdur.

Anasının istəyini bu dəfə də yerinə yetirə bilməyən gəncin vicdanı dərisi soyulan mandarin qabığı kimi lazımsız hala gəldi.

Bu meyvənin dilimləri çox sulu olur. Elə ürək damarları kimi. Həmin dilimləri dişləyəndə içəridən partladığını eşitmək mümkündür. Bu dəfə öz ürək damarlarının partlama səsini eşitdi. Dişlədiyi minlərlə mandarin diliminin aqibətini bir gün özü də yaşamış oldu.

Partlayış səsinə dik atıldı.

Tər içində idi. Asfaltın üzərində deyil, divanda oldu-

ğunu anladı. Açıq qalmış notbukunun yanında bir neçə mandarin dilimini və soyulmuş qabıqları gördü. Divandan durub hamama keçdi. Üzünü yuyub yaşayıb-yaşamadığını dəqiqləşdirmək üçün bir müddət güzgüyə baxdı.

Kurtkasını əyninə geyinib öz ailəsindən xəbərsiz məhəlləyə düşdü. Kiçik dükana tərəf addımlayanda sağa-sola baxdı ki, Əzrailin gəlmədiyinə əmin olsun.

Həmin gün 4-cü mərtəbəyə çıxan gəncin addımlarında bir təlaş var idi. Bu dəfə cəld çatdırmalı idi. Qapını açan atasına “Salam!” deyib ayaqqabısını çıxarmadan birbaşa qonaq otağına girdi. Yenə də evin hansısa künc-bucağını təmizləyən anasını görürdü:

– Ana, sənə mandarin almışam, yeyərsən! – dedi.

Anası bir anlıq işinə ara verdi:

– Başına xeyir, pulunu saxla balalarına xərclə, – dedi.

Ancaq dodaqları azacıq qımıldandı. Bir az əvvəl ürəyinə mandarin düşdüyünü xatırladı.

Güldü.

Qapıdan çıxanda gənc özünü yenicə təmizlənib piştaxtaya qoyulmuş meyvə kimi hiss edirdi.

Parıltısı göz qamaşdırırdı.

Sular cana qayıtmışdı.

# 94/100

## İçimdə yaxşılıq qalmayıb

Musiqi:
Kaaris "Or Noir"

– Artıq içimdə yaxşılıq hissi qalmayıb.

– Niyə belə düşünürsən?

– Uzun müddətdir ki, heç bir aferist mənə yaxınlaşıb pul istəmir. Üz ifadəmin dəyişdiyini hiss ediblər. Artıq onların görməyə öyrəşdiyi əfəlin üz cizgiləri qalmayıb. Sərt baxışlı və gözlərindən ancaq biganəlik yağan bir adam görürlər.

Ona görə də "Bundan bizə pul verən çıxmaz" deyib yan keçirlər.

– Əfəl insan yaxşı insan demək deyil axı?!

– Mən də elə düşünürdüm. Ancaq güclü və ancaq biclərin "qalib" gəldiyi bu günün dünyasında əfəl olmaq bağışlanmaz günahdır. Ya səni əzirlər, ya sən əzirsən!

Nə badə əfəl kimi ortalıqda gəzəsən.

Nə badə insanların daim yaxşı olacağına inanasan. Bilirsən, əfəlin axırına nə çıxır?

– Nə?

– Dünyanı özü kimi əfəl sanması. Elə bilir ki, hamı onun kimi sadəlövhdür. İnsanların nə qədər pis olduğunu, nə qədər bic olduğunu təsəvvür edə bilmir. Hamı

onun başını aldatmağa tələsir. Kimi ona yanmış çörəyi satır. Kimi qeyri-bərabər şərtlərlə əməkdaşlıq təklif edir. Kimi onu ömür boyu istismar edir. Axırda o bunları görür və anlayır. Ancaq əfəlin belə, bildiyi bir həqiqət var.

– Hansı həqiqət?

– Qozbeli qəbir düzəldir. Əfəllərin başına fırlanan bicbalaları qəbirlər düzəldəcək. Həmin qəbirlərdə uzadılanda heç bir müvəqqəti qələbənin və ya üstünlük sevincinin əhəmiyyəti qalmayacaq.

– O biri həyata inanırsan?

– İnanmaq istəyirəm.

– Bilirsən də, dini rəvayətlərin çoxu sənin kimi əfəllər üçün yazılıb.

– Bilirəm.

– Bəs niyə inanmaqdan əl çəkmirsən?

– Çünki bu rəvayətlər bir-birinə oxşasa da, qulaq asanlara rahatlıq gətirir.

– Nə rahatlığı?

– Sonda hər şeyin yaxşı qurtaracağına inanmağın rahatlığı. İnsan verdiyi qərarların, atdığı addımların yaxşı nəticələnəcəyinə o qədər əmin olmaq istəyir ki... onu əfəlləmək üçün iri şirkətlərdən tutmuş xırda fırıldaqçılara kimi hər kəs növbəyə düzülür. Ancaq paradoks da məhz bu əfəllərin də öz sonlarını yaxşı görməsindədir. Yəni onlar da düşünürlər ki, bu qədər haqları yeyilib dəfələrlə aldadılıblar, əvəzində canlarını əcəldən və ya ədalətdən qurtara biləcəklər.

# 95/100

## Uduzmaqdan həzz aldığım gün

Musiqi:
Eminem – Lose Yourself

Elə bir an olub ki, uduzmaqdan həzz almışam?

Bəli, olub.

Lisey vaxtlarımda qış tətilinə çıxanda hər bir normal uşaq kimi 19 nömrəli məktəbin yanında yerləşən Elşad adlı adamın bilyard evinə gedərdim. Həmin məkanda yalnız iki masa vardı. Masaların birini hər axşam saat 6-7-dən gecə yarısına qədər pulla oynayan əsl oyunçulara ayırırdılar. Bir masa da elə-belə adamlar üçün nəzərdə tutulurdu. Adətən günorta vaxtı gedib oynayırdım. Ancaq bir-iki dəfə axşam vaxtına düşən oyunları görüb axşamlar getməyə başladım. Oraya bir nəfər əsl oyunçu gəlib-gedirdi. Həmişə bank işinə gedib-gələn menecer kimi geyinirdi. Özünün kiy taxtası, təbaşiri və əlcəyini gətirirdi. Oyun əsnasında rəqiblərini özündən çıxarda bilirdi. Topun trayektoriyasını uzun-uzadı, dəqiqliklə ölçürdü. Sonra xətkeş kimi luzaya göndərirdi. Adam bilyard toplarına o qədər intensiv baxa bilirdi ki, onlar "Sən vurma, özümüz gedib düşərik" deyirdi elə bil.

Həmin sezonda ən böyük arzum bu adamla oynamaq şansını əldə etmək idi. Bəxtim gətirdi. Günorta vaxtlarından birində onun necə məşq etdiyini gördüm. Tək idi. Yanında heç kim yox idi. Güman ki, axşamkı oyunlara hazırlaşırdı. Özümü saxlaya bilməyib ona yaxınlaşdım. "Sizinlə oynamaq olar?" – deyə soruşdum. Növbəti vuruşuna hazırlaşan adam üzümə baxıb: "Olar, əlbəttə", – dedi. Oyunçu masasından "elə belə" masaya tərəf gəldi. Topları səliqə ilə yığdı. Və məşhur "Hansımız başlayaq?" – sualını soruşdu. Dəhşət sevinirdim. "Siz başlayın", – dedim. Oyun təqribən 1 dəqiqə çəkdi. Ard-arda 7 topu masanın müxtəlif luzalarına göndərdi, səliqəylə əlcəyini çıxarıb əlini mənə uzatdı. "Yenə oynamaq istəyirsən?" – deyə soruşdu.

Gülərək: "Məsələ aydındır", – dedim. O da gülümsəyib öz məşqinə qayıtdı. Axşam gələnlərin də başına təqribən buna bənzər şou gətirdi.

Həmin gün evə tərəf gedəndə içimdə qəribə bir sevinc var idi. Mən peşəkar oyunçunun nə demək olduğunu şəxsi təcrübəmlə hiss etmişdim. Sənətkarın əlində kiyin nələr etdiyini görmüşdüm. Mən sadəcə yaxşıya deyil, ən yaxşı oyunçuya uduzmuşdum. Adam mənimlə "Uşaqdır" deyib elə-belə oynamadı. Adam sanki əsl rəqibi ilə üz-üzə gəlmişdi, bütün ciddiyətiylə oynadı və mənə güzəştə getmədi. Onun üçün hər oyun vacib idi. Hər oyun əsl oyun idi.

Bilyard özündə iki vacib elementi birləşdirir. Birinci element strategiyadır. Yəni uzaqgörənlik, bir neçə

addım sonranı görə bilmək. İkinci element isə bacarıqdır. Bu da uzağı görməklə yetinməyib həm də reallıqda göstərə bilməkdir. Addımları bir-bir reallığa çevirməkdir...

O insan mənim üçün bilyardın canlı simvolu oldu.

# 96/100

## Nəyi gözləyirsiniz?

Musiqi:
Been Grindin – Tobe Nwigwe

Amerikada təhsil almağa getməzdən öncə imtahan verməli idim. 1-ci mərhələdən keçmişdim. Növbəti mərhələdə inşa yazmalı idik. Hamını fikir götürmüşdü:

"İndi nə yazaq ki, mükəmməl bir yazı ərsəyə gəlsin?"

İmtahanı müşahidə edən amerikalı dayı nə desə yaxşıdır?

"Hərf səhvlərinə, qrammatik səhvlərə fikir verməyin. Əsas öz fikrinizi çatdırın! Mesaj və məğzini anlaya bilək, yetər!"

Hamı dayının içkili olduğunu düşündü. "Əəə nətərrr yaniii beləəə imtahandaaa əsas mesajı çatdırınn?"

Nəsə bu dayı soyumadı. Bir dənə də amerikanskiy gülüşü ilə bizə dediklərini təkrar etdi. Elə bil tilsimimiz açıldı.

Hərəmiz bir şeylər cızmaqara elədik.

Ancaq o dayı dediyi sözlərlə bizi rahatlamasaydı, sadəcə yerimizdə donub qalacaq və ya uzun-uzadı tərəddüd edəcəkdik.

Həmin ölkədə insanların gün ərzində nə qədər şeyi

səhv etdiyini görüb birtəhər olurdum. Mənə izah edilən dünyada hər kəs anadangəlmə mükəmməl olurdu. Ya da heç doğulmurdu.

Bu Conlar və Merilər elə hey özlərini gicliyə qoyub səhvlər edir, cəhdlər göstərirdi. 3-4 ay sonra gördüm ki, qeyri-mükəmməl doğulanların arasında yaşamaq insana daha çox dəyər qatır.

Belə ki, mən də ürəklə cəhd etməyə başladım, bu günə kimi də edirəm. Nələrisə yoxlayıram. Nələrisə test edirəm.

Nəsə alınmır. Nəsə alınır. Ancaq alınanda yaman alınır!

Kitablarımı yazanda buldozer kimi işləyirdim. Bilirdim ki, səhvlər çox olacaq, amma eyni zamanda bilirdim ki, bu səhvləri düzəltmək mümkündür. Bunun üçün korrektor və redaktorlar var.

Yazmamağın peşmançılığını isə heç nə və heç kim düzəldə bilməyəcək!

Yadımdadır, "Alamo13"ün ilk iki fəslini oxuyan dostlarım məni kənara çəkib "Qaqaş, ağlını başına yığ, bu nə dialoqlardır", – demişdi. Dialoq yazmağa ilk dəfə idi, girişirdim. Birinci dəfədə alındırmamışdım. Sonra 5-6 səhifəni silib yenidən yazdım. Oldu konfet kimi. 8-ci fəsli qurtarmışdım, Toğrulun üz ifadəsi mənə həmin fəsli təzədən yazdırdı. Yeni versiyanı oxuyandan sonra mənə zəng etdi. Səs tonu dəyişmişdi.

10-cu fəsli silib yenidən yazmışam, çünki Dostoyevski kimi adam barəsində yazırdım. Onun keçirdiyi his-

ləri duymaq üçün həmin fəsli yazıb yenidən sildim (Ona da "Cinayət və cəza"nı bir dəfə sildirib təzədən yazdırıblar. Soruşanda deyiblər ki, qadası, bu qədər nihilizmi heç kim oxuyan deyil).

Bir sözlə, dostlar, bu yolda əsas olan mesajdır. Mesaj isə sadədir.

"Məsələ səhv və ya düz etməkdə deyil.

Əsas məsələ təkrar-təkrar etməkdə və nəhayət, yaxşı bir şey ərsəyə gətirməkdədir".

Bəs sizin hansı işinizi məhz "Mükəmməl olmalıdır, ya da heç olmamalıdır" sözü dayandırır?

Hansı kitabınızı, çıxışınızı, layihənizi, təqdimatınızı, dəvətinizi, məktubunuzu və ya sevgi etirafınızı "gözləmə rejimində" saxlamısınız?

Məndə həmin amerikanskiy gülüşdən yoxdur, amma Memar Əcəminskiy xahişi edirəm sizdən. Başlayın!

# 97/100

## İnsanlar şüşə qablara bənzəyir

Video:
Manufacturing process of a glass bottle
Machines and Industry

İnsanlar şüşə qablara çox bənzəyir. Şüşə qabın həyatı "bir ilahi barmağın start düyməsini basaraq konveyeri işə salmasıyla" başlayır. Bu şüşələr qum və odun birləşməsindən düzəldilir. Hətta onların qəlibi hazırlanmazdan bir neçə saniyə sonra dünyaya gələn körpələr kimi "göbəkləri" kəsilir.

Bu qablar zavodda gözlərini açandan bəri hərəkətdə olur. Onlar üçün nəzərdə tutulmuş dəmiryolu ilə getməli olurlar. Bu qablar istehlak edilmək üçün bir neçə mərhələdən – "bağça, məktəb və ali məktəb"dən keçməli olur. Bütün sistemin məqsədi onları bərabər şəkildə yetişdirməkdir. Bütün qablar bir-birinə bənzəməlidir. Bənzəməyən qabları isə fərqli aqibət gözləyir. Dayanmadan hərəkət edən minlərlə şüşənin cingiltisi zavodu başına götürəndə bəzi qablar konveyerin təzyiqinə dözməyib sınır.

Sınmayan qablar isə marketlərə və evlərə yola düşür. Şüşə qabların "azad seçimi" olmur. Onlar sadəcə verilən marşrutla hərəkət edir. Ancaq bir müddət sonra onların

bəziləri konveyeri vaxtsız tərk etməli olur. Zavodda xüsusi işçilər var. Onların vəzifəsi sistemin işinə yaramayan, defektli çıxan şüşələri müəyyən etməkdir. Onların işi bu şüşələri marketlərə buraxmamaqdır.

Bir gün bu şüşə qablardan biri yol gedərkən onu konveyerdən götürürlər. "İstifadəyə yararsızlar" rəfinə qoyulan şüşə qab gözlərinə inanmır. O anlayır ki, hərəkət etmədən də dayana bilir. O, sağa-sola və arxaya baxa bildiyini anlayır. O, qoyulduğu rəfdən bütün mənzərəni görə bilir. Konveyer xəttinin düz deyil, dairəvi olduğunu görür.

Məsələni uzatmadan deyim ki, yazıçıları yazmağa içlərindəki dərin yara vadar edir. Bu yaranın həm şəxsi, həm də ictimai səbəbləri var. Onlar yazaraq özlərini sağaltmağa, ağrılarını azaltmağa çalışır. Yazaraq cəmiyyəti düzəldəcəklərinə ümid edirlər. Ancaq əksəriyyəti bir məqamı unudur:

"İnsanlar şüşə qablara çox bənzəyir. Onlar yalnız sınanda, defektləri üzə çıxanda dayana bilir. Qalan vaxtlarda isə daim hərəkətdə olub marketlərə gedirlər. Ordan insanların əllərinə keçirlər. Suları içilir. Boş vəziyyətdə zibil qutularına atılır. Nəhayət, "təkrar emal" üçün zavoda qayıtmalı və eyni prosesdən təzədən keçməli olurlar".

Bir şüşə qabın həyatı bir qazanda başlayır və eyni qazanda bitir. Ancaq rəfdə dayanan "yararsız" şüşəni tamam fərqli aqibət gözləyir.

Yazmaq nəsib olsa, bütün dünyanı onun həyatı ilə tanış edəcəyəm.

# 98/100

## Forrest nə üçün qaçırdı? Kərimov, nə üçün yazırsan?

Musiqi:
Aloe Blacc – The Man (Explicit)

"Forrest Gump" filmini izləyənlər onun məşhur marafonunu xatırlayır. Kilometrlərlə yol qaçan Forrest özü də istəmədən ölkənin gündəminə çevrilir. Onu izləməyə başlayırlar. Onun kimi qaçmağa başlayırlar. Ondan məsləhət almaq üçün sıraya düzülürlər. Onu yamsılayanlar və həqiqətən də, ilham alıb qaçanlar olur. Jurnalistlər onunla birgə qaçaraq "Ay qardaş, nə üçün qaçırsan?" – soruşurlar. Ondan bir cavab çıxmır və ona görə də jurnalistlər Forrestin yerinə versiyalar fikirləşir. "Dünya üçün, sülh üçün, insan haqları üçün qaçır" kimi mənasız versiyalar irəli sürürlər.

Forrest nə üçün qaçır?

Hekayəyə əsasən, onun ürəyi Cennisiz dözmür. Cenni onun uşaqlıq sevgisi və ilham pərisidir. Ona qaçmaq üçün ayaqqabıları bağışlayan "çılğın" xasiyyətli qızdır. Cenni yerində dayana bilmir. Forrestin ürəyində özünə yer etsə belə, onu Forrestlə gözləyən sakit, sonu "xoşbəxt" bitəcək həyatdan imtina edir. Cenni bir daha məsuliyyətdən qaçmış olur.

Forrest özünü tanıyandan qaçır. Nə üçün? Çünki bunu etmək istəyir. Çünki bu onda yaxşı alınır. Çünki bu onda ən yaxşı alınan işdir. Forrestin həyatı məhz qaçaqaçda keçir. Cenni Forresti qaçmağa məcbur edən gündən onun üçün oyunun qaydaları dəyişir.

Ancaq Cennisiz qaçmaq da bir iş deyil.

Ya da Cenniyə aparmayan yollarda qaçmağın nə mənası var?

Bir gün marafonu bitirmək vaxtı gəlir. Forrest dayanır.

Onu izləyən yüzlərlə insan çaşbaş qalır. Forrestin qaçmasına mayak kimi baxanlar mayak sönəndə nə edəcəklərini bilmirlər.

Forrest ən yaxşı qaçan insan olsa belə, yorulur.

Qaçmaqdan yorulur. Sevdiyin işdən də yorulmaq olar?

İnsan ruhu üçün mümkün olmayan hal yoxdur. Bu yazıları buraya kimi oxuyan və ümumiyyətlə, yazılarımı izləyən insanlarla səmimi söhbət etmək istəyirəm.

Əvvəl yazanda heç bir məqsədim yox idi. Yazmaq istəyirdim. Sonra məqsəd də tapıldı. Ona çatdım. Buna baxmayaraq, davam etdim. Yeraltı musiqi mənim üçün axtarışlarımın cəmi idi. "Nəyi necə etmək olar?" demək əvəzinə edirdim. Sakitcə oxumağa başlayıb arxamca qaçanlar əmələ gəldi. Yamsılamaq istəyənlər oldu. İlham alıb işə başlayanlar da oldu. Mesaj qutuma maraqlı suallar, təkliflər və fikirlər şəlaləsi töküldü.

Bu marafonun səbəbkarı – "Cenni" tanınmaz hala

düşdü. Ancaq bu 100 yazı məni də müəyyən qədər dəyişdi.

Bu neçə ildə nə qədər uzun və qəribə bir yolu "qaçdığımı" anladım. Yazıları səssiz oxuyub keçənlər mənim özümlə marafonumdan hansı nəticələr çıxarırdı? Bunu heç vaxt bilməyəcəyəm.

2015-ci ildən bu günə kimi, "KVAN" hələ çap olunmazdan əvvəl, yazılarımı oxumağa, bu yolu mənimlə birgə qaçmağa başlayan hər kəsə təşəkkürümü bildirirəm. Bu yolun sonunda "KVAN"ın 3-cü tirajını tam arzuladığım kimi çap etdirmək dayanırdı.

Bu hissi sizinlə paylaşacağam.

Bu gün feysbukda bir postu "uzun" olduğu üçün oxumayanlardan fərqli olaraq, "Kitabdan daha qısadır, ancaq ən az onun qədər faydalıdır", – deyib oxuyanlar üçün yazdım.

Yüzlərlə yazımın Markın səltənətində itib-batmasını qəbul edə bilmirəm. Ona görə də bura qədər sizinlə birlikdə qaçdığımız ən gözəl "kilometrləri" xatirə kimi saxlamaq və bir topluya çevirib rəfinizə qoymaq istəyirəm.

Bir toplu təsəvvür edin!

İstədiyiniz yerdən açıb oxumağa başlaya bilirsiniz.

Hər gün hissə-hissə oxuyursunuz.

İşdən əvvəl və ya sonra, musiqiylə və ya musiqisiz, kofeylə və ya çayla, təkbaşına və ya ailənizlə oxuyursunuz.

Bir toplu təsəvvür edin!

Onun haqqında “İllər sonra Azərbaycanda bir gənc yazmağa başladı və biz onu tək qoymadıq, onunla birgə “marafon”u qaçdıq” deyəcəksiniz. Aldığınız kitablar arasında sizə doğma gələn ilk kitab olacaq. Çünki bu kitabın içində sizin oxuma saatlarınız, gözünüzün nuru, hisləriniz və yazıya olan sevginiz gizlidir. Eyni zamanda bu əsər “mümkün deyil” sözünü tez-tez eşitdiyiniz reallıqda 3 dəfə mümkünsüzü mümkün etməyin, “sıfırdan bir kitabın ərsəyə gəlməsində iştirak etməyin” mükafatıdır.

Forrest nə üçün qaçırdı? Kərimov nə üçün yazırdı?

Bu suallara dəqiq cavabım yoxdur.

Siz nə üçün oxuyurdunuz?

Nə üçün milyonlarla yazının içində məhz bu postu sona kimi oxuyub “bu anı” müəlliflə birlikdə yaşamaq istədiniz?

Əsas odur ki, ikimiz də dayanıb arxaya baxanda nə qədər uzun yol qət etdiyimizi görəcəyik.

Bəlkə də, bir daha birlikdə yeni yollarımızı qət edəcəyik.

# 99/100

## Çox gəzən çox bilər, yoxsa çox oxuyan?

Musiqi:
Westworld Final Song "Exit Music"
(For a film) – Ramin Djawadi

Bu yaxınlarda Travellersmind yarışında bu suala cavab tapmaq üçün intellektual insanlardan və səyyahlardan ibarət komandalar bir məkana toplandı. Maraqlıdır ki, təşkilatçıların feysbukda "Gəzəyənlər" adlı bir səhifəsi var. Daha da maraqlısı odur ki, yarışda qalib gələn komandanın da feysbukda "Gəzməyənlər" adlı səhifəsi var. Bir sözlə, həmin görüşdə çox oxuyanlar qalib gəldi. Ola bilər ki, başqa görüşlərdə səyyahlar qalib gəlsin. Ancaq hesab hələ ki 1-0 oldu.

Çox gəzmək deyəndə neçə ölkəyə getmək nəzərdə tutulur?

Çox gəzmək üçün haraları görmək və nələri etmək lazımdır?

Bu sualların cavabını bilmirəm.

Bəs "Çox oxudum" demək üçün neçə kitab oxumuş olmalısan?

Dünyada belə bir möhtəşəm rəqəmin sahibi varmı?

Rəsmi olaraq qeydə alınmış bir xanım var! Adı Luiza Braundur. 10 il əvvəl bir məqalədə bu xanımın mütaliə "kilometrajı" barədə məlumatı oxuyanda ağzım açıq qalmışdı.

Luiza yerli kitabxanaya abunə olaraq, 1946-cı ildən 2009-cu ilə kimi (təqribən 60 il) hər həftə minimum 6, maksimum 12 kitabı götürüb oxuyub.

Bu müddət ərzində kitabxananın bütün "stok"unu bitirib. Beləliklə, o, 25.000 kitab oxuyub. Luizanın dediyinə görə, ailəsindən ona qalan ən güclü sevgi məhz kitab sevgisiymiş.

Bəzən dərs dediyim insanların sürücüləri onları saatlarla gözləyir. Bir dəfə biri gileylənəndə ona kitab uzatdım. "Gözləyirsən, götür bu kitabı oxu", – dedim. Bir az vərəqlədi, sonra isə "oxumadan gözləyərəm" senarisinə keçib gileyinə davam etdi.

"Yəqin, o da Xaronun yolunu gözləyir", – deyə düşündüm.

Kitab evlərinə gedib ruhən dincələn, kitabları vərəqlərkən izahedilməz hislər keçirən hər kəsi sevgiylə yad edirəm.

Sonda isə çox sevdiyim Emili Dikinsonun "Heç bir yelkənli gəmi insanı kitab qədər uzaqlara apara bilməz" sözləriylə növbəti ifama keçirəm.

# 100/100

## Musiqinin sonuncu notları

Musiqi:
Yann Tiersen "Rue des Cascades (Instrumental)"

"Əvvəlimiz necə olub?" və ya "Axırımız necə olacaq?" kimi suallarla nə özümü, nə də sizi yormaq istəmirəm. Mənə maraqlı gələn hal-hazırda dinlədiyim Yann Tiersen ifasında "Rue des Cascades" adlı musiqi parçasıdır. Necə olub ki, mən bu parçanı daha öncə eşitməmişəm? Necə olub ki, Yann kimi insanın bu ifası gözümdən qaçıb?

Onun notlarında həyatın tələsən, eyni zamanda, yaşamağa həvəsləndirən ritmini hiss edirəm. Uşaqlıq illərimdən bugünkü halıma "qatar yolu" çəkməyi bacarır. Bu notların səsi relslərin səsidir. Bizi "oralara" aparan relslərin səsi.

Canın yanmasın, ay Yann!

Axı nə üçün sənin ifanla insan bu qədər rahatlıq tapa bilir? Nə əvvəli, nə də sonu düşünmür. İndiki anı dinləyir. İndiki halını bütün çalarlarıyla hiss edir.

Musiqinin məqsədi nədir?

İnsan musiqiyə nə üçün qulaq asır?

"Rue des Cascades"i eşidən Coşqun nə üçün özünü bu qədər yaxşı hiss edir?

Musiqiyə yaşanmış hislər hopub. Dinləyən ifa edənlə, bəstələyənlə birgə bu “notları” yaşaya bilir. Birlikdə yaşanan bu an musiqini ölümsüz edir.

Silsilənin ilk yazısında sizinlə birgə bir yola çıxdım. İfa etdim. Bəziləriniz bir qədər dinləyib fasilə verdi, bəziləriniz sona kimi mənimlə birgə dinlədi. Hər iki tərəf yaşamalı olduğu hisləri yaşadı.

Əvvəllər sonuncu notları yazmaq çətin gəlirdi. Mükəmməl sonluq düşünmək çox vaxt aparırdı. Sonra isə həyatın özü kimi sadə bir çıxış yolu tapdım.

Həmin an üçün ən uyğun sonluq nədirsə, onu da yazdım.

Bu toplunu bitirməli olan Coşqun “Nə yazım ki nöqtə qoyulsun!” deyə düşünəndə rastına Yann Tiersen çıxdı. Başqa adam da ola bilərdi. Başqa bir parça da kəşf edə bilərdim. Ancaq sonluq məhz “Rue des Cascades”lə gəlir.

Bu kitablar bizim axırımıza çıxacaq.

Əvvəl ərinə-ərinə oxumağa başlayırsan. Sonra həvəsə gəlirsən. Axırda isə sonuncu səhifənin gəlişi ilə üzülürsən. İstəmirsən ki, bu yol bitmiş olsun. İstəmirsən ki, bu musiqi dayansın.

Musiqi dünyasının da, kitab dünyasının da öz qaydaları var. Həmin qaydalar insan fitrəti nəzərə alınaraq tərtib olunub.

Biz heç bir əsərə ömrümüzün sonuna kimi sadiq qalmırıq. Hər dəfə daha yaxşı, yeni və fərqli bir əsər tapılır. Yeni əsəri oxuyarkən və ya parçanı dinləyərkən “Necə olub ki, daha əvvəl...” demək keçir ağlınızdan.

Əgər sizin üçün bu, belə deyilsə, demək, əvvəlki əsəri bərk-bərk qucaqlamısınız. Qollarınızı yeni bir əsərə açın.

Tiersen növbəti ifasına keçir.

Coşqun növbəti yazısına keçir.

Siz də belə edin.

Uğurlar!